

«Korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə gözəl nəticələr verir. Bunu əhali də görür, təqdirlə qarşılayır. Beynəlxalq qurumlar da bunu qeyd edirlər. Hesab edirəm ki, biz bu sahədə köklü dəyişiklərə nail ola bilmişik.»

**İLHAM ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

# AZƏRBAYCAN PROKURORLUĞU

ELMİ-PRAKTİKİ JURNAL

**№ 3 (47)**

**İYUL – SENTYABR 2014-cü il**

**Təsisçi:** Azərbaycan Respublikasının Baş Prokurorluğu

**REDAKSİYA HEYƏTİ:**

**Baş redaktor:**
Namiq Əsgərov

**Baş redaktorun müavini:**
Nazir Bayramov
*nazirbairamov@mail.ru*

**Redaksiya heyətinin üzvləri:**
Bəhruz Mahmudov
İlqar Cəfərov
Nazim Abbasov
Natiq Hüseynov

**Məsul katib:** Eldar Əfəndiyev

**Redaksiyanın ünvanı:**
AZ 1001, Azərbaycan Respublikası,
Bakı şəhəri, N.Rəfibəyli küçəsi, 7.
Tel.: 492-25-17, Faks: 492-25-17
www.genprosecutor.gov.az

***

«Kütləvi informasiya vasitələri haqqında» Azərbaycan Respublikası Qanununa müvafiq qaydada təsis edilmişdir.

***

Jurnal 2003-cü ildən etibarən, rübdə bir dəfə dövriliklə dərc edilir.

***

Azərbaycan Respublikası Baş prokurorunun 1 iyun 2010-cu il tarixli, 10/53 nömrəli «Azərbaycan Prokurorluğu» elmi-praktiki jurnalının redaksiya heyətinin yeni tərkibinin təsdiq edilməsi haqqında əmrinə əsasən, Azərbaycan Respublikası Prokurorluğunun elmi-praktiki mətbu orqanı olan «Azərbaycan Prokurorluğu» jurnalının fəaliyyəti üçün məsul qurum kimi Baş Prokurorluğun Elm-Tədris Mərkəzi müəyyənləşdirilmişdir.

***

Materiallardakı faktların doğruluğuna jurnalın redaksiya heyəti məsuliyyət daşımır.

***

Materiallarımızdan istifadə zamanı jurnala istinad etmək vacibdir.

***

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin mətbəəsində çap edilmişdir.

***

Çapa imzalanmışdır: 21.10.2014-cü il
60x84 1/8 formatda 80 səhifə həcmində
çap olunmuşdur. Tiraj: 1350 nüsxə.

© «Azərbaycan Prokurorluğu», 2014

## MÜNDƏRİCAT


**İctimai-siyasi tədbirlər**

– Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2014-cü ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir ........ 3

**Rəsmi tədbirlər**

– Baş Prokurorluqda prokurorluq orqanları tərəfindən 2014-cü ilin birinci yarımilində görülmüş işlərin vəziyyətinə həsr olunmuş geniş əməliyyat müşavirəsi keçirilmişdir ........ 12
– «Korrupsiyaya qarşı mübarizə: beynəlxalq standartlar və milli təcrübələr» mövzusunda beynəlxalq konfransın iştirakçıları ümummilli lider Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət etmişlər ........ 16
– Bakıda «Korrupsiyaya qarşı mübarizə: beynəlxalq standartlar və milli təcrübələr» mövzusunda beynəlxalq konfrans işini davam etdirmişdir ........ 18
– Beynəlxalq Bakı konfransı korrupsiyaya qarşı birgə mübarizə işinə daha sanballı töhfə verəcəkdir ........ 24
– Azərbaycan ilə Avropa Şurası arasında hüquqi sahədə əlaqələr yüksək səviyyədədir ........ 25
– Albaniyanın Baş prokuroru beynəlxalq Bakı konfransının yüksək səviyyədə təşkil olunduğunu vurğulamışdır ........ 26
– Azərbaycanın və Xorvatiyanın Baş prokurorluqları arasında əməkdaşlıq məsələləri müzakirə olunmuşdur ........ 27
– Beynəlxalq Bakı konfransı başa çatmışdır ........ 28
– Türkiyə Ali Məhkəməsi Baş Prokurorluğunun nümayəndə heyəti ümummilli lider Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib ........ 30
– Azərbaycan ilə Türkiyə arasında hüquqi sahədə əməkdaşlıq bundan sonra da uğurla davam etdiriləcək ........ 31
– Azərbaycanın və Bolqarıstanın Baş prokurorluqları arasında əməkdaşlıq proqramı imzalanmışdır ........ 32
– AŞPA-nın sədri Baş Prokurorluqda olmuşdur ........ 33
– Prokurorluq orqanlarında qulluğa yeni qəbul edilmiş gənc əməkdaşların andiçmə mərasimi keçirilib ........ 33
– Prokurorluq orqanlarında vətəndaşların müraciətlərinə baxılması işi daim diqqət mərkəzindədir ........ 37
– Naxçıvan Muxtar Respublikası Prokurorluğunda 2014-cü ilin birinci yarımilində görülmüş işlərin yekunları və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş kollegiya iclası keçirilmişdir ........ 40

**Təhlillər, təkliflər**

N.Bayramov – Tədris prosesi təkmilləşdirilir ........ 43

**Diskussiya klubu**

F.Həsənəliyev – İbtidai istintaqın aparıldığı yerin müəyyən edilməsi meyarları qanun norması ilə dəqiq tənzimlənməlidir ........ 46
N.Bayramov – İbtidai istintaqın prosessual aidiyyət məsələlərinin pozulmasının hüquqi nəticələri barədə ........ 48

**İctimaiyyətə hesabat**

– Baş Prokurorluğun Elm-Tədris Mərkəzi ilə Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası arasında işgüzar əməkdaşlıq ........ 52
– Baş Prokurorluğun Elm-Tədris Mərkəzində ərazi hərbi prokurorluqlarının kriminalistlərinə seminar keçirilmişdir ........ 54
– Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi 2014-cü ilin I yarımili ərzində görülmüş işlərə dair hesabatla çıxış etmişdir ........ 55
– Prokurorluq orqanlarına işə qəbulla əlaqədar elan olunmuş müsabiqəyə yekun vurulmuşdur ........ 58
– Prokurorluq orqanlarında qulluğa qəbulla bağlı Naxçıvan Muxtar Respublikasında test imtahanı keçirilmişdir ........ 58
– İmişli rayon prokurorluğunda bölgə prokurorluqlarının əməkdaşlarının iştirakı ilə seminar keçirilmişdir ........ 60

**Kadrlarla iş** ........ 61

**Normativ hüquqi aktlar**

Qanunvericiliyə dəyişikliklər ........ 62
Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun qərarı........ 76

## İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2014-cü ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir

Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2014-cü ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.

Dövlət başçısı iclası giriş nitqi ilə açdı.

### AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN GİRİŞ NİTQİ

– Nazirlər Kabinetinin bugünkü iclasında biz ilin altı ayının sosial-iqtisadi yekunlarını müzakirə edəcəyik. Deyə bilərəm ki, ilin birinci yarısında ölkəmizin uğurlu inkişafı təmin edilmişdir. Qarşıda duran bütün məsələlər uğurla icra edilmişdir. Bir dənə də olsun icra edilməmiş məsələ yoxdur. Əlbəttə, bu, deməyə əsas verir ki, ilin sonuna qədər də bütün vəzifələr icra ediləcək, ölkəmizin dinamik uğurlu inkişafı davam edəcəkdir.



Bizim uğurlarımızın təməlində düşünülmüş siyasət, sabitlik dayanır. İqtisadi sahədə aparılan islahatlar da mühüm yer tutur. Çünki bu islahatlar sayəsində Azərbaycanın dayanıqlı inkişafı mümkün olmuşdur. Siz də yaxşı xatırlayırsınız ki, vaxtilə bizim uğurlarımızı bəziləri ancaq neft amili ilə bağlayırdılar. Belə bir fikir irəli sürülürdü ki, Azərbaycanın nefti var və buna görə ölkə iqtisadiyyatı inkişaf edir. Əlbəttə, son illərdə bu amil öz rolunu oynamışdır. Ancaq bizim uğurlu siyasətimizin nəticəsində bu gün neftdən asılılıq böyük dərəcədə aşağı düşmüşdür və ümumi daxili məhsulumuzun böyük hissəsi qeyri-neft sektorunda yaranır.

Bu, düşünülmüş siyasətin nəticəsidir və bizim islahatlarımız mötəbər beynəlxalq maliyyə qurumları tərəfindən də yüksək qiymətləndirilir. Mötəbər beynəlxalq maliyyə qurumları öz proqnozlarını müəyyən edərkən, Azərbaycanın bundan sonra da uzun illər ərzində uğurlu inkişafını qeyd edirlər. Bizim islahatlarımız, eyni zamanda, müxtəlif qurumların reytinqlərində də özünü göstərir. Dünyanın aparıcı reytinq agentlikləri bizim kredit reytinqlərimizi artırırlar. Bu gün xarici maliyyə bazarlarından kredit resurslarının cəlb edilməsi üçün bizdə heç bir problem yoxdur. Əksinə, biz bu məsələyə bir qədər təmkinlə yanaşırıq. Çünki hesab edirik ki, daha çox daxili imkanlardan istifadə etməliyik. Davos Dünya İqtisadi Forumu – dünyanın bir nömrəli iqtisadi forumu Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətliliyini yüksək qiymətləndirərək bizi 39-cu yerdə yerləşdiribdir. Hesab edirəm ki, gənc müstəqil ölkə üçün bu, çox böyük göstəricidir.

Bir sözlə, müxtəlif amillərin nəticəsində ölkəmizin uğurlu inkişafı mümkün olmuşdur. Ölkəmizdə çox gözəl investisiya şəraiti vardır. Xarici və daxili investorlar Azərbaycana inamla yanaşırlar. Daxili sabitlik, xalqla iqtidar arasındakı birlik, cəmiyyətdə ölkəmizin gələcəyi ilə bağlı nikbin fikirlərin üstünlük təşkil etməsi, əlbəttə ki, dinamik iqtisadi inkişafımıza təkan verir.

Birinci altı ayda iqtisadi göstəricilərimiz də çox müsbətdir – iqtisadiyyat 2,1 faiz artmışdır. Bəlkə də əvvəlki dövrlərlə müqayisədə bu, o qədər də böyük rəqəm deyildir. Ancaq bu gün dünyada, bölgədə və Avropada yaşanan iqtisadi çə-

tinliklər fonunda hesab edirəm ki, bu, çox gözəl göstəricidir. Ən sevindirici hal ondan ibarətdir ki, – mən bunu sevinc hissi ilə qeyd edirəm, – son illər ərzində qeyri-neft sektorumuz uğurla artır və qeyri-neft sektorumuzda inkişaf 7 faiz səviyyəsindədir. Bu da əlbəttə ki, dediyim məsələlərin nəticəsidir. Çünki əgər biz vaxtilə neft kapitalını insan kapitalına, infrastruktur layihələrinə yönəltməsəydik, bu gün qeyri-neft sektorumuz bu qədər arta bilməzdi. Bəlkə də tənəzzülə uğrayardı və onda biz ancaq neft amilindən asılı ola bilərdik. Gələcək illərdə ayrılan vəsait və aparılan islahatlar qeyri-neft sektorunun daha da böyük çəkiyə malik olmasına gətirib çıxaracaqdır.

İnflyasiya Azərbaycanda nəinki birrəqəmlidir, hətta 1,6 faiz təşkil edir. Bu, çox gözəl göstəricidir. Xüsusilə nəzərə alsaq ki, ölkəmizə bu qədər həm daxili, həm xarici investisiyalar qoyulur, maaşlar, pensiyalar ildən-ilə qaldırılır, sovet vaxtından qalmış əmanətlər kompensasiya şəklində, MDB-də ən böyük əmsalla, ən qısa müddət ərzində insanlara qaytarılmışdır – bütün bu amillərə baxmayaraq, inflyasiya cəmi 1,6 faizdir. Əhalinin pul gəlirləri isə 4,7 faiz artıb, yəni, inflyasiyanı 3 dəfə üstələyir. İstənilən ölkə üçün bu, ən arzu olunan balansdır. Ona görə bu amillər, iqtisadiyyatımızın əsas göstəriciləri bizə ümid verir, deyək ki, biz bu templəri ilin sonuna qədər saxlayacağıq. Ümid edirəm belə də olacaqdır, ümumi daxili məhsul daha da artacaqdır.

Kənd təsərrüfatında inkişaf müşahidə olunur. Kənd təsərrüfatımız təxminən 6 faiz artıbdır. Ümid edirəm ki, indi aparılan islahatlar nəticəsində biz gələn illərdə daha da böyük artıma nail olacağıq.

Ölkəmizin maliyyə vəziyyəti çox sabitdir. Mən dəfələrlə demişəm, bizim iqtisadi və maliyyə vəziyyətimiz müstəqilliyimizi şərtləndirən əsas amillərdən biridir. Azərbaycan böyük maliyyə resurslarına malikdir. Bu resursları biz özümüz yaratmışıq, bizə heç kim kömək etməmişdir. Azərbaycan xalqının istedadı və düşünülmüş siyasət nəticəsində bunu əldə etmişik. Bu gün dünya miqyasında adambaşına düşən valyuta ehtiyatlarına görə, hesab edirəm ki, Azərbaycan aparıcı, yəni, ən qabaqcıl yerlərdədir. Bizim 54 milyarddan çox valyuta ehtiyatlarımız vardır. Bu da bizə inam, əminlik verir, imkan verir ki, bundan sonra da böyük infrastruktur və sosial layihələrimizi icra edək.

Bunu da xüsusilə qeyd etməliyəm ki, biz bu vəsaitdən çox qənaətlə istifadə edirik, ən vacib olan sahələrə yönəldirik. Eyni zamanda, ölkə daxilinə dövlət tərəfindən qoyulan investisiyaların artırılmasına da imkan verməməliyik. Çünki bu, xoşagəlməz hallara gətirib çıxara, inflyasiyanı sürətləndirə bilər və buna ehtiyac yoxdur. Biz növbəti illərdə bu templə inkişaf etsək, hesab edirəm ki, kifayətdir.

İl ərzində bizim valyuta ehtiyatlarımız artıb. Yəni, biz ildən-ilə, aydan-aya valyuta ehtiyatlarımızı artırırıq. Ona görə, mən bilirəm ki, biz çox qənaətlə istifadə edirik. Biz populist vədlərdən tamamilə uzağıq, heç vaxt bunu etməmişik. Ancaq praqmatik, düşünülmüş siyasət aparmışıq və bu siyasət imkan verdi ki, biz bütün çətinliklərdən şərəflə, üzüağ çıxa bildik.

Dünyanı bürümüş iqtisadi, maliyyə böhranı Azərbaycan əhalisinə, iqtisadiyyatına bir faiz də təsir etməmişdir. Bunu yəqin, gələcəkdə alimlər araşdıracaqlar və təhlil aparacaqlar ki, bu, nə üçün belədir. Bizim, sadəcə olaraq, buna vaxtımız yoxdur, biz işlə məşğuluq və işimiz göz qabağındadır. Biz böyük maliyyə resurslarına malik olan ölkəyik. Bir daha qeyd etmək istəyirəm, biz ildən-ilə maliyyə resurslarını artırırıq, artıracağıq. Bu resurslardan səmərəli şəkildə istifadə etməyimiz, bizə əlbəttə ki, əlavə gəlirlər gətirir və bu gün öz investisiya portfelimizi şaxələndiririk – həm sahələr üzrə, həm də xaricdə qoyulan investisiyaların coğrafiyası genişlənir.

Bu il üçüncü regional inkişaf proqramı qəbul edilmişdir. Bu proqramın icrası nəticəsində artıq ilin altı ayında 65 min yeni iş yeri açılmışdır ki, onlardan 52 mini daimi iş yeridir. 2003-cü ildən bu günə qədər – bu proqramlar icra edilməyə başlayandan sonra 1 milyon 300 min iş yeri açılmışdır ki, onlardan təqribən 1 milyonu daimi iş yeridir. Demək olar ki, işsizlik böyük dərəcədə aradan qaldırılmışdır, çox aşağı səviyyədədir. Ancaq onu nəzərə almalıyıq ki, bizim uğurlu iqtisadi və siyasi addımlar nəticəsində Azərbaycanda, – bu da çox sevindirici bir haldır, – əhali sürətlə artır. İldən-ilə artan əhali hökuməti də, əlbəttə ki, daha da fəal olmağa çağırmalıdır. Eyni zamanda,

bu, onu deməyə əsas verir ki, yeni iş yerlərinin açılması daimi proses olmalıdır. Biz deyə bilmərik ki, artıq bir milyon daimi iş yeri açılıbdır, gəlin, indi bu məsələyə diqqət yetirməyək. Yox, bu, daimi proses olmalıdır. Sənayeləşmə, kənd təsərrüfatı, yüksək texnologiyalar, digər sahələr sürətlə inkişaf etməlidir ki, biz insanlarımızı gələcəkdə də iş yerləri ilə təmin edə bilək.

Ona görə hesab edirəm, vaxt gəlib çatıb ki, bu məsələ ilə bağlı düşünülmüş bir konsepsiya hazırlansın. Bu günə qədər bu, bir qədər kortəbii proses kimi gedirdi. Ancaq bizim əhalimiz bundan sonra da artacaqdır. Əhali nə qədər artsa, sonrakı illərdə o faiz də bir o qədər böyük rəqəmlərlə ölçüləcəkdir. Bir var ki, 8 milyon əhali bir, ya iki faiz artır, biri də var ki, on milyon əhali. Yəni, rəqəmlər də mütləq böyüyəcəkdir. Ona görə biz uzunmüddətli məşğulluq konsepsiyasının müzakirəsini başlamalıyıq. Müəyyən işlər görülmüşdür, biz bunu gərək daha da konkretləşdirək ki, hansı sahələrdə nə qədər iş yerləri açılmalıdır. Buna görə biz nə etməliyik, hansı institusional islahatlar aparılmalıdır, buna nə qədər investisiyalar cəlb edilməlidir? Hesab edirəm ki, bundan sonra dövlət investisiya xərclərinin müəyyən edilməsində bu amil əsas olmalıdır. Çünki biz əvvəlki illərdə, hətta indi də vəsaiti ən böyük inkişafa ehtiyacı olan sahələrə yönəldirik.

İnfrastruktur, sosial layihələr, müdafiə xərcləri, əlbəttə ki, bu, lazımdır və düşünülmüş siyasətdir. Ancaq biz məşğulluq məsələlərini indi daha da ciddi nəzərə almalıyıq. Üçüncü regional inkişaf proqramının icrası nəticəsində 2018-ci ilə qədər bizim bütün əsas infrastruktur və sosial məsələlərimiz öz həllini tapmalıdır. Əminəm ki, belə də olacaqdır.

Bakı və onun qəsəbələrinin inkişaf proqramı icra edilir. Bu proqram daha qısamüddətlidir, 2016-cı ilə qədər başa çatmalıdır. Hesab edirəm ki, bu sahədə də hər şey cədvəl üzrə gedir, heç bir problem yoxdur.

Sosial məsələlərin həlli bu altı ayda da diqqət mərkəzində olmuşdur. Orta əməkhaqqı artıb, indi 440 manat və ya 560 dollar təşkil edir. Əminəm ki, daha da artacaqdır.

Sosial infrastruktur layihələri icra edilir. Səksəndən çox təhsil müəssisəsi, qırxdan çox səhiyyə ocağı təmir olunur, tikilir. Yəni, bu da sosial sahəyə ayrılan vəsaitin, diqqətin hesabına olan məsələlərdir.

Eyni zamanda, əhalinin sosial müdafiəsi istiqamətində ciddi islahatlar aparılır, şəffaflıq təmin edilir. Bu, əhali tərəfindən böyük rəğbətlə qarşılanır. Əminəm ki, islahatlar daha da dərinləşəcəkdir. İslahatlar şəffaflıq nöqteyi-nəzərindən daha da dərinləşməlidir. Dünyanın aparıcı ölkələrinin bu sahədə böyük təcrübəsi vardır. Biz bu təcrübəni, əlbəttə ki, öyrənirik, tətbiq edirik. Azərbaycanda sosial sahədə vəziyyət dünyanın aparıcı ölkələrindən geri qalmamalıdır. Buna nail olmaq üçün, hesab edirəm ki, bütün imkanlarımız vardır.

Biz bu altı ayda, əlbəttə ki, hərbi məsələlərə xüsusi diqqət göstərmişik. Ordu quruculuğu prosesi uğurla gedir, orduda islahatlar dərinləşir, nizam-intizam artır. Ordumuzun döyüş qabiliyyəti yüksək səviyyədədir, gündən-günə artır. Ordu günündə və bu yaxınlarda cəbhə bölgəsində keçirilmiş təlimlər həm praktik nöqteyi-nəzərdən, eyni zamanda, gücümüzü nümayiş etdirmək nöqteyi-nəzərindən çox böyük əhəmiyyətə malik məsələlərdir. Bu yaxınlarda səfirlərlə görüşdə bu məsələ ilə, ümumiyyətlə, xarici siyasətlə bağlı sözlərimi kifayət qədər geniş demişəm, təkrar etmək istəmirəm. Sadəcə olaraq bir daha demək istəyirəm ki, ərazi bütövlüyü əsas beynəlxalq hüququn norma və prinsipidir. Dağlıq Qarabağ münaqişəsi ancaq bu prinsip çərçivəsində öz həllini tapa bilər.

Bu altı ayda neft-qaz sahəsində, xüsusilə «Cənub» qaz dəhlizi ilə bağlı ciddi addımlar atılmışdır. İlkin tenderlər elan edilmişdir. TANAP layihəsinin icrası, demək olar ki, artıq başlamışdır. Tikintiyə hazırlıq dövrü çox uğurla gedir. Hesab edirəm ki, biz bu böyük layihəni vaxtında icra edəcəyik. «Cənub» qaz dəhlizinin təşəbbüskarı Azərbaycandır. Bu layihənin icrası nəticəsində həm Azərbaycan, həm də onun qonşuları və Avropa ölkələri böyük fayda götürəcəklər. Azərbaycan bu sahədə də liderlik keyfiyyətlərini göstərmişdir. Bu üç layihə – «Şahdəniz-2», TANAP və TAP Avropanın enerji xəritəsini dəyişdirəcək, Azərbaycanı çox önəmli iqtisadi və enerji tərəfdaşına çevirəcək və ən vacibi, Azərbaycan xalqının bundan sonra da iqtisadi və maliyyə məsələlərinin həlli sahəsində rifahını təmin edəcəkdir. Biz bu layihənin icrası nəticəsində bundan sonra ən azı yüz il ərzində

qaz ixracatından böyük fayda götürəcəyik və Azərbaycanın dünyadakı rolu daha da artacaqdır.

Bu gün bizim dünyada oynadığımız rol çox önəmlidir. Azərbaycanın nüfuzu, önəmi, təsir imkanları gündən-günə artır.

Bütün bunları biz özümüz qazanmışıq, əldə etmişik.

Enerji siyasətimiz bu gün ümumi siyasətimizin tərkib hissəsidir, nəinki bizim üçün, bütün ölkələr üçün milli təhlükəsizlik məsələsidir. Son aylarda bölgədə, Avropada bu sahədə müşahidə olunan hadisələr və müəyyən gərginlik bir daha göstərir ki, enerji təhlükəsizliyi olmadan heç bir ölkə özünü rahat hiss edə bilməz, tam müstəqil siyasət apara bilməz.

Biz isə öz enerji təhlükəsizliyimizi çoxdan təmin etmişik və bu gün başqa ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində öz rolumuzu oynayırıq. Bu rol müsbət roldur. Bunu bizim tərəfdaşlar qiymətləndirirlər. Azərbaycan heç vaxt öz enerji resurslarından başqa məqsədlər üçün istifadə etməmişdir. Bizim bu sahədəki fəlsəfəmiz və yanaşmamız ondan ibarətdir ki, enerji resursları əməkdaşlığı dərinləşdirməlidir, birliyi möhkəmləndirməlidir və əlbəttə ki, biz bu siyasəti apararaq öz milli maraqlarımızı təmin edirik. Bu gün həm bölgədə, həm dünyada bizim maraqlarımız təmin edilir.

Növbəti illərdə TANAP layihəsinin icrası ilə bağlı Azərbaycanda on minlərlə yeni iş yeri açılacaqdır. Azərbaycan şirkətləri bu layihələrdə iştirak edəcəklər. Son vaxtlar imzalanan kontraktlar üzrə tenderlərdə Azərbaycan şirkətləri ya birbaşa, ya da xarici şirkətlərlə birlikdə qalib gəlmişlər və bir neçə milyard dollar həcmində kontraktların icrası da Azərbaycan şirkətlərinə həvalə edilmişdir. Bu da dövlətin özəl sektora göstərdiyi diqqət və qayğıdır.

Birinci böyük layihələrin icrası nəticəsində bizim şirkətlərimiz, demək olar ki, ayağa qalxa bilmişlər, kapital, təcrübə toplamışlar. Ondan sonra Azərbaycana investisiya qoymağa başlamışlar. Mən də onlara bunu tövsiyə edirdim və eyni zamanda, Azərbaycanda belə bir şərait yaratmışıq ki, buraya investisiya qoymaq ən sərfəli yoldur. İndi başqa ölkələrə investisiya qoymaq, əlbəttə ki, lazımdır və biz də dövlət kimi bunu edirik. Ancaq burada yaşayan və çalışan şirkətlər buraya investisiyalar qoysa, onlar üçün daha yaxşı olar. Gəlirlilik burada daha yüksəkdir, investisiyalar dövlət tərəfindən qorunur. Ona görə TANAP, «Şahdəniz-2» layihələrinin icrası nəticəsində bizim inşaatla, xidmətlə, digər sahələrlə və əlbəttə ki, energetika sahəsi ilə bağlı şirkətlər də hazır olmalıdırlar. Tenderlərdə iştirak etməlidirlər və orada yaxşı təklif verməlidirlər ki, qalib gəlsinlər. Beləliklə, daha çox vergi ödəyəcəklər, daha çox iş yerləri yaradılacaqdır. Bir sözlə, bizim enerji siyasətimiz bu yolla ölkə iqtisadiyyatının inkişafına xidmət etməlidir, nəinki qazanılan pulların sonra infrastruktur layihələrinə yönəldilməsi ilə. Bu, təbii ki, olacaqdır. Bu layihələrin icrası nəticəsində biz böyük miqdarda vəsait əldə edəcəyik, o vəsaiti də ölkə iqtisadiyyatının inkişafına, sosial məsələlərin həllinə qoyacağıq. Ancaq kontraktların icrası nəticəsində yerli şirkətlərin fəaliyyəti hesabına iş yerlərinin açılması, yeni sənaye sahələrinin yaradılması prosesi də sürətlə gedəcəkdir.

Biz dövlət olaraq buna hazırıq. Bu məqsədlə artıq neçə ildir ki, sənayeləşmə siyasəti aparılır, texnoparklar yaradılır, digər təşəbbüslər vardır və olacaqdır. Bu barədə sonra danışacağam. Bir sözlə, bizim sənayemiz də buna hazır olmalıdır.

Müəyyən dərəcədə hazırdır, ancaq hesab edirəm ki, bir-iki il ərzində sənaye məsələlərinə həm dövlət xətti ilə, həm özəl qurumlar hesabına daha böyük diqqət göstərilməlidir.

Bir sözlə, bizim altı ayda gördüyümüz işlər yüksək qiymətləndirilməlidir. Ölkədə çox gözəl ab-hava vardır. Çox gözəl ictimai-siyasi vəziyyət müşahidə olunur. Sabitlik tam şəkildə təmin edilir. Sabitliyin qarantı Azərbaycan xalqıdır və gördüyümüz işlərdir. Azərbaycan xalqının rifahı, cəmiyyətdə bərqərar olan ədalət, o cümlədən sosial ədalət və xoşagəlməz hallarla mübarizə bu müsbət meylləri daha da gücləndirir.

***

Prezident çıxışını yekunlaşdırdı və müzakirələrin aparılması üçün natiqlərə söz verdi.

İqtisadiyyat və sənaye naziri Şahin Mustafayev, Kənd təsərrüfatı naziri Heydər Əsədov və Əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov məruzə ilə çıxış etdilər.

# PREZİDENT İLHAM ƏLİYEVİN YEKUN NİTQİ



– Əminəm ki, ilin sonuna qədər qarşımızda duran bütün məsələlər öz həllini tapacaqdır və Azərbaycan 2014-cü ili də böyük uğurlarla başa vuracaqdır.

Gələn altı ayda biz əlbəttə çalışmalıyıq ki, nəzərdə tutulmuş bütün infrastruktur layihələrini başa çatdıraq. Son illərdə bu istiqamətdə böyük işlər görülmüşdür, amma hələ ki, görüləsi işlər çoxdur. Xüsusilə nəzərə alsaq ki, ölkə qarşısında maliyyə problemi kimi bir problem durmur, – mən bunu giriş sözümdə də demişəm, bizim maliyyə vəziyyətimiz yaxşıdır, kifayət qədər vəsaitimiz vardır, – ona görə, infrastruktur layihələrinin icrası ilə bağlı heç bir yubanma olmamalıdır. Burada əsas şərt keyfiyyət və sürətdir. Əlbəttə ki, bütün aidiyyəti qurumlar keyfiyyətə ciddi diqqət yetirməlidirlər. Elə etməlidirlər ki, xərclənən vəsait lazımi səviyyədə təmin edilsin.

İnfrastruktur layihələri arasında biz son vaxtlar daha çox kənd yollarının tikintisinə diqqət göstəririk. Çünki buna böyük ehtiyac vardır. Yerlərdən gələn xahişlər də bunu göstərir. Bəlkə ona görə ki, son illər digər infrastruktur layihələrinə, xüsusilə elektrik enerjisi, qazlaşdırma ilə bağlı böyük investisiyalar qoyulmuşdur. Ancaq bu sahədə vəziyyət hələ bizi tam şəkildə qane etmir.

Buna baxmayaraq müəyyən uğurlu addımlar atılmışdır.

Kənd yolları isə hər bir insanı əlbəttə ki, narahat edən məsələdir. Bütövlükdə son illərdə kənd yollarının tikintisinə ayrılan vəsait artır və əhalimizin böyük əksəriyyəti, xüsusilə kəndlərdə yaşayan əhali yaxşı yollarla artıq təmin edilibdir. Ancaq hələ ki, bərbad vəziyyətdə olan yollar çoxdur. Mənim bölgələrə səfərlərim zamanı bu məsələ daim müzakirə edilir. Yerlərdən gələn təkliflər sonra dövlət investisiya proqramına salınır. Üçüncü regional inkişaf proqramında kənd yollarının tikintisi xüsusi yer tutur. Eyni zamanda, vətəndaşlar tərəfindən il ərzində də müraciətlər olur. İl ərzində çalışıram ki, Prezidentin ehtiyat fondundan da kənd yollarının tikintisinə vəsait ayırım. Bəlkə də Prezidentin ehtiyat fondundan ayrılan vəsaitin böyük hissəsi kənd yollarının tikintisinə gedir. Çünki bu məsələ öz həllini tapmalıdır. Hesab edirəm ki, biz indiki templəri saxlasaq, növbəti 3-4 il ərzində Azərbaycanda bir dənə də təmirsiz kənd yolu olmayacaqdır. Məsələ də belə qoyulub. Bütün kənd yollarında asfalt olmalıdır, keyfiyyətli tikilməlidir ki, vətəndaşlar əziyyət çəkməsinlər.

İçməli su və kanalizasiya layihələri bütün ölkə üzrə gedir, o cümlədən Bakıda. Dövlət büdcəsi hesabına böyük investisiyalar qoyulur, həm də kreditlər verilir. Şəhərimizdə artıq bir neçə belə layihə başa çatıb. Mən də açılışlarda iştirak etmişəm.

Vətəndaşlarla söhbət əsnasında onların bu məsələyə müsbət yanaşmasını görmüşəm. Uzun illər keyfiyyətsiz sudan əziyyət çəkən vətəndaşlar bu gün artıq 24 saat fasiləsiz, Dünya Səhiyyə Təşkilatının standartlarına uyğun olan içməli suya malikdirlər.

Elə etməliyik ki, bütün şəhərlərimizə içməli su xətləri çəkək. Eyni zamanda, kəndləri də içməli su ilə təmin edirik. Həm «Azərsu» şirkəti, həm də Ekologiya və Təbii Sərvətlər Nazirliyi çaylar boyu yerləşən kəndlərdə modul tipli təmizləyici qurğular quraşdırır. O ərazilərdə yaşayan təxminən yarım milyona qədər vətəndaş indi təmiz içməli su ilə təmin olunmuşdur.

Qazlaşdırma ilə bağlı qeyd etməliyəm ki, bu il bu proses bir qədər ləng gedir. Əvvəlki illərdə daha sürətlə gedirdi və biz əlbəttə, çalışmalıyıq ki, qazlaşdırmanı Azərbaycanda 95, bəlkə də 97 faizə qaldıraq. Ona nail olmaq üçün imkanlar vardır. Dövlət büdcəsində də vəsait nəzərdə tutulubdur. Eyni zamanda, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti öz vəsaitindən də istifadə etməlidir. Bu sahədə işlər daha da sürətlə getməlidir. Mənə yeni qazlaşdırılan kəndlərin demək olar ki, hər ay mütəmadi qaydada siyahısı verilir. Ona görə, bu məsələ mənim nəzarətimdədir. Son vaxtlar o arayışlarda hər ay bir, iki, maksimum üç kəndin qazlaşdırıldığı göstərilir. Bu, qəbuledilməzdir, dözülməzdir. Dövlət Neft Şirkəti, «Azəriqaz» bu işləri daha da sürətlə aparmalıdır.

Meliorasiya ilə bağlı. Bu il Şəmkirçay su anbarının istifadəyə verilməsi nəzərdə tutulur. Bu, böyük infrastruktur layihəsidir. On minlərlə hektar torpağı suvaracaqdır. Bu, Taxtakörpü su anbarı ilə birlikdə Azərbaycanda suvarma və içməli su ilə təminatı böyük dərəcədə yaxşılaşdıracaqdır. Mən keçən müşavirələrdə də məsələni qaldırmışam ki, suvarılacaq torpaqların dəqiq ölçüləri olmalıdır. Çünki hələ ki, mənə verilən məlumat daha çox şifahi xarakter daşıyır və deyilir ki, 10 min, 20 min, ya da ki, 50 min hektar torpaq suvarılacaqdır. Ancaq hansı torpaq, bu uçotu kim aparıbdır, kim dəqiqliklə deyə bilər 10 min, ya da 20 min?! Ona görə, burada ciddi bir nəzarət sistemi olmalıdır. Biz bu məsələlərə böyük vəsait ayırırıq. Əlbəttə, bu layihələr ölkə iqtisadiyyatı, sosial məsələlərin həlli üçün çox vacibdir. Ancaq biz dəqiq bilməliyik ki, neçə min hektarda vəziyyət yaxşılaşdırılacaq və neçə min hektar suvarılacaqdır. Ona görə, yaxın aylarda belə məlumat əldə edilməlidir. Bütün aidiyyəti qurumlar işləsinlər və mənə məlumat versinlər. Ondan sonra, əlbəttə ki, biz baxacağıq kreditləri hansı sahələrə ayıraq, o torpaqlarda hansı kənd təsərrüfatı məhsulu yetişdirilməlidir ki, bu işlər kortəbii yox, sistemli şəkildə aparılsın.

Bu il ölkə iqtisadiyyatına böyük həcmdə investisiyalar qoyulmuşdur. Burada bu rəqəm səsləndi – 7,6 milyard manat. Yəni, 6 ayda 11,5 milyard dollar investisiya qoyulmuşdur. Bu, çox böyük rəqəmdir. Əminəm ki, bu il də ölkəyə qoyulan investisiyaların həcmi 20 milyardı ötəcəkdir. Biz bu templəri saxlayırıq. Bu, bizə imkan verir ki, bütün infrastruktur, sosial layihələri icra edək.

İnflyasiya qeyd etdiyim kimi, çox aşağı səviyyədədir. Çalışmalıyıq ki, aşağı səviyyədə də qalsın. Makroiqtisadi sabitlik bizim iqtisadi inkişafımızın əsas məsələsidir.

Kənd təsərrüfatının inkişafı ilə bağlı verdiyim sərəncamlar və hazırda aparılan işlər, islahatlar deməyə əsas verir ki, biz bu sahədə də daha sürətli inkişafa nail olacağıq. İndi kənd təsərrüfatı ilə bağlı ciddi islahatlar, o cümlədən struktur islahatları aparılır. İri fermer təsərrüfatlarının fəaliyyəti müsbət qiymətləndirilməlidir. Biz bildiyiniz kimi, əgər belə demək mümkünsə, kiçik bir layihədən, birinci layihədən – 5 min hektar layihəsindən başlamışıq. Orada görünür ki, məhsuldarlıq nə qədər yüksəlir.

Burada verilən məlumata görə, hazırda 30 min hektar torpaqda 19 iri fermer təsərrüfatının yaradılması prosesi gedir. Nəticə etibarilə, biz mövcud olan torpaqlarda məhsuldarlığı artıraraq özümüzü tam şəkildə taxılla təmin edə bilərik. Məhsuldarlıq 56 sentnerdir, ancaq orta hesabla ölkə üzrə təxminən 25-26 sentnerdir. Yəni, yeni təsərrüfatlarda məhsuldarlıq iki dəfə artır. Ən müasir texnologiya, texnika, gübrələr, aqroxidmət göstərilir. Çalışmalıyıq ki, bu təcrübəni biz bundan sonra o qədər də böyük olmayan təsərrüfatlara da tətbiq edək. Əlbəttə ki, həcm baxımından bu, fərqlənəcək, amma yanaşma eyni olmalıdır. Əslində biz iri fermer təsərrüfatlarının müasir səviyyədə yaradılması ilə ölkəmizdə bir standart müəyyən edirik. Bundan sonra Azərbaycanda kənd təsərrüfatının inkişafı dünyanın aparıcı təcrübəsinə əsaslanmalıdır.

Əlbəttə, məhsuldarlığın artırılması bütün sahələrdə təmin edilməlidir. Eyni zamanda, yeni əkin sahələrinin dövriyyəyə buraxılması dediyim o meliorasiya layihələrinin icrası nəticəsində də nəzərdə tutulur. Belə olan halda bir daha demək istəyirəm, biz dəqiqliklə bilməliyik hansı rayonda neçə min hektar dövriyyəyə buraxıla bilər ki, orada bütün infrastruktur layihələri təmin edilsin, yollar və digər məsələlər öz həllini tapsın. Əminəm ki, biz bu istiqamətdə uğurlu inkişafa nail olacağıq.

Bunu mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, belə olan halda yeni ixrac bazarlarının müəyyən edilməsi məsələsi gündəliyə düşür. Burada

əlbəttə ki, ənənəvi bazarlara daha da geniş şəkildə çıxışımız təmin edilməlidir.

Yeni bazarlara çıxmalıyıq, regional bazarlara çıxırıq. İndi bu istiqamətdə də işlər görülür və çalışmalıyıq ki, Avropa bazarlarına da böyük həcmdə kənd təsərrüfatı məhsulları ilə çıxa bilək. Buna nail olmaq üçün əlbəttə ki, keyfiyyət yüksək səviyyədə olmalıdır. Bu gün Azərbaycanda bu sahədə tətbiq olunan yanaşma hesab edirəm ki, keyfiyyəti də təmin edir. İndi Azərbaycanda elə məhsullar vardır ki, ən yüksək keyfiyyətə malikdir. Nə vaxtkı biz bu sahədə özümüzü tam şəkildə təmin edəcəyik və keyfiyyətli, rəqabətqabiliyyətli məhsullar Azərbaycanın emal sənayesində üstünlük təşkil edəcəkdir, o vaxt əminəm ki, biz Dünya Ticarət Təşkilatına da üzv olmağa hazır olacağıq. Əgər biz bunu bu gün etsək fermerlərimiz ziyan çəkəcək, məhsulumuz azalacaq, Azərbaycan bazarına xaricdən ucuz, keyfiyyətsiz mallar gələcək və beləliklə, iqtisadi inkişafımız, xüsusilə kənd təsərrüfatındakı inkişafımız lazımı səviyyədə olmayacaqdır. Ona görə, Dünya Ticarət Təşkilatına üzv olmaq üçün indi hazırlıq prosesi gedir. Bu, bizim hədəfimizdir. Biz hədəf kimi bunu saxlayırıq, amma həm kənd təsərrüfatı, həm də sənaye sahəsində hazırlıq işləri getməlidir, bu islahatlar aparılmalıdır.

Elektron kənd təsərrüfatı sistemi, yeni texnikanın, damazlıq mal-qaranın alınması – bütün bunlar bir məqsədi güdür ki, biz fermerlərin həyatını yüngülləşdirək, onlar üçün əlavə gəlir mənbəyi təmin edək. Əlbəttə ki, bu, məsələnin bir tərəfidir, sosial məsələdir, çünki əhalimizin təxminən yarısı kənd təsərrüfatı ilə məşğuldur, aqrar zonalarda yaşayır. Biz bu məsələyə sosial məsələ kimi baxırıq, eyni zamanda, bu, böyük iqtisadi potensiala malik olan məsələdir. Hələ ki, biz ondan tam şəkildə istifadə etmirik və birinci mərhələdə özümüzü əsas kənd təsərrüfatı məhsulları ilə 100 faiz səviyyəsində təmin etməliyik. Biz buna yaxınlaşırıq. Hər il regional inkişaf proqramının müzakirəsi zamanı biz bu məsələyə toxunuruq. Ondan sonra da kənd təsərrüfatı məhsullarının dünya bazarlarına çıxarılması bununla paralel olaraq təmin edilməlidir.

Bu il sənaye ilidir. Əlbəttə ki, sənayenin inkişafı diqqət mərkəzindədir. Həm xaricdən, həm daxildən investisiyaların cəlb edilməsi müsbət haldır. Biz investisiyaları xüsusilə sənaye istehsalının artırılmasına yönəldirik, yönəldəcəyik və bu məqsədlə yeni struktur islahatları göz qabağındadır. Texnoparklar yaradılır, dövlət burada da öz üzərinə böyük məsuliyyət götürür, böyük maliyyə töhfəsini verir. Çünki texnoparkların yaradılması, orada təmizlik işlərinin aparılması, infrastrukturun qurulması, yollar, xətlər və sair – bütün bunlar dövlət hesabına olan məsələlərdir. Biz bunu dövlət büdcəsi hesabına özəl sektorun fəaliyyəti üçün edirik. Yəni, biz özəl sektora qayğı göstəririk, real praktik addımlar atırıq. İnanmıram ki, indi hansısa bir ölkədə dövlət bu məsələlərlə bu qədər məşğul olsun.

Biz indi bazar iqtisadiyyatı şəraitində yaşayırıq. Əlbəttə ki, bu, bizim üçün yeganə məqbul olan yoldur. Amma, eyni zamanda, dövlət siyasətimiz, sənaye, kənd təsərrüfatı ilə bağlı olan addımlarımız sırf sosial xarakter daşıyır. Dövlət fermerləri torpaq vergisindən başqa bütün vergilərdən azad edib. Subsidiyalar, güzəştli şərtlərlə gübrələr, yanacaq verilir, yollar çəkilir, meliorasiya layihələri icra edilir, Taxtakörpü, Şəmkirçay su anbarlarına yüz milyonlarla manat qoyulur ki, suvarılan torpaqların sahəsi artsın. Kreditlər verilir. Fermerlərə güzəştli şərtlərlə 300 milyon manat kreditlər verilib. Həmçinin tövsiyələr, metodik təlimatlar verilir ki, bu kreditlərdən necə istifadə edilsin. Hansı ölkədə bu qədər qayğı, diqqət göstərilir?! Mən sizə deyim ki, heç bir ölkədə. Bu, bizim siyasətimizin əsas istiqamətidir və biz bunun hesabına qeyri-neft sektorunun inkişafına nail ola bilmişik.

Sənaye sahəsində də eyni yanaşma tətbiq olunur. Dövlət öz hesabına texnoparklar yaradır. Orada şirkətləri cəlb etmək üçün lazım gəldikdə kreditlər ayırır və bu istiqamətdə təşviqedici addımlar kifayət qədər çoxdur.

Hesab edirəm ki, texnoparklarla yanaşı, biz sənaye klasterlərinin yaradılmasına başlamalıyıq. Bu da dünyada uğur gətirən bir təcrübədir. İnkişaf etmiş ölkələrdə bu, vardır. Bütün məhsulun tsikli bir yerdə cəmləşməlidir – xüsusilə bu layihənin icrası nəticəsində poladtökmə, metallurgiya kombinatının, alüminium sənayesinin inkişafı sahəsində biz bütün bu zənciri – istehsal, emal, kiçik və orta sahibkarlığın inkişafını təmin etməliyik ki, Azərbaycanda son məhsul buraxılsın. Hesab edirəm ki, bu istiqamətdə əlavə tədbirlər də görülməlidir.

Əvvəlki müşavirələrdə qeyd etmişəm ki, hər bir rayonda sənaye zonaları olmalıdır. Bu istiqamətdə də işlər gedir və getməlidir.

Dövlət, əlbəttə ki, əsas yükü öz üzərinə götürür. Belə də olmalıdır. Azərbaycanda dövlət siyasəti bu istiqamətdə aparılır. Eyni zamanda, biz bu sahədə ölkəmizdə sənayenin, iqtisadiyyatın və kənd təsərrüfatının inkişafını sürətləndirmək üçün dünyada gedən təcrübəni də bilirik. Mövcud olan təcrübəni

öyrənirik və görürük ki, orada banklar bu sahədə çox müsbət rol oynayır.

Banklar iqtisadiyyatın real sektoruna vəsait ayırır. Bizdə də belə olmalıdır. Bizdə isə belə deyildir. Bu sahəyə çox ciddi fikir verilməlidir. Bu gün dövlət büdcəsində banklara güzəştli şərtlərlə nəzərdə tutulan 300 milyon manat kreditlər verilir ki, banklar bu vəsaiti sahibkarlara paylasınlar. Yəni, bu, bankların öz resursları deyil, dövlətdən verilən resurslardır. Banklar bunu paylayır, eyni zamanda, hələ pul da qazanırlar. Yəni, bu, Azərbaycan dövlətinin özəl banklara olan böyük bir imtiyazıdır, güzəştidir. Hansı ölkədə dövlət özəl banklara pul verir, özü də bu şərtlərlə?! Amma bizdə Mərkəzi Bank lazım gəldikdə özəl banklara kredit resursları verir ki, onlar pul qazansınlar. Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə banklara hər il 300 milyon manat verilir ki, pul qazansınlar. Bəs onlar nə üçün iqtisadiyyatın real sektoruna kreditlər ayırmırlar? Nə üçün daha çox istehlak kreditləri verirlər? Pul qazanmaq üçün.

Mən etiraz etmirəm, ancaq dövlətin siyasəti vardır və dövlət özəl bankları dəstəkləyir. Qeyd etdiyim kimi, kreditlər verir, şərait yaradır ki, pul qazansınlar. Onlar da öz məsuliyyətini dərk etməlidirlər. Dövlət siyasətini, xüsusilə ölkəmizin inkişafı ilə bağlı olan siyasəti görərək kənarda durmaq nə dərəcədə mümkündür?! Əgər belədirsə dövlət o banklara niyə kömək göstərməlidir?!

Ona görə, burada çox ciddi islahatlar aparılmalıdır. Birinci növbədə məsələ təhlil edilməlidir. Yəqin ki, bu təhlil vardır. Mənə məlumat verilməlidir ki, Azərbaycanın özəl bankları iqtisadiyyatın real sektoruna hansı həcmdə, nə qədər vəsait qoyur. Onların kredit portfelində iqtisadiyyatın real sektoruna ayrılan vəsait ya investisiya, ya kredit şəklində nə qədərdir və onlar digər sahələrə nə qədər kredit ayırırlar? Mən bunu bilməliyəm və ondan sonra öz qərarımı verəcəyəm. Yenə də deyirəm, mən Azərbaycanın özəl sektorunun inkişafına çox böyük dəstək verirəm. Əgər belə olmasaydı bu gün bu qədər inkişaf olmazdı. Ancaq, eyni zamanda, özəl sektor da öz məsuliyyətini dərk etməlidir və ümumi işimizə töhfə verməlidir.

Xoşagəlməz hallara qarşı mübarizə davam edir. Bu, daim diqqət mərkəzində olan məsələdir. Korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə gözəl nəticələr verir. Bunu əhali də görür, təqdirlə qarşılayır. Beynəlxalq qurumlar da bunu qeyd edirlər. Hesab edirəm ki, biz bu sahədə köklü dəyişiklərə nail ola bilmişik. Burada əvvəlki dəfələrdə qeyd etdiyim kimi, müxtəlif amillərin rolu xüsusi məna daşıyır – inzibati tədbirlər, cəza tədbirləri, institusional tədbirlər, şəffaflıq, yeni metodların tətbiqi.

«ASAN xidmət»in fəaliyyəti xüsusi əhəmiyyətə malik olan fəaliyyətdir. İl yarım ərzində 2 milyondan artıq müraciət olmuşdur.

Bu, nəyi göstərir? Onu göstərir ki, insanlar bu quruma inanırlar, görürlər ki, orada onlardan rüşvət tələb etmirlər, süründürməçilik yoxdur, şəffafdır, gənclər xidmət göstərirlər, yüzlərlə könüllü bu işlərə cəlb olunub. Görün insanların rahatlığı, gənc nəslin yetişdirilməsi, hazırlanması, vətənpərvərliyin möhkəmləndirilməsi, gücləndirilməsi üçün bunun nə qədər böyük faydası vardır. Ümumiyyətlə, bu sistem cəmiyyətə yeni bir ab-hava, ictimai xidmətlər sahəsinə yenilik gətirdi. Biz indi səyyar avtobusları bölgələrə göndəririk. Mənə yerlərdən məlumat gəlir ki, orada insanlar bu avtobusları bir bölgədən başqa bölgəyə getməyə qoymurlar. Nə üçün? Çünki orada onlardan rüşvət tələb edilir. Deməli, əgər belə olmasaydı, onda bu avtobuslara bu qədər maraq göstərilməzdi. Ona görə, hesab edirəm ki, aidiyyatı qurumlar, prokurorluq və digər qurumlar, icra nümayəndələri bu məsələyə çox ciddi diqqət verməlidir. Bizdə hər yerdə şəffaflıq təmin edilməlidir. O ki qaldı «ASAN xidmət»in fəaliyyətinə, hesab edirəm ki, biz avtobusların sayını artırmalıyıq. İndi cəmi iki avtobus vardır. Biz onların sayını 10-a çatdırmalıyıq. Ona görə, Maliyyə Nazirliyi məsələyə baxsın və təklif versin. Qısa müddət ərzində 10 avtobus daim hərəkətdə olmalıdır ki, insanlar razı qalsınlar.

Nəqliyyatla bağlı məsələlər öz həllini tapır. Burada mən iki məsələni qeyd etməliyəm. Bakı-Tbilisi-Qars dəmir yolunun Azərbaycana bağlı olan hissəsinin tikintisi bu ilin sonuna qədər başa çatmalıdır. Beləliklə, Gürcüstan ərazisində bu işlər tamamilə başa çatandan sonra biz öz payımıza düşən hissəni icra etmiş oluruq. Bir də ki, Ələt Beynəlxalq Ticarət Limanının birinci mərhələsinin istismara verilməsi məsələsidir. Bu da yaxın aylarda olmalıdır. Birinci mərhələ, ondan sonra ikinci mərhələ. Ancaq artıq bir neçə aydan sonra biz birinci mərhələni istifadəyə verməliyik. Ondan sonra indi şəhərin mərkəzindəki liman köçürüləcək və orada əvvəllər də dediyim kimi, ictimai zonalar, ictimaiyyət üçün parklar yaradılacaq, digər məsələlər öz həllini tapacaqdır. Çünki indi gördüyünüz kimi, Bakıda boşaldılan bütün ərazilərdə insanların rahatlığı, istirahəti üçün ictimai yerlər salınır.

Eyni zamanda, şəhər nəqliyyatının təkmilləşdirilməsi üçün yeni avtobuslar gətirilməlidir. Əslində, yeni qurum yaradılır – «Baku Bus» şirkəti. Burada ən yüksək xidmət göstərilməlidir və gətiriləcək avtobuslar dünyanın ən gözəl avtobuslarıdır. Məhz məsələni belə qoymuşuq ki, Bakı sakinləri ən gözəl

texnika ilə, maşınlarla, avtobuslarla təmin edilməlidir. Hesab edirəm ki, yeni avtobuslar bir neçə aydan sonra artıq gətiriləcəkdir. Bakı Şəhər İcra Hakimiyyətinə tapşırılıb ki, o vaxta qədər bütün bu məsələlər – onların parkinq yerləri, sürücülər, sistem, şəffaflıq öz həllini tapmalıdır. Bu, dünya miqyasında bir nömrəli sistem olmalıdır.

Metro tikintisi sürətlə gedir. Hesab edirəm ki, biz bu sahəyə əlavə vəsait də ayırmalıyıq. Çünki bəzi layihələrin icrası vəsaitin çatışmazlığı ucbatından müəyyən qədər ləngiyir. Vəsaitin çatışmazlığı ona görə baş vermir ki, nəzərdə tutulmayıb, sadəcə olaraq, işlər sürətlə gedir. Biz bu işləri daha da sürətləndirməliyik, çünki metro əsas nəqliyyat vasitəsidir. Metroda həm istismarda, həm metro tikintisində aparılan islahatlar hesab edirəm ki, vətəndaşlar tərəfindən yüksək qiymətləndirilir.

Yerlərdən gələn təkliflər də bunu göstərir.

Biz məcburi köçkünlərin problemlərini həmişə olduğu kimi, bu il də yüksək səviyyədə həll edəcəyik. Bu il də ən azı 20 min köçkün yeni evlərə, mənzillərə köçürüləcəkdir. Bu proses artıq uğurla gedir. Həm Bakıda, həm bölgələrdə yeni massivlər tikilir, yeni qəsəbələr salınır və biz bu işləri ən yüksək keyfiyyətlə görürük.

Böyükşor gölünün təmizlənməsi burada qeyd olundu. Layihə icra olunur. Bu, çox böyük layihədir, rəmzi xarakter daşıyır.

Bakının ətrafında çirklənmiş göllərin sayı ondan çoxdur. Onlardan ən böyüyü, ən çirklənmişi Böyükşor gölüdür və biz məhz bu göldən başlamışıq. Bu gölü biz tədricən təmizləyəcəyik. Hələ ki, iki yerə bölmüşük, ola bilsin üç yerə böləcəyik. Eyni zamanda, yol salınacaqdır. Artıq bənd tikilir. Bu, həm şəhər nəqliyyatı üçün faydalı olacaq, eyni zamanda, bu gölü hissə-hissə təmizləmək daha da asandır. Hesab edirəm ki, gələn ilin yayına qədər birinci hissə artıq istifadəyə veriləcəkdir. Üç yüz hektar təmiz göl şəhərin mərkəzində vətəndaşların sərəncamına veriləcəkdir. Gölün ətrafında yaşıllıq, gəzinti zolaqları, bulvar, yəni, şəhər üçün böyük bir park və göl yaradılacaqdır. Bu da həm ekoloji cəhətdən, həm insanların istirahəti üçün çox böyük əhəmiyyət daşıyan məsələdir.

Bununla paralel olaraq Zığ gölünün təmizlənməsi də artıq nəzərdə tutulur. Biz yəqin ki, yaxın aylarda bu gölün təmizlənməsinə də başlamalıyıq. Biz hələ ki, iki göldən başlayıb, növbəti illərdə bütün gölləri təmizləyəcəyik. O göllərə illər ərzində çirkab sular, lay, neft, kanalizasiya suları axıdılırdı. Bu göllər bu gün bir ekoloji fəlakət mənbəyidir, şəhərimizi zəhərləyir. Amma biz bu gölləri təmizləyib, gözəl ekoloji layihəyə çevirəcəyik və bu, şəhərin ekologiyasına çox müsbət təsir göstərəcəkdir.

İndi Balaxanı zibilxanasının təmizlənməsi, orada zibilyandırma zavodunun, poliqonun yaradılması nə qədər böyük təsir göstərmişdir. İndi əvvəlki illərdə olduğu kimi şəhəri bürüyən zərərli tüstü yoxdur. İndi şəhərin havası dəyişir. Biz «Avro» standartına keçmişik. «Avro» standartından aşağı səviyyədə olan avtomobillər artıq Azərbaycana idxal edilmir. Bu da böyük dərəcədə müsbət təsir göstərəcəkdir. Çünki havanı çirkləndirən əsas amil avtomobillərdir. Həmçinin neftayırma zavodumuzda yenidənqurma işləri nəzərdə tutulur. Artıq layihə təqdim edilibdir. Mən hələ ki, bu barədə geniş danışmaq istəmirəm. Bəlkə də, biz bunu ayrıca müzakirə edəcəyik. Ancaq bizim zavodumuzda ən azı «Avro-5» benzinin istehsalı nəzərdə tutulur və vaxt qoymuşam ki, biz bu məsələni üç il ərzində həll etməliyik.

Göllərin, neftlə çirklənmiş yerlərin təmizlənməsi, torpaqların rekultivasiyası. Bibiheybət buxtasının əvvəlki görüntülərinə nəzər salsaq görərik ki, biz nə dərəcədə böyük işlər görmüşük. İndi orada ağaclar əkilib, park salınıb. O, böyük bir fəlakət zonası idi.

Ceyms Bond haqqında filmi orada çəkmişdilər. Təqribən on il bundan əvvəl böyük bir fəlakət zonası kimi çəkmişdilər.

Bibiheybətin o filmdəki və indiki vəziyyətinə baxmaq olar. İndi biz orada incəsənət, idman şəhərcikləri salırıq. Avropa Oyunlarına hazırlıq məqsədi ilə orada böyük Su İdmanı Sarayı və açıq meydançalar tikilir. Böyük hovuzlar, istirahət zonaları, idman meydançaları olacaqdır. Oyunlardan sonra isə onlardan vətəndaşlar da istifadə edəcəklər.

Bax budur bizim gördüyümüz işlər. Ona görə ekologiya məsələlərinin həllinə daim diqqət göstərilir. Altı ayda həm Bakıda, həm bölgələrdə iki milyondan çox ağac əkilibdir. Mən həmişə deyirəm ki, bu, daimi proses olmalıdır. Biz nə qədər çox ağac əksək, xüsusilə Abşeron yarımadasında, o qədər də insanların sağlamlığına xidmət etmiş oluruq.

Yəni, bizim gördüyümüz işlərin həcmi o qədər böyükdür ki, bir müşavirədə bu barədə danışmaq mümkün deyildir. Mən bu gün sadəcə olaraq əsas məsələləri qeyd etdim. Yenə də demək istəyirəm ki, altı ayın nəticələri ümidvericidir. Ölkəmiz inamla, dinamik şəkildə inkişaf edir. Ölkə iqtisadiyyatı dayanıqlıdır. Əminəm ki, biz ilin sonuna qədər bütün vəzifələri uğurla icra edəcəyik. Nazirlər Kabinetinin üzvlərinə isə uğurlar arzulayıram.

Sağ olun!

## Baş Prokurorluqda prokurorluq orqanları tərəfindən 2014-cü ilin birinci yarımilində görülmüş işlərin vəziyyətinə həsr olunmuş geniş əməliyyat müşavirəsi keçirilmişdir



İyulun 31-də Azərbaycan Respublikasının Baş Prokurorluğunda prokurorluq orqanları tərəfindən 2014-cü ilin birinci yarımilində «Prokurorluq haqqında» Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə görülmüş işlərin vəziyyəti və bu məsələnin bölgə müşavirələrində müzakirələrinin nəticələrinə həsr olunmuş geniş əməliyyat müşavirəsi keçirilmişdir.

Əməliyyat müşavirəsində məruzə ilə çıxış edən Baş prokuror Zakir Qaralov bildirmişdir ki, 2014-cü ilin birinci yarımilində ölkə həyatının bütün sahələrində dinamik inkişaf yüksək templərlə davam etmiş və vətənimizin iqtisadi qüdrətinin daha da möhkəmləndirilməsi, bütövlükdə Azərbaycanın və hər bir regionun hərtərəfli sosial-iqtisadi inkişafına, əhalinin layiqli həyat səviyyəsinin təmin edilməsinə istiqamətləndirilmiş dövlətçilik siyasəti öz müsbət nəticələrini vermişdir. Əldə edilən nailiyyətlərin əsasını xalqımızın ümummilli lideri Heydər Əliyevin müəyyənləşdirdiyi strateji xəttə uyğun olaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən müasir məzmunlu daxili və xarici siyasət tədbirləri  təşkil etmişdir. Prezident cənab İlham Əliyevin iyulun 10-da Nazirlər Kabinetinin 2014-cü ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı çıxışında qaldırılan məsələləri diqqətə çatdıran Baş prokuror dünyanın əksər ölkələrində ciddi iqtisadi problemlər yaşandığı bir şəraitdə Azərbaycan iqtisadiyyatının uğurla inkişaf etdiyini, mühüm infrastruktur layihələrin reallaşdırıldığını, ölkəmizin dünya dövlətləri üzrə reytinqinin yüksəldiyini və nüfuzlu beynəlxalq maliyyə qurumları tərəfindən hərtərəfli dəstəklənməsi ilə nəticələnən makroiqtisadi göstəricilərə nail olunduğunu, valyuta ehtiyatlarının və iqtisadiyyata sərmayə qoyuluşu səviyyəsinin yüksək olduğunu, o cümlədən iqtisadiyyatımızın gələcəyinin neft amilindən daha az asılılığını təmin edəcək sahələrin artan templərlə inkişaf etdiyini xüsusi vurğulamışdır.

Qeyd edilmişdir ki, Azərbaycan Respublikasının Avropa Şurasının Nazirlər Komitəsinə sədrliyi, beynəlxalq əhəmiyyətli tədbirlərə ev sahibliyi etməsi Azərbaycanda həyata keçirilən sürətli sosial-iqtisadi inkişafın, vətəndaşların sosial rifahının ilbəil daha da yaxşılaşmasının, beynəlxalq stan-

dartlara uyğun müasir dövlətin və vətəndaş cəmiyyətinin qurulması zəminində reallaşdırılan, beynəlxalq sülhün və təhlükəsizliyin saxlanmasına və möhkəmlənməsinə nail olmağa yönəlmiş xarici siyasətin nəticəsində mümkün olmuşdur.

Diqqətə çatdırılmışdır ki, ölkənin ictimai-siyasi həyatında mühüm hadisələrlə zəngin olan hesabat dövründə Azərbaycan Respublikası Prokurorluğu tərəfindən digər hüquq-mühafizə orqanları, ilk növbədə Daxili İşlər və Milli Təhlükəsizlik nazirlikləri ilə əlaqəli şəkildə ölkədə ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin daha da gücləndirilməsi, dövlət müstəqilliyinin, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində zəruri tədbirlərin görülməsi təmin olunmuş, fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinin artırılması, mövcud çatışmazlıqların aradan qaldırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilmişdir.

2014-cü ilin birinci yarımili ərzində əvvəlki illərdə olduğu kimi qəsdən adam öldürmə və qəsdən adam öldürməyə cəhd cinayətlərinin açılması və onları törətmiş şəxslərin müəyyən olunub məsuliyyətə cəlb edilməsi istiqamətlərində fəaliyyətin səmərəliliyinin artırılması üçün zəruri tədbirlər həyata keçirilmişdir. Prokurorluğun digər hüquq-mühafizə orqanlarının əməliyyat qurumları ilə həyata keçirdiyi əlaqəli işinin nəticəsidir ki, hesabat dövründə qeydə alınmış 95 qəsdən adam öldürmə cinayətinin (2013-ci ilin müvafiq dövründə 106 hadisə) 84-nün, o cümlədən qeyri-aşkarlıq şəraitində törədilmiş qəsdən adam öldürmə cinayətlərindən 19-nun isti izlərlə açılması təmin olunmuşdur.

Həyata keçirilmiş çoxsaylı istintaq-əməliyyat tədbirlərinə baxmayaraq hesabat dövründə 11 qəsdən adam öldürmə cinayətinin, o cümlədən Bakı şəhərinin Suraxanı rayonunda, Naxçıvan, Gəncə və Sumqayıt şəhərlərində, habelə İmişli, Neftçala, Tərtər, Qax, Salyan, Xaçmaz və Xızı rayonlarının hər birində 1 belə cinayətin bağlı qalması həyata keçirilən istintaq və əməliyyat-axtarış tədbirlərinin ciddi nöqsanı kimi dəyərləndirilmişdir. Baş Prokurorluğun əlaqədar struktur qurumlarına baş vermə müddətindən asılı olmayaraq əvvəlki illərdə törədilməklə bağlı qalan bütün qəsdən adam öldürmə cinayətlərinin açılması üçün zəruri tədbirlərin görülməsi, daxili işlər orqanları ilə qarşılıqlı əlaqədə konkret hadisələr üzrə istintaq və əməliyyat-axtarış işlərinin real vəziyyətinin öyrənilməsi yolu ilə onların intensivliyinin artırılması, səlahiyyət dairəsində olan bütün imkanlardan istifadə olunmaqla təqsirkar şəxslərin müəyyən olunmasının təmin edilməsi ilə bağlı müvafiq tapşırıqlar verilmişdir.

Əməliyyat müşavirəsinndə qeyd edilmişdr ki, 2014-cü ilin birinci yarımilində istintaq işi və ibtidai araşdırmaya prosessual rəhbərliyin səmərəliliyinin artırılması, bu sahədə mövcud çatışmazlıqların aradan qaldırılması istiqamətində görülən tədbirlər də öz müsbət nəticələrini vermişdir. Belə ki, istintaq fəaliyyətini həyata keçirən prokurorluq, Daxili İşlər, Ədliyyə, Vergilər və Fövqəladə Hallar nazirlikləri, Dövlət Gömrük Komitəsi və Sərhəd Xidmətinin istintaq qurumları tərəfindən hesabat dövründə 7.135 (2013-cü ilin müvafiq dövründə 6.538) cinayət işinin istintaqı yekunlaşdırılmaqla, 6.330 iş aidiyyəti üzrə baxılması üçün məhkəmələrə göndərilmiş, müddət pozuntusu ilə istintaq olunma 9,6 faizə enmişdir (2013-cü ilin birinci yarımilində 10,8 %).

Hesabat dövründə prokurorluq orqanları üzrə istintaqı tamamlanmış işlər üzrə vurulmuş ziyanın 6 milyon 484 min manatının və ya 39,3 faizinin, Daxili işlər orqanları üzrə isə 6 milyon 600 min manatının və ya 71,2 faizinin ödətdirilməsi təmin edilmişdir.

İbtidai araşdırmaya prosessual rəhbərliyin və istintaq üzərində prokuror nəzarətinin gücləndirilməsinə yönəldilmiş tədbirlərin nəticəsi olaraq, hesabat dövründə 173 cinayət işinin icraatına xitam verilməsi və 449 iş üzrə icraatın dayandırılması barədə qanunsuz və əsassız qərarlar ləğv edilmiş, bu fəaliyyət sahəsi üzrə movcud olan qanunsuzluq hallarının aradan qaldırılması və pozuntulara yol vermiş əməkdaşların cəzalandırılması məqsədi ilə 398 təqdimat verilmişdir.

Müşavirədə dövlət başçısı cənab İlham Əliyevin siyasi iradəsinə müvafiq olaraq korrupsiyaya qarşı mübarizə sahəsində ölkəmizdə həyata keçirilən təşkilati və institusional tədbirlərin məntiqi nəticəsi olaraq Azərbaycan Hökuməti və Avropa Şurası tərəfindən Avropa Şurasının Korrupsiyaya qarşı Mübarizə Aparan Dövlətlər Qrupu və Beynəlxalq Antikorrupsiya Akademiyasının iştirakçılığı ilə cari ilin 30 iyun – 01 iyul tarixlərində Bakıda keçirilən beynəlxalq konfransın əhəmiyyəti xüsusi vurğulanmışdır.

Hesabat dövründə mütəşəkkil cinayətkarlığın təhlükəli təzahürü kimi korrupsiyaya qarşı kəsərli və yüksələn xətlə həyata keçirilən mübarizənin təşkili məsələsinin Azərbaycan Respublikası Prokurorluğunun qarşısında duran mühüm vəzifələrdən biri olduğu qeyd edildi. Ölkə səviyyəsində həyata keçirilən tədbirlər nəticəsində fəaliyyəti daha da müasirləşdirilən, ixtisaslaşmış cinayət təqibi orqanı kimi səlahiyyətləri, ştat tərkibi artırılmaqla strukturu təkmilləşdirilən Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyəti daha səmərəli və çevik olmuş, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi istiqamətində idarə tərəfindən konkret zəruri tədbirlər həyata keçirilmişdir.

2014-cü ilin birinci yarımilində idarə tərəfindən vətəndaşların 1.603 müraciətinə baxılmış, həmçinin 169 cinayət xarakterli material araşdırılmışdır. Həmin materialların 53 faizi üzrə cinayət işi başlanmışdır. 2014-cü ilin I yarımili ərzində idarə tərəfindən 147 şəxs barəsində 103 cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün aidiyyəti məhkəmələrə göndərilmişdir.

Hesabat dövründə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin 161 saylı «Qaynar xətt» əlaqə mərkəzinə 2.864 müraciət daxil olmuşdur. Əlaqəli dövlət qurumları ilə birgə görülmüş tədbirlər nəticəsində daxil olmuş müraciətlərin əksəriyyətinin müsbət həll olunması təmin edilməklə vətəndaşların pozulmuş hüquqları bərpa edilmiş, aşkar edilmiş qanun pozuntularının aradan qaldırılması məqsədi ilə müvafiq təşkilatlara təqdimatlar göndərilmişdir.

Müşavirədə Baş Prokurorluğun əlaqədar struktur qurumlarına, ilk növbədə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə korrupsiya hallarına qarşı mübarizənin gücləndirilməsi, bu neqativ təzahürlərin qarşısının alınması və onları doğuran səbəblərin aradan qaldırılması istiqamətində zəruri tədbirlərin görülməsi barədə tapşırıqlar verilmişdir.

Ötən ilin ikinci yarımilində 100 ştat vahidi üzrə elan edilmiş müsabiqənin tam şəffaflıq və obyektivlik şəraitində qısa müddətdə başa çatdırılması barədə Baş Prokurorluğun əlaqədar qurumlarına müvafiq tapşırıqlar verən Baş prokuror Zakir Qaralov 2002-ci ildən başlayaraq keçirilən müsabiqələr nəticəsində işə qəbul edilməklə prokurorluğun kadr korpusunun 52 faizini təşkil edən gənc mütəxəssislərin müxtəlif vəzifələrdə səmərəli fəaliyyət göstərməsini ölkəmizdə dövlət gənclər siyasətinin reallaşdırılmasının müsbət nəticəsi və prokurorluqda aparılan islahatların böyük uğuru kimi dəyərləndirmişdir.

Hesabat dövründə xidməti, icra və əmək intizamının pozuntusu hallarına qarşı, işində və xidmətdən kənar fəaliyyətində qanunsuzluqlara münasibətdə prinsipial mübarizə xətti davam etdirilmiş, müxtəlif pozuntulara yol verdiklərinə görə 11 (2013-cü ilin müvafiq dövründə 17) əməkdaş şiddətli töhmət, töhmət və irad növündə intizam məsuliyyətinə cəlb edilmişlər. Baş Prokurorluğun Təşkilat-analitik və Kadrlar idarələri, habelə bütün struktur qurumların rəhbərlərindən tələb edilmişdir ki, bundan sonra da əməkdaşların fəaliyyətlərində aşkara çıxarılan neqativ təzahürlərə qarşı barışmaz mübarizə xətti qətiyyətlə davam etdirilsin, xidməti, icra və əmək intizamının möhkəmləndirilməsi məsələlərində prinsipiallıq daha da artırılsın.

Diqqətə çatdırıldı ki, prokurorluq orqanları tərəfindən 2014-cü ilin birinci yarımilində görülmüş işlərin vəziyyəti təsdiq edilmiş qrafikə uyğun olaraq bölgələr üzrə keçirilən əməliyyat müşavirələrində müzakirə edilmiş, Baş prokurorun müavinləri, Baş Prokurorluğun Kollegiya üzvlərinin sədrliyi və tabe şəhər və rayon prokurorluqlarının bütün əməkdaşlarının iştirakı ilə Gəncə və Sumqayıt şəhərləri, Ağcabədi, Şamaxı, Sabirabad, Biləsuvar

və Yevlax rayonlarında keçirilmiş geniş əməliyyat müşavirələrində hesabat dövründə görülmüş işlərin real vəziyyəti, mövcud nöqsanlar və çatışmazlıqların yaranma səbəbləri hərtərəfli və prinsipial təhlil edilmiş, «Prokurorluq haqqında» Qanunda nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinin artırılması, tabe struktur qurumların fəaliyyəti üzərində Baş Prokurorluğun nəzarətinin daha da gücləndirilməsi üçün konkret tədbirlər müəyyənləşdirilmişdir. Əməliyyat müşavirələrində qaldırılan və işin səmərəliliyinə mənfi təsir göstərən problemlərin aradan qaldırılması və həlli vacib məsələlərin tənzimlənməsi istiqamətində qarşıda duran konkret vəzifələr müəyyənləşdirilmiş və Baş Prokurorluğun əlaqədar struktur qurumlarına müvafiq tapşırıqlar verilmişdir.

Baş prokuror hesabat məruzəsində görülmüş müsbət işlərlə yanaşı, fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinə mənfi təsir göstərən halların ətraflı təhlil və ciddi tənqid olunmaqla, istintaq işi və ibtidai araşdırmaya prosessual rəhbərliyin həyata keçirilməsində, cinayətkar hərəkətlər nəticəsində hüquqi və fiziki şəxslərə vurulmuş zərərin ödənilməsi, vətəndaş müraciətlərinə baxılması və onların qəbulu ilə əlaqədar işin təşkilində yol verilən çatışmazlıqların qısa müddət ərzində aradan qaldırılması üçün konkret tapşırıqlar verdi.

Xüsusi qeyd edildi ki, prokurorluq orqanlarında informasiya kommunikasiya texnologiyalarının, o cümlədən «Elektron Sənəd Dövriyyəsi» və «Elektron Cinayət» İnformasiya proqramlarının tam fəaliyyət göstərməsi, bu sahədə həyata keçirilən işin səmərəliliyinin artırılması təmin olunsun.

Müşavirədə, həmçinin yol-nəqliyyat hadisələrinin təhqiqatında və istintaqında, açılması təmin edilməmiş ölümlə nəticələnən bu kateqoriyadan olan cinayətlərlə bağlı istintaq hərəkətlərinin və əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində qanunların icrasına nəzarətin gücləndirilməsi, aparılan təhqiqat, istintaq və ekspertizalar zamanı korrupsiya və digər sui-istifadə hallarına yol verən şəxslərin məsuliyyətə cəlb edilməsinin təmin olunması, eləcə də yol-nəqliyyat hadisələrinin qarşısının alınması məqsədi ilə profilaktiki tədbirlərin görülməsinə dair konkret göstərişlər verildi.

Xüsusi göstəriş verildi ki, Baş Prokurorluğun müvafiq qurumları qaz təchizatı sahəsində fəaliyyət göstərən və bu sahəyə dövlət nəzarətini həyata keçirən müvafiq icra strukturları və dövlət təsisatları ilə əlaqəli şəkildə, insanların ölümünə və yaralanmasına, ölkə iqtisadiyyatına külli miqdarda ziyan dəyməsinə səbəb olan qaz partlayışları və dəm qazından zəhərlənmə faktları üzrə istintaq olunmuş cinayət işlərini ümumiləşdirib hadisələrin baş vermə səbəbləri müəyyənləşdirilməklə, onları doğuran səbəb və şəraitin aradan qaldırılması məqsədi ilə konkret tədbirlərin görülməsi təmin edilsin.

Müşavirədə 2014-cü ilin birinci yarımilində cinayətkarlığa qarşı mübarizənin, istintaq işinin və ibtidai araşdırmaya prosessual rəhbərliyin təşkili, cinayət təqibi çərçivəsində insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində prokurorluq orqanları tərəfindən görülmüş işlər və bu məsələnin bölgə müşavirələrində müzakirəsinin nəticələri barədə Baş prokurorun birinci müavini Rüstəm Usubovun, Baş Prokurorluğun 2014-cü il iş planının icrası və ikinci yarımilin iş planı barədə Təşkilat-analitik idarəsinin rəisi Müqəddəs Sultanovun, prokurorluq orqanlarında informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə əlaqədar görülmüş işlər və qarşıda duran vəzifələr barədə Hüquqi təminat və informasiya idarəsinin rəisi Natiq Hüseynovun məlumatları dinlənildi.

Əməliyyat müşavirəsində inam ifadə olundu ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən müasir məzmunlu dövlətçilik siyasətini hərtərəfli dəstəkləyən prokurorluq orqanlarının kollektivi müstəqil dövlətçiliyimizin maraqlarının və insan hüquqları və azadlıqlarının müdafiəsini, cinayətkarlığa qarşı qətiyyətli mübarizə aparılması, xidməti, icra və əmək intizamının daha da möhkəmləndirilməsi, xüsusilə prokurorluğa dövlət səviyyəsində göstərilən etimada layiq səviyyədə işin təşkili üçün səlahiyyət hədləri daxilində bütün zəruri tədbirlərin görülməsini təmin edəcəkdir.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# «Korrupsiyaya qarşı mübarizə: beynəlxalq standartlar və milli təcrübələr» mövzusunda beynəlxalq konfransın iştirakçıları ümummilli lider Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət etmişlər



Bakıda keçirilən «Korrupsiyaya qarşı mübarizə: beynəlxalq standartlar və milli təcrübələr» mövzusunda yüksək səviyyəli beynəlxalq konfransın iştirakçıları iyulun 1-də Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad etmiş, məzarı önünə əklil və gül dəstələri qoymuşlar.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunmuş, məzarı üzərinə güllər düzülmüşdür.



Sonra Şəhidlər xiyabanına gələn konfrans iştirakçıları ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad etmiş, məzarları önünə tər güllər düzmüş, «Əbədi məşəl» abidəsinin qarşısına əklil qoymuşlar.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi və paytaxtımızda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilmişdir.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

## Bakıda «Korrupsiyaya qarşı mübarizə: beynəlxalq standartlar və milli təcrübələr» mövzusunda beynəlxalq konfrans işini davam etdirmişdir



Azərbaycan Respublikasının Avropa Şurasının Nazirlər Komitəsinə sədrliyi ilə əlaqədar Azərbaycan Hökuməti və Avropa Şurası tərəfindən Avropa Şurasının Korrupsiyaya qarşı Mübarizə Aparan Dövlətlər Qrupu (GRECO) və Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) iştirakı ilə Bakıda «Korrupsiyaya qarşı mübarizə: beynəlxalq






standartlar və milli təcrübələr» mövzusunda keçirilən beynəlxalq konfrans iyulun 1-də işini üçüncü plenar iclasla davam etdirmişdir.

«Korrupsiyaya qarşı mübarizə sahəsində cinayət təqibi tədbirləri» mövzusundakı üçüncü plenar iclasa moderatorluq edən Avstriya Respublikası Baş prokurorunun müavini, Beynəlxalq Prokurorlar Assosiasiyasının (IAP) prezidenti **Gerhard Yaroş** konfransın əhəmiyyətindən danışmışdır.

Korrupsiyanın insanların ehtiyaclarından deyil, əxlaqi zəifliklərindən irəli gəldiyini bildirən **Hasan Erbil** bunun çox ciddi sosial bəla olduğunu diqqətə çatdırmışdır. Qeyd edilmişdir ki, məhz bu baxımdan beynəlxalq ictimaiyyət sağlam rəqabətə zərbə vuran, demokratik dəyərlərə və digər mütərəqqi hallara təhlükə olan korrupsiyaya qarşı ciddi mübarizə aparır. Demokratik dəyərlərə ciddi təhdid yaradan korrupsiya digər sosial problemlərə – yoxsulluğa, ədalətsizliyə, haqsız rəqabətə yol açır. İclasda «Korrupsiya cinayətlərinin səmərəli araşdırılması» mövzusunda məruzə ilə çıxış edən Türkiyə Respublikasının Baş prokuroru Hasan Erbi'l konfransın yüksək səviyyədə təşkil olunduğunu bildirmiş, qonaqpərvərliyə görə minnətdarlıq etmişdir.

Korrupsiyaya qarşı mübarizənin sistemli şəkildə aparılmasının vacibliyini qeyd edən Türkiyənin Baş prokuroru bu bəlanın qarşısının alınması üçün iqtisadi, sosial problemlərin həllinin, dövlət qurumları arasında əlaqələrin gücləndirilməsinin, geniş maarifləndirmə



işlərinin aparılmasının, beynəlxalq əməkdaşlığın, təcrübə mübadiləsinin və digər tədbirlərin əhəmiyyətini bildirmişdir.

Lixtenşteyn Knyazlığının Baş prokuroru **Robert Volner** «BMT-nin Korrupsiya əleyhinə Konvensiyası: Əmlakın qaytarılması təcrübədə necə tətbiq edilir» mövzusunda məruzəsində siyasi iradənin azlığının və vəzifədən sui-istifadə hallarının korrupsiyaya yol açan əsas səbəblər olduğunu demişdir. Korrupsiyaya qarşı mübarizədə səmərəli vasitələrdən olan aktivlərin dondurulmasında, qanunsuz mənimsənilmiş vəsaitin və ya əmlakın qaytarılmasında yeni yanaşmaların tətbiq edildiyini diqqətə çatdıran Robert Volner bu sahədə mövcud qanunvericilik bazasından, icra mexanizmlərindən və görülmüş işlərdən danışmışdır. Qanunsuz əldə edilmiş vəsaitin geri qaytarılmasını vacib amil kimi qiymətləndirən Lixtenşteynin Baş prokuroru bunun korrupsiyaya qarşı mübarizənin ən mühüm hissələrindən biri olduğunu vurğulamışdır.

Litva Respublikasının Xüsusi İstintaq Xidmətinin rəhbəri **Saulius Urbanavičius** «İxtisaslaşmış antikorrupsiya qurumları arasında beynəlxalq əməkdaşlıq» mövzusunda çıxışında demişdir ki, korrupsiyaya qarşı mübarizədə prioritetləri, mübarizə metodlarını müəyyən etmək, resursları artırmaq, beynəlxalq əməkdaşlığı gücləndirmək mühüm rol oynayır.

Azərbaycan hökumətinin təşkilatçılığı ilə keçirilən beynəlxalq konfransda iştirakından məmnunluğunu vurğulayan S.Urbanaviçius korrupsiya əleyhinə mübarizə departamentinin fəaliyyətinə göstərdiyi fəal dəstəyə və ölkəmizin beynəlxalq antikorrupsiya işinə verdiyi töhfəyə görə azərbaycanlı həmkarlarına təşəkkürünü bildirmişdir. O xüsusi vurğulamışdır: «Biz çox şadıq ki, Azərbaycan bu işdə özünün uğurlu modelini yaratmışdır».




Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi, Azərbaycanın İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatında (OECD) Antikorrupsiya Şəbəkəsi üzrə milli əlaqələndiricisi və GRECO-da nümayəndəsi, Beynəlxalq Prokurorlar Assosiasiyasının (IAP) İcraiyyə Komitəsinin üzvü **Kamran Əliyev** «Korrupsiyaya qarşı mübarizədə ixtisaslaşdırılmış orqanlar: Azərbaycan təcrübəsi» mövzusunda məruzəsində korrupsiyaya qarşı mübarizənin kəsərliliyinin ixtisaslaşdırılmış qurumların mövcudluğu və fəaliyyətlərinin nəticəsi ilə ölçüldüyünü bildirmişdir. Ölkəmizdə korrupsiyaya qarşı mübarizədə ixtisaslaşmış qurum kimi Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin gördüyü işlər barədə məlumat verən Kamran Əliyev qurumun fəaliyyətinin gücləndirildiyini, şöbələrin və əməkdaşların sayının artırıldığını diqqətə çatdırmışdır. İdarə rəisi rəhbərlik etdiyi qurumun kəşfiyyat

məlumatlarının toplanması və tətbiqi funksiyasının korrupsiyaya qarşı mübarizənin səmərəli aparılmasında əhəmiyyətini xüsusi vurğulamışdır.

Qeyd edilmişdir ki, mövcud normalar və institusional mexanizmlərlə yanaşı, Baş idarənin cavabdehliyi ictimai nəzarət üsulları ilə də təmin edilir. Belə ki, iki il əvvəl Baş idarə ilə korrupsiyaya qarşı mübarizə aparan QHT-lərin Məlumat Şəbəkəsi arasında imzalanan memorandumda geniş əməkdaşlıq tədbirləri, o cümlədən məlumat mübadiləsi, qarşılıqlı treninqlərin və birgə tədqiqatların həyata keçirilməsi nəzərdə tutulur.

Kamran Əliyev bildirmişdir ki, korrupsiyaya qarşı mübarizədə ölkə rəhbərliyinin iradəsi və ixtisaslaşmış qurumun fəaliyyəti bu istiqamətdə gələcəkdə daha böyük uğurlar qazanmağa imkan verəcəkdir.




Malayziya Antikorrupsiya Komissiyasının kəşfiyyat şöbəsinin direktoru **Azam bin Baki** «Korrupsiya cinayətlərinin istintaqı zamanı cinayət prosesi iştirakçılarının müdafiəsi» mövzusunda məruzəsində korrupsiya hallarının aşkarlanmasında məxfiliyin təmin olunması ilə istintaqın aparılmasının əhəmiyyətindən danışmışdır.

Çin Xalq Respublikasının Honkonq Xüsusi İnzibati Ərazisinin Korrupsiyaya Qarşı Müstəqil Mübarizə Komissiyası (ICAC) direktorunun köməkçisi **Raymond NG** «Korrupsiyaya qarşı mübarizə: Honkonq təcrübəsi» mövzularında çıxışında Honkonqda korrupsiyaya qarşı mübarizənin tarixi, mövcud qanunvericilik bazası və bu istiqamətdə

həyata keçirilmiş tədbirlər barədə məlumat vermişdir. O, bu sahədə uğur qazanmaq üçün ictimaiyyətin də korrupsiyaya qarşı mübarizə işinə cəlb olunması istiqamətində ICAC-ın maarifləndirmə, təbliğat-təşviqat və digər kütləvi tədbirləri həyata keçirdiyini, eləcə də «qaynar xətt»in fəaliyyət göstərdiyini bildirmişdir.

Sonra mövzu və çıxışlar ətrafında müzakirələr aparılmışdır. Müzakirələrdən sonra Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi **Kamran Əliyev** plenar iclaslarda maraqlı çıxışların səsləndirildiyini, nəzəri və praktiki baxımdan faydalı müzakirələrin aparıldığını diqqətə çatdırmışdır.

Konfransın yekunları haqqında məruzə ilə çıxış edən Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Ədliyyə Nazirliyinin Beynəlxalq Əlaqələr İdarəsinin baş məsləhətçisi, Böyük Britaniyanın GRECO-dakı nümayəndəsi xanım **Fiona Salem** Azərbaycanın GRECO-ya üzv olmasının on illik yubileyi, eləcə də bu mötəbər tədbirin yüksək səviyyədə təşkilinə görə ölkəmizə təbriklərini çatdırmışdır.

Azərbaycanın korrupsiyaya qarşı mübarizəni prioritet seçdiyini vurğulayan F.Salem demişdir ki, bu fikri Azərbaycan Prezidenti İlham Əliyev Avropa Şurası Parlament Assambleyasındakı nitqində də bəyan etmişdir.

Azərbaycanda «İctimai iştirakçılıq haqqında» Qanunun qəbulunu, elektron xidmətlərin tətbiqi, ixtisaslaşdırılmış qurumların fəaliyyəti nəticəsində korrupsiyaya qarşı mübarizədə uğurlu nəticələrin əldə edildiyini vurğulayan Fiona Salem vətəndaş cəmiyyəti institutlarının bu sahədə dövlət qurumları ilə əməkdaşlığın hazırkı səviyyəsindən məmnun olduqlarını bildirmişdir. O, korrupsiyaya qarşı mübarizədə Azərbaycanın və Litvanın da iştirak etdikləri Tvinninq layihəsinin önəmini diqqətə çatdırmışdır.

Ölkəmizdə «ASAN xidmət» modelinin tətbiqini uğurlu təcrübə kimi qiymətləndirən Fiona Salem bu qurumun məmur-vətəndaş ünsiyyətinin azaldılması, dövlət qurumlarına etimadın artırılması, vətəndaşlara şəffaf və rahat xidmətlərin göstərilməsi baxımından əhəmiyyətini yüksək qiymətləndirmişdir. F.Salem çıxışının sonunda qlobal bəla olan korrupsiyaya qarşı mübarizədə beynəlxalq əməkdaşlıq və qanunvericilik yolu ilə qalib gəlməyin mümkün olduğunu bildirmişdir.

Plenar iclasa yekun vuran Kamran Əliyev tədbirin təşkilinə görə Avropa Şurasının Baş Katibinə, IACA-ya, GRECO-ya, iştirakçı ölkələrin nümayəndələrinə, dövlət qurumlarının, QHT-lərin və KİV-lərin təmsilçilərinə minnətdarlığını çatdırmışdır.

**Baş prokuror yanında Korrupsiyaya**
**qarşı Mübarizə Baş İdarəsi**

# Beynəlxalq Bakı konfransı korrupsiyaya qarşı birgə mübarizə işinə daha sanballı töhfə verəcəkdir



Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov iyulun 1-də «Korrupsiyaya qarşı mübarizə: Beynəlxalq standartlar və milli təcrübələr» mövzusunda Bakıda keçirilən yüksək səviyyəli beynəlxalq konfrans çərçivəsində Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) dekanı və icraçı katibi Martin Kreutner və IACA-nın xarici əlaqələr və protokol şöbəsinin müdiri Ernest Şmidt ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə IACA arasındakı əlaqələrin yüksək səviyyədə olduğu bildirilmiş, qarşılıqlı münasibətlərin bundan sonra da möhkəmləndirilməsi üçün səylərin artırılacağı diqqətə çatdırılmışdır.

Korrupsiyaya qarşı mübarizə mövzusunda beynəlxalq Bakı konfransının əlaqələrin genişləndirilməsinə, korrupsiyaya qarşı birgə mübarizə işinin daha səmərəli təşkilinə töhfə verəcəyinə əminlik ifadə olunmuşdur.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Azərbaycan ilə Avropa Şurası arasında hüquqi sahədə əlaqələr yüksək səviyyədədir



Bakıda «Korrupsiyaya qarşı mübarizə: Beynəlxalq standartlar və milli təcrübələr» mövzusunda keçirilən yüksək səviyyəli beynəlxalq konfrans çərçivəsində iyulun 1-də Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov Avropa Şurası Ümumi İnsan Hüquqları və Hüquq Qaydaları Baş İdarəsinin rəisi Filip Boya ilə görüşmüşdür.

Söhbət zamanı Azərbaycan ilə Avropa Şurası arasında hüquqi sahədə əlaqələrin inkişafından məmnunluq ifadə olunmuş, ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsi, korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlər yüksək qiymətləndirilmişdir.

Görüşdə Avropa Şurasının Bakı ofisinin rəhbəri xanım Draqana Filipoviç iştirak etmişdir.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Albaniyanın Baş prokuroru beynəlxalq Bakı konfransının yüksək səviyyədə təşkil olunduğunu vurğulamışdır



Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov iyulun 1-də Albaniya Respublikasının Baş prokuroru Adriatik Lala ilə görüşmüşdür.

Görüşdə Zakir Qaralov qonağa ölkəmizdə məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən imzalanan mütərəqqi qanunvericilik aktları, prokurorluğun fəaliyyəti üçün zəruri hüquqi bazanın yaradılması və aparılan əsaslı islahatlar, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyəti barədə ətraflı məlumat vermişdir.

«Korrupsiyaya qarşı mübarizə: Beynəlxalq standartlar və milli təcrübələr» mövzusunda beynəlxalq konfransın yüksək səviyyədə təşkil edildiyini bildirən Adriatik Lala baş prokurorluqlar arasında əməkdaşlığın perspektivlərinin müzakirəsi, iş təcrübəsi və məlumat mübadiləsinin, həmçinin istintaq işinin səmərəliliyinin artırılması məqsədilə qarşılıqlı səfərlərin həyata keçirilməsinin zəruriliyini vurğulamışdır. Qonaq rəhbərlik etdiyi qurumun Azərbaycan ilə əlaqələrin inkişafına böyük önəm verdiyini diqqətə çatdırmışdır.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Azərbaycanın və Xorvatiyanın Baş prokurorluqları arasında əməkdaşlıq məsələləri müzakirə olunmuşdur



İyulun 1-də Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov xorvatiyalı həmkarı Dinko Svitan ilə görüşmüşdür.

Görüşdə qonağa son illər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları çərçivəsində prokurorluğun fəaliyyəti üçün zəruri normativ-hüquqi bazanın yaradılması, prokurorluq orqanlarının fəaliyyətinin hərtərəfli müasirləşdirilməsi, prokurorluğun strukturunun daha da təkmilləşdirilməsi, kadr potensialının formalaşdırılması istiqamətində aparılan əsaslı islahatlar, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi məqsədilə digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı səmərəli əlaqələrin qurulması, həmçinin müasir dövrdə qarşıda duran digər vəzifələr barədə ətraflı məlumat verilmişdir.

Söhbət zamanı hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılmış, həm ikitərəfli, həm də çoxtərəfli səviyyələrdə, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyindən danışılmış, iki ölkənin prokurorluq orqanları arasında münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə olunmuşdur.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Beynəlxalq Bakı konfransı başa çatmışdır



«Korrupsiyaya qarşı mübarizə: Beynəlxalq standartlar və milli təcrübələr» mövzusunda beynəlxalq Bakı konfransı iyulun 1-də başa çatmışdır.

Konfrans iştirakçıları Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında yaradılan şəraitlə tanış olmuşlar.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev qonaqlara məlumat vermişdir ki, 5 və 7 mərtəbəli iki korpusdan, habelə üçmərtəbəli yardımçı bina və yeraltı qarajdan ibarət olan kompleksin ətrafında yeni park salınmış, fəvvarələr quraşdırılmışdır.

Bildirilmişdir ki, 100 və 250 nəfərlik konfrans zallarında müxtəlif treninqlər, seminarlar və beynəlxalq tədbirlər, mətbuat konfransları, vətəndaş cəmiyyəti institutları, o cümlədən qeyri-hökumət təşkilatları ilə görüşlər, «dəyirmi masa»lar, maarifləndirici tədbirlər və təqdimatlar keçirilir. Burada əməliyyatların idarə edilməsi mərkəzi də yaradılmışdır. Mərkəzdə Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən hazırlanaraq həyata keçirilən əməliyyat tədbirlərinin birbaşa rejimdə idarə edilməsi mümkündür.

Qonaqlara məlumat verilmişdir ki, korrupsiya hüquqpozmaları barədə müraciətlərin təxirə salınmadan çatdırılması və operativ baxılmasının təmin edilməsi məqsədilə yaradılan «161» nömrəli «Qaynar xətt» əlaqə mərkəzinin fəaliyyəti təkmilləşdirilmişdir. Artıq daxil olan zənglərin görmə funksiyasını əks etdirən monitorlar vasitəsilə qəbulu yeni proqram təminatı ilə həyata keçirilir ki, bu da korrupsiyaya daha çox məruz qalan sahələrin müəyyən edilməsi və qabaqlayıcı tədbirlərin həyata keçirilməsi üçün təhlillər aparmağa imkan yaradır.

Konfrans iştirakçıları korrupsiya cinayətlərinin qarşısının alınması və aşkarlanması istiqamətində əməliyyat-axtarış fəaliyyətinin uğurla həyata keçirilməsi məqsədilə elmi-texniki tərəqqinin ən müasir nailiyyətlərini özündə birləşdirən zəruri avadanlıq, müasir texniki vasitələrlə təchiz edilmiş otaqlarla tanış olmuşlar.

Qonaqlar Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin istifadəsində olan xüsusi avtomobillərə də baxmışlar. Qeyd olunmuşdur ki, xüsusi avadanlıqla təchiz edilən kriminalistik avtomobillərdə istintaq və əməliyyat tədbirlərinin həyata keçirilməsi üçün zəruri şərait yaradılmışdır. Kriminalistika otağında müxtəlif kateqoriyadan olan korrupsiya cinayətlərinin istintaq metodikasına dair məlumatları əks etdirən lövhələr, əyani vəsaitlər quraşdırılmışdır. Bundan əlavə, binada vətəndaşların qəbul otağı yaradılmış, müasir elektron məlumat daşıyıcıları, o cümlədən məlumat köşkü qoyulmuşdur. BMT-nin Əlillərin Hüquqları Haqqında Konvensiyasına uyğun olaraq bi-

naya əlillərin daxil olmaları üçün qaldırıcı qurğu quraşdırılmışdır.



Binada yaradılmış şəraitlə tanışlıqdan sonra «Korrupsiyaya qarşı mübarizə: Beynəlxalq standartlar və milli təcrübələr» mövzusunda keçirilən beynəlxalq konfransın bağlanış mərasimi olmuşdur.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin binasının ötən il sentyabrın 30-da Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə açıldığını bildirmişdir. Zakir Qaralov Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi yaradılarkən qarşıda bu qurumun normal funksional fəaliyyəti üçün müasir binanın inşası vəzifəsinin durduğunu demişdir. Bu baxımdan bir çox ölkənin, o cümlədən Sinqapurun, Honqkonqun, Malayziyanın təcrübəsinin öyrənildiyini, ciddi layihələndirmə işlərinin aparıldığını vurğulayan Baş prokuror binanın yüksək səviyyədə inşa edilərək istifadəyə verildiyini diqqətə çatdırmışdır.

Zakir Qaralov bu binanın hakimlər, prokurorluq işçiləri, dövlət qurumlarının və korrupsiyaya qarşı mübarizə sahəsində fəaliyyət göstərən QHT-lərin nümayəndələri üçün artıq müzakirə meydanına çevrildiyini vurğulamışdır.

Avropa Şurasının İnsan Hüquqları və Hüquq Məsələləri Baş İdarəsinin baş direktoru Filip Boya Azərbaycanın Avropa Şurası Nazirlər Komitəsinə sədrliyə başlaması çərçivəsində təşkil edilən konfransın yüksək səviyyədə keçirildiyini bildirmişdir.

Filip Boya Azərbaycan Prezidenti İlham Əliyevin Avropa Şurası Parlament Assambleyasındakı nitqində ölkəmizin Avropa Şurasının Nazirlər Komitəsinə sədrliyi müddətində mövqeyini açıq bəyan etdiyini demişdir. Qeyd olunmuşdur ki, Azərbaycan Prezidenti nitqində bu bəşəri bəlanın tamamilə aradan qaldırılması üçün səmərəli mübarizənin aparılması ilə bağlı çağırış etmiş, bu məsələnin ölkəmizin prioritetlərindən biri olduğunu və ona qarşı milli səviyyədə gərgin mübarizənin aparıldığını bəyan etmişdir.

«Biz ikigünlük konfransda milli səviyyədə təcrübələrimizi bölüşdük» – deyən Filip Boya müzakirələrə Avropa Şurası sərhədlərindən kənarda yerləşən ölkələrdən də nümayəndələrin qatılması baxımından tədbirin əhəmiyyətini yüksək qiymətləndirmişdir. Bu konfransın korrupsiyaya qarşı mübarizəyə böyük töhfə verəcəyinə əminliyini bildirən baş direktor yüksək qonaqpərvərliyə görə Azərbaycana təşəkkürünü çatdırmışdır.

Baş prokuror Zakir Qaralov ikigünlük konfransın işini yekunlaşdırdığını elan edərək tədbir çərçivəsində səsləndirilən çıxışlarda və aparılan müzakirələrdə korrupsiyanın demokratik dəyərləri sarsıdaraq davamlı inkişafa və hüququn aliliyinə xələl gətirməsi, cəmiyyətin sabitliyi və təhlükəsizliyi üçün doğurduğu problemlərdən narahatlığın ifadə olunduğunu, bununla yanaşı, antikorrupsiya qanunvericiliyinin tətbiqi, korrupsiyaya qarşı mübarizə sahəsində qazanılmış müsbət nailiyyətlərin paylaşıldığını diqqətə çatdırmışdır. Baş prokuror dünyanın müxtəlif ölkələrini və korrupsiyaya qarşı mübarizə sahəsində ayrı-ayrı qurumları təmsil edən şəxslərin fəaliyyətinin əlaqələndirilməsi baxımından da konfransın əhəmiyyətini xüsusi vurğulamışdır. Bir daha əmin olduq ki, korrupsiyanın qarşısının səmərəli surətdə alınması və ona qarşı mübarizə aparılması üçün çoxşaxəli yanaşma zəruridir və bu sahədə beynəlxalq əməkdaşlıq müstəsna əhəmiyyət kəsb edir.

Konfransda səslənən məruzələrin və çıxışların vahid nəşrdə toplanması haqqında qərar qəbul olunduğunu da diqqətə çatdıran Baş prokuror demişdir ki, Azərbaycan Prezidenti İlham Əliyev inkişaf etmiş ölkələrin korrupsiyaya qarşı mübarizə sahəsində əldə etdiyi müsbət təcrübənin öyrənilməsini dövlətimizin beynəlxalq əməkdaşlığının mühüm istiqamətlərindən biri olduğunu bildirmişdir.

Zakir Qaralov konfrans zamanı qazanılan müsbət təcrübənin, biliklərin, səsləndirilmiş təkliflərin və konfransın nəticələrinin ölkələrimizdə korrupsiyaya qarşı mübarizə işinə təkan verəcəyinə ümidvar olduğunu diqqətə çatdırmışdır.

Daha sonra konfransın yekunları ilə bağlı mətbuat konfransı olmuşdur. Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev və Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın katibi Vüsal Hüseynov tədbirdə müzakirə olunan məsələlərdən danışmış, mətbuat nümayəndələrinin suallarını cavablandırmışlar.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

# Türkiyə Ali Məhkəməsi Baş Prokurorluğunun nümayəndə heyəti ümummilli lider Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib






Türkiyə Respublikası Ali Məhkəməsinin Baş prokurorunun müavini Mehmet Ekmekçinin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə işgüzar səfərdə olmuşdur.

Sentyabrın 18-də qonaqlar Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyublar.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər çiçəklər qoyulub.

Qonaqlar Şəhidlər xiyabanını da ziyarət edərək Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla anıb, məzarları üzərinə güllər, «Əbədi məşəl» abidəsinin önünə əklil qoyublar.

Daha sonra nümayəndə heyəti Şəhidlər xiyabanında şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət ediblər.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Azərbaycan ilə Türkiyə arasında hüquqi sahədə əməkdaşlıq bundan sonra da uğurla davam etdiriləcək



Azərbaycan və Türkiyə prokurorluqları arasında işgüzar əlaqələrin daha da möhkəmləndirilməsi məqsədilə ölkəmizdə səfərdə olan Türkiyə Respublikası Ali Məhkəməsi Baş prokurorunun müavini Mehmet Ekmekçinin rəhbərlik etdiyi nümayəndə heyəti sentyabrın 18-də Baş Prokurorluqda olub.

Qonaqları səmimiyyətlə salamlayan Baş prokuror Zakir Qaralov tarixən xalqlarımızın milli köklərə söykənən münasibətlərinin siyasi, iqtisadi, mədəni və digər sahələrdə də müvəffəqiyyətlə inkişaf etdirildiyini bildirib. Bu əlaqələrin Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin «bir millət, iki dövlət», Türkiyə dövlətinin qurucusu Mustafa Kamal Atatürkün «Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir» kəlamları ilə dəqiq ifadə edildiyi, dövlətlərimizin rəhbərlərinin siyasi iradəsi ilə reallaşan nəhəng enerji və nəqliyyat layihələrinin ölkələrimizi daha da yaxınlaşdıracağı, xalqlarımızın rifahına xidmət göstərəcəyi xüsusi olaraq vurğulanıb.

Baş prokuror son illər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları çərçivəsində prokurorluğun fəaliyyəti üçün zəruri normativ-hüquqi bazanın yaradılması, prokurorluq orqanlarının fəaliyyətinin hərtərəfli müasirləşdirilməsi, prokurorluğun strukturunun daha da təkmilləşdirilməsi, kadr korpusunun tamamilə yenidən formalaşdırılması istiqamətində aparılan köklü islahatlar, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi məqsədilə digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı səmərəli əlaqələrin qurulması, həmçinin müasir dövrdə qarşıda duran digər vəzifələr barədə qonaqlara ətraflı məlumat verib.

Nümayəndə heyətinin rəhbəri Mehmet Ekmekçi təmsil etdiyi qurumun Azərbaycan ilə əlaqələrin inkişafına böyük önəm verdiyini bildirib. O, iki ölkə arasında mövcud iqtisadi, siyasi, sosial, mədəni əlaqələrin yüksək səviyyədə olmasını və bunun məntiqi nəticəsi kimi xalqlarımızın üzləşdiyi bütün məsələlərdə bir-birinə dəstək verməsini xüsusi vurğulayıb.

Görüşdə hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılıb, qarşılıqlı səmərəli fəaliyyətin bun-dan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə olunub.

Nümayəndə heyəti daha sonra Baş Prokurorluğun Tarix muzeyi ilə tanış olub. Muzeydə Azərbaycan Prokurorluğunun zəngin tarixi, qardaş ölkələrimiz arasındakı münasibətləri əks etdirən ekspozisiyalar,

eyni zamanda, ulu öndər Heydər Əliyevin həyat və yaradıcılığına həsr olunan guşə və eksponatlar qonaqlarda zəngin təəssürat oyadıb.

Səfər zamanı qonaqlar, həmçinin Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin milli memarlıq üslubunda və müasir standartlar səviyyəsində inşa edilmiş yeni inzibati binasına gəliblər. Nümayəndə heyətinin üzvləri beynəlxalq tədbirlərin, mətbuat konfranslarının keçirilməsi üçün nəzərdə tutulmuş konfrans zalları, müasir hüquq ədəbiyyatı, normativ-hüquqi aktlarla zənginləşdirilən, digər dövlət qurumlarının elektron kitabxanalarına çıxışla təmin edilən kitabxana, müasir proqram təminatı ilə təchiz edilmiş «Qaynar xətt» əlaqə mərkəzi, digər dövlət qurumlarının məlumat bazalarına çıxışı olan informasiya-kommunikasiya şəbəkəsi və əməliyyatların idarə edilməsi mərkəzi ilə tanış olublar.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev idarənin fəaliyyəti barədə nümayəndə heyətinin üzvlərinə geniş məlumat verib. Görüşdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin və onun tərkibində fəaliyyət göstərən «ASAN xidmət» mərkəzlərinin korrupsiyaya qarşı mübarizə vasitəsi kimi uğurlu model olduğu xüsusi vurğulanıb.

Nümayəndə heyətinin rəhbəri Mehmet Ekmekçi son illər Azərbaycanda baş verən müsbət dəyişikliklərdən məmnunluğunu bildirib və bu sahədə əməkdaşlıq üçün bütün imkanların olduğunu söyləyib.

İdarənin fəaliyyəti qonaqların böyük marağına səbəb olub.

Daha sonra nümayəndə heyəti 3 saylı Bakı «ASAN xidmət» mərkəzinin fəaliyyəti və vətəndaşlara göstərilən xidmət növləri ilə ətraflı tanış olublar. Dövlət orqanlarının hüquqi xidmətlər göstərməsində vətəndaşların razı salınmasına, şəffaflığın təmin edilməsinə, korrupsiya hallarının istisna olunmasına, müasir texnologiyaların, «bir qapı» prinsipinin tətbiqinə, dövlət məmuru-vətəndaş təmas nöqtələrinin minimuma endirilməsinə istiqamətlənmiş mərkəzlərin fəaliyyəti təqdirəlayiq hesab edilib, belə bir qurumun digər ölkələr üçün nümunə olduğu bildirilib.

***

## Azərbaycanın və Bolqarıstanın Baş prokurorluqları arasında əməkdaşlıq proqramı imzalanmışdır

İyulun 1-də «Azərbaycan Respublikasının Baş Prokurorluğu və Bolqarıstan Respublikasının Baş Prokurorluğu arasında əməkdaşlıq proqramı» imzalanmışdır.



Sənədi Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini Rüstəm Usubov və Bolqarıstan Respublikası Baş prokurorunun müavini Yevgeni Dikov imzalamışlar.

Sənəddə iki ölkənin prokurorluq orqanları arasında dostluq və əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi, təcrübə və işçi mübadiləsinin aparılması nəzərdə tutulub.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

## Avropa Şurası Parlament Assambleyasının sədri Baş Prokurorluqda olmuşdur

Sentyabrın 22-də Baş prokuror Zakir Qaralov Avropa Şurası Parlament Assambleyasının (AŞPA) sədri xanım Ann Brasör ilə görüşmüşdür.

Azərbaycan Respublikası ilə AŞPA arasında əməkdaşlığın möhkəmləndirilməsinə böyük önəm verdiyini bildirən Baş prokuror ölkəmizin məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi istiqamətində mütərəqqi qanunvericilik aktlarının qəbul edilməsi, bu islahatlar çərçivəsində prokurorluğun fəaliyyəti üçün normativ-hüquqi bazanın yaradılması, son illər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq korrupsiyaya qarşı mübarizə sahəsində mühüm qanunverici və praktiki tədbirlərin həyata keçirilməsi, ölkə həyatının bütün sahələrində şəffaflığın artırılmasına istiqamətlənmiş institusional islahatların aparılması barədə ətraflı məlumat vermişdir.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi və tətbiqinin prokurorluq orqanları qarşısında prioritet vəzifə olduğunu diqqətə çatdıran Baş prokuror, çıxışında respublikamızda İnsan hüquqları üzrə Avropa Konvensiyasının implementasiyası, insan hüquqlarının qorunması istiqamətində aparılan işlər, o cümlədən «Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı»nın icrası ilə əlaqədar konkret işlərin həyata keçirildiyini xüsusi vurğulamışdır.

AŞPA ilə Azərbaycan Respublikası arasında sıx əməkdaşlıqdan və bu əlaqələrin daha da inkişaf etdirilməsindən məmnunluğunu ifadə edən qonaq ölkəmizdə məhkəmə-hüquq sistemində həyata keçirilən islahatları, xüsusilə korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işləri yüksək qiymətləndirmişdir.

Daha sonra tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

***

## Müsabiqə yolu ilə prokurorluq orqanlarında qulluğa yeni qəbul edilmiş gənc əməkdaşların andiçmə mərasimi keçirilib



Sentyabrın 30-da Azərbaycan Respublikasının Baş Prokurorluğunda müsabiqə yolu ilə prokurorluq orqanlarında qulluğa yeni qəbul edilmiş gənc əməkdaşların andiçmə mərasimi keçirilib.

Prokurorluq orqanlarında qulluğa yeni




qəbul edilmiş gənc əməkdaşlar əvvəlcə Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, abidəsi önünə əklil qoyublar.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə də tər çiçəklər düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn gənc hüquqşünaslar ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, «Əbədi məşəl» abidəsi önünə əklil qoyublar.

Mərasimdə çıxış edən Baş prokuror Zakir Qaralov diqqətə çatdırıb ki, prokurorluğun kadr tərkibinin formalaşdırılmasının yeganə düzgün yolu kimi beynəlxalq standartlara uyğun şəffaf prosedur qaydalar əsasında gənc mütəxəssislərin işə qəbul edilmələri memarı ulu öndər Heydər Əliyev olan və Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən yeni müstəvidə uğurla davam etdirilən hərtərəfli məhkəmə-hüquq islahatları nəticəsində mümkün olub. Azərbaycan Prezidentinin 2001-ci il 19 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş «Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında» Əsasnaməyə uyğun olaraq tam aşkarlıq şəraitində, şəffaf prosedurlarla, ciddi ictimai nəzarət altında, beynəlxalq və qeyri-hökumət təşkilatlarının müşahidəsi ilə keçirilən müsabiqədə seçilən ən layiqli namizədlər müxtəlif vəzifələrə təyinatlar alıblar.

Qeyd edilib ki, prokurorluq orqanlarında işləmək arzusunu reallaşdırmaq üçün Baş Prokurorluğun Tələbə Qəbulu üzrə Dövlət Komissiyası ilə əlaqəli şəkildə keçirdiyi qəbul



prosesində iştirak etmiş gənc hüquqşünasların içərisindən ən layiqli 71 namizədin andiçmə mərasimi Azərbaycan Respublikasının müstəqil inkişaf tarixinin yeni yüksəliş mərhələsinə təsadüf edir. Bu gün dünyada analoqu olmayan çox yüksək templərlə inkişaf edən Azərbaycan Respublikasında dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi altında böyük quruculuq işləri həyata keçirilməklə, əhalinin sosial rifah halının daha da yaxşılaşdırılması, regionun aparıcı dövlətinə çevrilən ölkəmizin iqtisadi qüdrətinin möhkəmləndirilməsi, demokratik dəyərlərə əsaslanan dünyəvi və hüquqi dövlət quruculuğunun tam yeni məzmunlu bir mərhələyə qaldırılması istiqamətində möhtəşəm işlər görülür.

Xüsusi vurğulanıb ki, gənclərə hərtərəfli qayğı və diqqət göstərilməsi, onların problemlərinin həlli istiqamətində bütün dövlət təsisatları tərəfindən zəruri tədbirlərin görülməsi, ölkə həyatının bütün sahələrində gənclərin əməyindən hərtərəfli istifadə olunması Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında respublikamızda aparılan dövlətçilik siyasətinin prioritet istiqamətlərindən biridir. Azərbaycan Prezidentinin 2011-ci il 7 iyul tarixli Sərəncamı ilə «Azərbaycan gəncliyi 2011–2015-ci illərdə Dövlət Proqramı»nın təsdiq edilməsi bu məsələlərə çox böyük önəm verilməsinin bariz nümunəsi kimi dəyərləndirilməlidir.

Diqqətə çatdırılıb ki, 2000-ci il aprelin 26-da ulu öndər Heydər Əliyevin sədrliyi ilə keçirilən müşavirədə əsası qoyulmaqla, prokurorluqda bu gün də uğurla davam etdirilən hərtərəfli islahatlar prosesinin ən mühüm istiqamətlərindən biri kimi müsabiqə yolu ilə qulluğa qəbulun alternativi olmamaqla, bu yol prokurorluğun kadr tərkibinin komplektləşdirilməsinin ən demokratik və mütərəqqi vasitəsidir. 2002-ci ildən başlayaraq keçirilən 13 müsabiqə nəticəsində işə qəbul edilmiş




627 gənc mütəxəssis hazırda prokurorluq işçilərinin ümumi sayının 58 faizdən çoxunu təşkil edir.

Çox müsbət hal kimi qeyd edilib ki, müsabiqə yolu ilə ilkin qəbulların nəticələrinə əsasən prokurorluqda qulluğa qəbul olunmaqla, fəaliyyətləri dövründə xidməti vəzifələrinə vicdanlı münasibətləri və peşə hazırlığı səviyyəsinə görə seçilən bir çox gənc mütəxəssis vəzifədə irəli çəkilib, o cümlədən Baş Prokurorluğun idarə rəisinin müavini, şöbə rəisi, müstəqil rayon prokuroru və digər mühüm qurumlara təyinatlar alıblar.

Azərbaycan Respublikası Baş prokurorunun müavini, müsabiqə komissiyasının sədri Namiq Əsgərov qulluğa qəbulla əlaqədar müsabiqənin keçirilməsi ilə bağlı mərasim iştirakçılarına ətraflı məlumat verib.

Daha sonra prokurorluqda qulluğa yeni qəbul olunmuş gənclərin vəzifələrə təyin edilməsi barədə Baş Prokurorluq üzrə əmr elan edilib. İşə qəbul olunanlar Azərbaycan Respublikasının dövlət bayrağı önündə təntənəli surətdə and içib və onlara xidməti vəsiqələr təqdim edilib.

Mərasimdə çıxış edən gənclər prokurorluğa işə qəbulun obyektiv, ədalətli və beynəlxalq tələblərə uyğun keçirilməsi üçün yaradılmış şəraitə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildirib və onlara göstərilən yüksək etimadı doğruldacaqlarına söz veriblər.

Baş prokuror Zakir Qaralov mərasimə yekun vuraraq prokurorluğa qulluğa qəbul olunan gəncləri təbrik edib, prokurorluq işçisinin şərəfini həmişə uca tutacaqlarına əmin olduğunu bildirib.

Mərasim iştirakçıları adından Azərbaycan Prezidenti İlham Əliyevə müraciət qəbul edilib.

Sonda prokurorluq orqanlarında qulluğa qəbul olunmaq istəyən şəxslər üçün 100 ştat vahidi üzrə növbəti müsabiqənin elan edilməsi barədə məlumat verilib.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

## Baş prokuror Zakir Qaralov Astara şəhərində vətəndaşları qəbul etmişdir



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən bölgələrdə vətəndaşların qəbulu davam etdirilir.

Baş prokuror Zakir Qaralov iyulun 18-də bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Astara rayon prokurorluğunun inzibati binasında Astara, Lənkəran, Lerik, Masallı və Yardımlı rayonlarından olan vətəndaşları qəbul etmişdir.

Qəbuldan əvvəl Baş prokuror və Astara rayon İcra Hakimiyyətinin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad etmişlər.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Baş prokuror bölgədə yaşayan 60-dan artıq vətəndaşın müraciətlərində qaldırılan və bilavasitə prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlər üzrə onların qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər vermişdir.

Müraciətlərdə qaldırılan məsələlərin bir qismi yerində öz həllini tapmış, eyni zamanda prokurorluğun fəaliyyətinə aid olmayan digər məsələlərlə bağlı müraciətlərin araşdırılması üçün aidiyyəti üzrə göndərilməsi təmin olunmuşdur.

Göstərilənlərlə yanaşı qeyd edilən rayon prokurorlarının iştirakı ilə müşavirə keçirilməklə vətəndaşların müraciətlərinə obyektiv baxılması və onların qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşımaları diqqətə çatdırılmışdır.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

## Baş prokuror Zakir Qaralov Qazax şəhərində vətəndaşları qəbul etmişdir



Baş prokuror Zakir Qaralov avqustun 15-də bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Qazax rayon prokurorluğunun inzibati binasında Qazax, Ağstafa, Tovuz, Şəmkir və Gədəbəy rayonlarından olan vətəndaşları qəbul etmişdir.

Qəbuldan əvvəl Baş prokuror və Qazax rayon İcra Hakimiyyətinin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad etmişlər.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Baş prokuror bölgədə yaşayan 60-a yaxın vətəndaşın müraciətlərində qaldırılan və bilavasitə prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlər üzrə onların qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər vermişdir.

Müraciətlərdə qaldırılan məsələlərin bir qismi yerində öz həllini tapmış, eyni zamanda prokurorluğun fəaliyyətinə aid olmayan digər məsələlərlə bağlı müraciətlərin araşdırılması üçün aidiyyəti üzrə göndərilməsi təmin olunmuşdur.

Yekunda tabe prokurorların iştirakı ilə müşavirə keçirilməklə, respublikamızın mühüm strateji əhəmiyyət kəsb edən qərb bölgəsində ictimai-siyasi sabitliyin daha da möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizənin səmərəliliyi və kəsərliliyinin artırılması, habelə vətəndaşların müraciətlərinə obyektiv baxılması və onların qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşımaları diqqətə çatdırılmışdır.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

## Baş prokuror Zakir Qaralov Zaqatala şəhərində vətəndaşları qəbul etmişdir



Baş prokuror Zakir Qaralov sentyabrın 19-da vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Zaqatala rayon prokurorluğunun inzibati binasında Zaqatala, Balakən, Qax, Şəki, Oğuz və Qəbələ rayonlarından olan vətəndaşları qəbul etmişdir.

Qəbuldan əvvəl Baş prokuror və Zaqatala rayon İcra Hakimiyyəti başçısının birinci müavini xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad etmişlər.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Baş prokuror bölgədə yaşayan 30-dan artıq vətəndaşın müraciətlərində qaldırılan və bilavasitə prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlər üzrə onların qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verilmişdir.

Müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə öz həllini tapmış, eyni zamanda prokurorluğun fəaliyyətinə aid olmayan digər məsələlərlə bağlı müraciətlərin araşdırılması üçün aidiyyəti üzrə göndərilməsi təmin olunmuşdur.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

## Naxçıvan Muxtar Respublikası Prokurorluğunda 2014-cü ilin birinci yarımilində görülmüş işlərin yekunları və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş kollegiya iclası keçirilmişdir

İyulun 11-də Naxçıvan Muxtar Respublikasının Prokurorluğu orqanları tərəfindən cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının cinayət təqibi çərçivəsində müdafiəsi sahəsində 2014-cü ilin birinci yarımilində görülmüş işlərin yekunları və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş kollegiya iclası keçirilmişdir. Kollegiya iclasını Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev açaraq, geniş məruzə ilə çıxış etmişdir. Qeyd olunmuşdur ki, Azərbaycan Respublikası Prokurorluğunun dünya standartlarına uyğun fəaliyyəti, qanunçuluq, insan və vətəndaş hüquqlarının təmin olunması prinsiplərinə əsaslanan demokratik cəmiyyətdə özünəməxsus yer tutan orqan kimi formalaşması və prokurorluq orqanlarının konstitusion statusa malik olmaqla dövlət idarəetmə sistemində öz yerini tutması yalnız ulu öndər Heydər Əliyevin rəhbərliyi altında başlanan və dövlət başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən məhkəmə-hüquq islahatları və hərtərəfli dövlət dəstəyi nəticəsində mümkün olmuş, Muxtar Respublika Prokurorluğunun mərkəzi aparatı və tabe rayon (şəhər) prokurorluqlarının normal fəaliyyət göstərməsi üçün müasir standartlara cavab verən yeni inzibati binalar tikilib və ya əsaslı təmir edilərək prokurorluq əməkdaşlarının istifadəsinə verilmiş, Muxtar Respublika Prokurorluğu digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə ölkəmizdə həyata keçirilən quruculuq işlərinin əsas təminatlarından biri olan ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi istiqamətində zəruri tədbirlərin görülməsini təmin etmişdir.

Hesabat dövründə Muxtar Respublika ərazisində qeydə alınan 15 cinayət hadisəsinin 7-nin Naxçıvan şəhərində, 2-nin Şərur, 4-nün Kəngərli, 1-nin Culfa, 1-nin isə Sədərək rayonlarında qeydə alınması aidiyyəti rayon (şəhər) prokurorlarını ciddi düşündürməli, cinayətlərin baş verməmdən qarşısının alınması üçün digər hüquq-mühafizə orqanları ilə birlikdə qabaqlayıcı profilaktiki tədbirləri daha da gücləndirməli, qabaqlayıcı tədbirlər görülməlidir.

Qeyd olunmuşdur ki, peşə fəaliyyəti ilə əlaqədar jurnalistlərin təqib edilməsi və onlara təzyiqlər göstərilməsi ilə bağlı cinayət hadisəsi qeydə alınmamış, həyata keçirilmiş zəruri profilaktiki tədbirlər nəticəsində yetkinlik yaşına çatmayanlar, əvvəllər məhkum olunmuşlar və narkomanlar tərəfindən cinayət hadisələri törədilməmiş, bu kateqoriyadan olan şəxslər tərəfindən bundan sonra da cinayət hadisələri törədilməsinin qarşısının alınması üçün bütün qabaqlayıcı-profilaktik tədbirlərdən səmərəli istifadə edilməsi zəruridir. Sərxoş vəziyyətdə 1 cinayət hadisəsinin törədilməsi isə aidiyyəti prokurorluq işçilərindən bu sahəyə diqqəti daha da artırmağı tələb edir. Həyata keçirilən istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində keçmiş illərdə baş verib bağlı qalmış 2 cinayət hadisəsinin açılması təmin edilsə də, görülən işlərlə kifayətlənməməli və keçmiş illərdə baş verib bağlı qalmış bütün cinayət hadisələrinin, o cümlədən qəsdən adam öldürmə cinayətlərinin də açılması istiqamətində zəruri tədbirlərin həyata keçirilməsi təmin olunmalı, müvafiq orqanlarla əlaqəli şəkildə keçmiş illərdə baş verib bağlı qalmış hər bir qəsdən adam öldürmə cinayəti üzrə müzakirələr keçirilməli, həmin cinayətlərin açılması istiqamətində istintaq və əməliyyat-axtarış tədbirlərinin intensivliyi və kəsərliliyinin artırılması üçün konkret tədbirlər müəyyənləşdirilməlidir. Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə əlaqədar 3 fakt qeydə alınmış, Muxtar Respublikanın sərhəd bölgəsində yerləşməsini və bu cinayətlərin transmilli xarakter daşımasını nəzərə alaraq rayon (şəhər) prokurorları bu sahəyə diqqəti artırmalı, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizədə profilaktiki işləri daha da gücləndirməlidirlər.

Prokurorluq orqanlarında 5 cinayət işi istintaq olunmuş, həbs qətimkan tədbirinin seçilməsi üçün müvafiq məhkəmələrə 2 təqdimat verilmiş və onlardan 1-i təmin olunmuşdur. Cinayət işləri üzrə dövlət mülkiyyətinə vurulmuş 10497 manat məbləğində maddi ziyanın istintaq dövründə tam ödətdirilməsi təmin olunmuş, törədilmiş və ya hazırlanan cinayətlər haqqında 19 məlumat daxil olmuşdur ki, onlardan 3 məlumat üzrə cinayət işi

başlanmış, 14 məlumat üzrə cinayət işi başlanması rədd edilmiş, 2 məlumat hesabat dövrünün sonuna qalıq qalmış, məlumatların həlli zamanı müddət və qanun pozuntularına yol verilməmişdir.

Qeyd olunmuşdur ki, Dövlət ittihamının müdafiəsi üzrə şöbənin əməkdaşlarının iştirakı ilə Muxtar Respublikanın məhkəmələri tərəfindən 18 şəxs barəsində 15 hazırlıq iclası keçirilərək məhkəmə baxışı təyin edilmiş, 14 şəxs barəsində 12 iş üzrə ittiham hökmləri çıxarılmış, hazırlıq iclasları keçirilmiş 4 şəxs barəsində 3 iş qalıq qalmış, Ali Məhkəmənin hərbi və cinayət kollegiyaları tərəfindən 8 şəxs barəsində 7 cinayət işinin ilkin baxışı keçirilərək məhkəmə baxışına təyin edilmiş, apellyasiya instansiyası məhkəməsində baxılıb nəticə verilmiş 3 şəxs barəsində 3 iş üzrə hökm dəyişdirilmədən saxlanılmış, 2 şəxs barəsində 2 iş üzrə hökm dəyişdirilmiş, 3 şəxs barəsində 2 iş qalıq qalmış, məhkəmələrdə hökm və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında icraat üzrə 7 şəxs barəsində 7 işə baxılaraq nəticə verilmişdir. Dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin əməkdaşları görülmüş işlərlə kifayətlənməməli, öz fəaliyyətlərinin beynəlxalq standartlar səviyyəsində təşkil olunmasının əsas tələblərindən biri olan presedent hüququnun öyrənilməsi və təcrübədə nəzərə alınmasının təşkil edilməsi məqsədilə «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Konvensiyanın müddəalarının, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun prokurorluq orqanlarında nəzərə alınması haqqında» Qanunun və Azərbaycan Respublikası Baş Prokurorunun «Cinayət mühakimə icraatında ictimai və ictimai-xüsusi ittihamın müdafiəsi üzrə prokurorluğun fəaliyyətinin təşkilinin təkmilləşdirilməsi tədbirləri barədə» 27.01.2005-ci il tarixli 08/8-09/2s №-li əmrinin tələblərini rəhbər tutmalı, obyektiv və ədalətli məhkəmə qərarlarının çıxarılmasını təmin etməlidirlər.

Qeyd olunmuşdur ki, daxili işlər orqanlarında 11 cinayət işi istintaq olunmuş, əsassız cinayət işi başlama, təqsirləndirilən şəxs qismində cəlb etmə, tutma hallarına yol verilməmiş, cinayət işlərinin müstəntiqə, prokurora geri qaytarılması halı olmamış, törədilmiş və ya hazırlanan cinayətlər barədə 19 məlumat daxil olmuşdur ki, onlarda qanunvericiliyə uyğun həll edilmiş, cinayət törədərək istintaq və məhkəmə orqanlarından qaçıb gizlənmiş 6 şəxs barəsində hesabat dövründə 6 axtarış işi olmuşdur ki, onlardan 4-ü tutularaq istintaq və məhkəmə orqanlarına təhvil verilmiş, 2 şəxsin tutulmasının təmin olunması üçün aidiyyəti Naxçıvan şəhər prokurorluğu və digər səlahiyyətli orqanlar ciddi və təxirəsalınmaz tədbirlər görməlidirlər. Xəbərsiz itkin düşmə kimi 1 nəfər axtarışda olmuş və həmin şəxsin tapılması təmin edilmədiyindən axtarış işi qalıq qalmışdır.

Hesabat dövründə müvafiq prokurorlar tərəfindən 22 əməliyyat-qeydiyyat işi öyrənilmiş və baş vermiş nöqsan və qanun pozuntularının aradan qaldırılması üçün 2 təqdimat və 2 göstəriş verilmiş, tabe rayon (şəhər) prokurorları bundan sonra da «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Qanunun və Azərbaycan Respublikası Baş Prokurorunun «Əməliyyat-axtarış fəaliyyətinə prokuror nəzarətinin təşkili haqqında» 14.03.2001-ci il tarixli 02/54 №-li əmrinin tələblərinə dönmədən əməl etməlidirlər.

Muxtar Respublikada 8 yol nəqliyyat hadisəsi qeydə alınmışdır ki, nəticədə 15 nəfər ölmüş, 3 nəfər xəsarət almışdır. Hadisələrin 2-i Naxçıvan şəhəri, 1-i Şərur, 2-i Babək rayonu, 3-ü isə Muxtar Respublikanın magistral yollarında qeydə alınmışdır. Ötən ilin müvafiq dövrü ilə müqayisədə yol nəqliyyat hadisələrinin sayı 5, yol nəqliyyat hadisələri nəticəsində ölənlərin sayının 9 halda artması həmin rayon (şəhər) prokurorlarını ciddi düşündürməli, cinayətkarlığa qarşı mübarizə işinin ümumi mənafeyinə ziyan vuran amil kimi Muxtar Respublika ərazisində qeydə alınmış ölümlə nəticələnən yol-nəqliyyat hadisələrinin qarşısının tam alınmaması həmin hadisələrin profilaktikası istiqamətində tədbirlərin həyata keçirilməsinə ciddi zərurət yaradır.

Dövlət Gömrük Komitəsinə törədilmiş və ya hazırlanan cinayətlər barədə 4 məlumat daxil olmuş, həmin məlumatlar üzrə 4 cinayət işi istintaq olunmuş, 3 cinayət işi ittiham aktı ilə baxılması üçün məhkəmələrə göndərilmiş, 1 cinayət işinin isə icraatına xitam verilmiş, Ədliyyə, Fövqəladə Hallar və Vergilər nazirliklərində cinayət işləri istintaq edilməmiş, Milli Təhlükəsizlik Nazirliyində törədilmiş və ya hazırlanan cinayətlər barədə məlumat üzrə 5 cinayət işi istintaq edilərək aidiyyəti üzrə məhkəmələrə göndərilmişdir.

Muxtar Respublikanın Prokurorluq orqanlarında 8 beynəlxalq tapşırıq müvafiq qanunvericiliyə əsasən həll edilmiş, Muxtar Respublika Prokurorluğunun və tabe rayon (şəhər) prokurorluqlarının iş planlarına «Prokurorluq haqqında» Qanunda və

qüvvədə olan qanunvericilik aktlarında müəyyən edilmiş vəzifə və səlahiyyət hüdudlarından kənara çıxan, özündə keçmiş prokurorluğun funksiyalarına aid elementləri daşıyan tədbirlər və eləcə də prokurorluğun səlahiyyətlərinə aid olmayan məsələlər daxil edilməmiş, iş planlarında nəzərdə tutulmuş bütün məsələlər vaxtında və keyfiyyətli icra olunmuşdur. Iş planlarının icrası zamanı inzibati qanunvericiliyin tələblərinin pozulması aşkar edildiyindən müvafiq orqanlara 8 təqdimat verilmişdir.

Qeyd olunmuşdur ki, prokurorluq orqanlarına vətəndaşlardan 9 ərizə, şikayət və digər müraciət daxil olmuşdur. Onlardan 3-ü və ya 33,3%-i prokurorluqda həll edilmiş, 4-ü və ya 44,5%-i digər təşkilatlara göndərilmiş, 2 müraciət və ya 22,2 %-i isə istintaq olunan cinayət işinə əlavə edilmiş, həll edilən 3 müraciətdən 2-i və ya 66,7%-i vətəndaşların konstitusion hüquqları, 1-i və ya 33,3% digər məsələlərlə əlaqədar olmuşdur. Prokurorluqda həll edilən hər 3 müraciət üzrə digər qərarlar qəbul edilmiş, prokurorluğun elektron poçt ünvanına 1 müraciət daxil olmuşdur ki, həmin müraciət üzrə vətəndaşa izah verilmiş, 174 nəfər vətəndaş prokurorlar tərəfindən qəbul edilib dinlənilmiş, müraciətlərlə bağlı müvafiq izahlar verilməklə qanuni tədbirlər görülmüşdür. Müraciətlərə baxılması şöbəsi və tabe prokurorluqlar tərəfindən «Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında» Qanunun və Azərbaycan Respublikası Baş Prokurorunun «Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında» 01.11.2010-cu il tarixli 10/100 №-li əmrinin tələblərinə ciddi əməl edilməsi diqqət mərkəzində saxlanılmalıdır.

Qeyd olunmuşdur ki, hüquqi maarifləndirmə və profilaktika işi hesabat dövründə daha da gücləndirilmiş, kənd icra nümayəndələri və bələdiyyələrlə birlikdə ayrı-ayrı kəndlərdə, əmək kollektivlərində, təhsil müəssisələrində əhali ilə görüşlər keçirilmiş, hüquqi mövzularda mühazirələr oxunmuşdur. Prokurorluğun fəaliyyətində aşkarlıq və qanunvericiliyin izahı ilə bağlı 668 halda təbliğat işi aparılmışdır ki, onların 34-ü prokuror məruzələrinə, 464-ü məruzə, mühazirə, söhbət və digər şifahi təbliğat formalarına, 170-i isə kütləvi informasiya vasitələrindəki çıxışlara aiddir ki, bunun 110-u mətbuatda, 13-ü radioda, 47-i isə televiziyada olmuşdur. Naxçıvan Dövlət Televiziyasında «Qanunçuluq» hüquq verilişi mütəmadi hazırlanıb efirə verilmiş, Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən «Prokurorluq orqanlarının kütləvi informasiya vasitələri və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq məslələri haqqında» əmrin icra vəziyyəti ümumiləşdirilmiş və Naxçıvan Muxtar Respublikası Prokurorluğunun müsbət iş təcrübəsinin tabe qurumlarda yayılması 27 iyun 2014-cü il tarixli icmal məktubla məqsədəuyğun hesab edilmişdir. Hüquqi-təminat və informasiya şöbəsi, eləcə də prokurorluq əməkdaşları görülmüş işlərlə kifayətlənməməli, Baş Prokurorluq üzrə «Prokurorluq orqanlarının kütləvi informasiya vasitələri və qeyri hökumət təşkilatları ilə əməkdaşlıq məsələləri haqqında» 27.06.2005-ci il tarixli 09/62 №-li əmrin tələblərindən irəli gələn vəzifələrin icrası üçün qanunvericiliyin izahı məqsədilə bütün vasitələrdən geniş istifadə etməlidirlər.

Prokurorluq işçilərindən intizam məsuliyyətinə cəlb ediləni olmamış, Azərbaycan Respublikası Prezidentinin 19.06.2001-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş «Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında» Əsasnaməyə müvafiq olaraq 01.04.2014-cü ildə işə qəbulla əlaqədar 10 ştat vahidi üzrə müsabiqə elan edilmiş və sənədlərin qəbulu davam etdirilir.

Sonda əminliklə ifadə olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun kollektivi ümummilli lider Heydər Əliyevin ideyalarına sadiq qalaraq onun ən layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tövsiyyə və tapşırıqlarına müvafiq olaraq bundan sonra da digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqədə dövlətçiliyimizin maraqlarını, ölkəmizdə bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığın bütün təzahürlərinə və hər cür qanunsuzluqlara qarşı mübarizənin gücləndirilməsi, insan və vətəndaş huquq və azadlıqlarının etibarlı müdafiəsi üçün səlahiyyət hədləri daxilində bütün zəruri tədbirlərin görülməsini təmin edəcək, Azərbaycan Respublikasının daha da qüdrətlənməsi yolunda öz xidmətlərini göstərəcəkdir.

Sonra məruzə ətrafında çıxışlar olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun**
**Hüquqi təminat və informasiya şöbəsi**

# Tədris prosesi təkmilləşdirilir



«Prokurorluq orqanlarında qulluq keçmə haqqında» Qanunun 4.4-1-ci maddəsində göstərilmişdir: «Prokurorluğa ilk dəfə qulluğa qəbul olunmaq üçün müsabiqədən müvəffəqiyyətlə keçmiş namizədlər müvafiq icra hakimiyyəti orqanının tədris-elm müəssisəsində icbari təlimə cəlb edilirlər. Bu təlimi müvəffəqiyyətlə bitirmiş namizədlər prokurorluğa qulluğa qəbul edilirlər.» Azərbaycan Respublikası Prezidentinin 21 noyabr 2008-ci il tarixli 24 №-li Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının Nizamnaməsinə əsasən, Akademiya, həmçinin prokurorluq orqanları işçilərinin peşə hazırlığının artırılması üçün yaradılmış tədris-elm müəssisəsidir. «İlk dəfə ədliyyə, prokurorluq orqanlarına qulluğa qəbul edilən namizədlərin, habelə vəkilliyə namizədlərin peşə fəaliyyətinə buraxılması məqsədilə icbari təlimin keçirilməsi» Akademiyanın əsas vəzifələri sırasına daxil edilmişdir (13.1-ci bənd). Qanunvericiliyə müvafiq olaraq müsabiqədən keçmiş namizədlər Akademiyada icbari təlimə cəlb edilirlər. Namizədlər üçün Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə birlikdə imtahan keçirilir. İcbari təlimi müvəffəqiyyətlə bitirmiş namizədlərə peşə fəaliyyətinə buraxılma haqqında şəhadətnamə verilir. Peşə fəaliyyətinə buraxılması üçün icbari təlimin məzmunu və müddəti müvafiq olaraq Nazirlik, Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə razılaşdırmaqla dövlət təhsil standartları əsasında tərtib edilən təhsil proqramları ilə müəyyən edilir (18, 19-cu bəndlər). Bu məqsədlə Akademiyada «Prokurorluq fəaliyyəti üzrə peşəyə buraxılış fakültəsi» yaradılmışdır.

Azərbaycan Respublikasının prokurorluq orqanlarına ilk dəfə qulluğa axırıncı qəbulun müvafiq mərhələləri cari ilin avqust ayında yekunlaşmış və ixtisas imtahanlarını uğurla başa vurmuş 71 namizədin peşə fəaliyyətinə buraxılması məqsədilə 27.08.2014-cü il tarixdən 19.09.2014-cü il tarixədək Ədliyyə Akademiyasında icbari təlim keçirilmişdir. Bu təlim forma və məzmun etibarı ilə əvvəlkilərdən əsaslı surətdə fərqlənirdi. Belə ki, təlimin tədris proqramı yenidən işlənmiş, bir neçə mövzu istisna olmaqla köhnə proqramdakı mövzuların hamısı daha praktiki mövzularla əvəzlənərək dəyişilmiş, məşğələlər informasiya-kommunikasiya texnologiyaları tətbiq olunmaqla müasir tədris metodları ilə aparılmış, imtahan xüsusi kompüter proqramından istifadə etməklə keçirilmişdir.

Məlum olduğu kimi, cinayət təqibi fəaliyyəti zamanı cinayət prosesini həyata keçirən şəxs hüququn müxtəlif sahələrindəki biliklərini, cinayət, cinayət-prosessual və digər sahələr üzrə qanunvericilik normalarının tələblərini müvafiq prosessual sənədlərdə əks etdirir. Biliklər müxtəlif prosessual qərarlar, protokollar, vəsatətlər, təqdimatlar, rəylər, ittiham aktı və digər sənədlərdə məcmu şəkildə çıxış edirlər. Məsələn, təqsirləndirilən şəxs qismində cəlb etmə qəra-




digər maddələrinin, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 149.1-ci maddəsinin tələbləri ilə əlaqələndirilir. İzah edilir ki, bu cümlə nəyə görə məhz belə (və ya oxşar) məzmunlu olmalıdır və nə üçün başqa (məlumatı araşdırmağa əsas verməyən səbəbi göstərən) məzmunda ola bilməz. Cümlənin məzmununa dinləyicilər tərəfindən düzəlişlər edilməsi (sənədi səhv sənədə çevirmək və ya düz sənəd saxlamaq şərti ilə məzmununu dəyişmək) təklif oluna bilər. Tədris prosesi dinləyicilərə konkret fabula üzrə müstəqil qaydada prosessual sənəd tərtib etmək təklifi ilə davam edir. Sonra dinləyicilərdən birinin tərtib etdiyi sənəd interaktiv qaydada, dinləyicilərin hamısının iştirakı ilə təhlil olunur. Bununla dinləyicilərdə mövcud normativlərə uyğun savadlı, əsaslı prosessual sənəd hazırlama vərdişləri aşılanır.

rında cinayət, cinayət-prosessual, kriminalistika və hüququn digər sahələri, Azərbaycan dilinin yazı qaydaları, məntiq və s. sahələrə aid biliklər bir sənəddə «birləşmişlər». Fikrimizcə, prokuror və müstəntiq peşələrinə buraxılış təlimində mövzuların əsas anlayışları məhz bu sənədlər olmalıdır. Tədris prosesi bu sənədlərdən, onların konkret nümunələrinin dinləyicilərə təqdim edilməsindən (qrafik formatda kağızda və ya elektron formatda ekranlarda), necə deyərlər, onların «xarici görünüşü ilə tanışlıq»dan başlamalı, strukturlarının, daha sonra isə, məzmunlarının öyrənilməsi ilə davam etməlidir. Əsas yük sənədlərin «məzmunları»na düşür, çünki məhz sənədlərin məzmunu təhlil olunarkən cinayət, cinayət-prosessual və digər sahələr üzrə qanunvericilik normalarının, doktrinal biliklərin «nəzəriyyədən praktikaya keçid»i nümayiş etdirilir. Konkret sənəddə hər bir cümlənin nəzəri və «normativ» əsasları göstərilir, müxtəlif sahələrlə bağlı tələblərə bir sənəddə əməl olunması əyani surətdə izah edilir. Məsələn, «cinayət işinin başlanması haqqında» qərardakı «1990-cı ildə anadan olmuş X. 12.04.2014-cü il tarixdə yaşadıqları mənzilin yataq otağında qonşusu U. tərəfindən fiziki və psixi güc tətbiq etməklə zorlanması barədə rayon prokurorluğuna müraciət etmiş, bu əmələ görə U.-nun cinayət məsuliyyətinə cəlb olunmasını tələb etmişdir» cümləsinin məzmunu Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 204, 37.3, 37.5 və

Mövzular cinayət təqibinin bütün mərhələlərinə, əsas istintaq hərəkətlərinə, prosessual məcburiyyət tədbirlərinə dair hər bir prosessual sənədin maddi və prosessual normativlərini, metodiki və taktiki tələblərini vahid bir çərçivəyə «yerləşdirmə»yə bənzəyirdi. Hər bir mövzuda eyni zamanda Cinayət Məcəlləsinə, Cinayət-Prosessual Məcəlləsinə, kriminalistikaya, məntiqə və digər mənbələrə aid bilgilər cəmlənirdi. Hətta rayon (şəhər) prokurorluqlarında işin təşkili məsələləri, o cümlədən dəftərxananın işinin, arxivin, uçot və statistikanın təşkili məsələlərinə dair mövzular nəzərdə tutulurdu. Bu, mövzuların adlarından da görünürdü, məsələn, «Cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərar (maddi-hüquqi, prosessual-hüquqi əsaslar, tərtib olunma metodikası)», «Cinayət işinin başlanması haqqında qərar (maddi-hüquqi, prosessual-hüquqi əsaslar, tərtib olunma metodikası)», «Dindirmə və üzləşdirmə (faktiki və prosessual əsaslar, taktiki qaydalar, sənədləşmə)», «Tanınmaya təqdim etmə (faktiki və prosessual əsaslar, taktiki qaydalar, sənədləşmə)», «Təqsirləndirilən şəxs qismində cəlb etmə haqqında qərar (maddi-hüquqi, prosessual-hüquqi əsaslar, tərtib olunma və elan etmə metodikası)», «Cinayət işinin materialları ilə müvafiq proses iştirakçılarının tanış edilməsi (hüquqi əsaslar, qaydası, prosessual sənədləşmə)», «İttiham aktı (maddi-hüquqi, prosessual-hüquqi əsaslar, strukturu, tərtib olunma metodikası)», «Rayon, şəhər, ərazi hərbi prokurorluqlarında işin təşkili (uçot



jurnalları, statistikanın aparılması, hesabatlar, birdəfəlik və mütəmadi tərtib edilən arayışlar, məruzələr, rəylər, xidməti vəzifələr, nizam-intizam məsələləri)», «Cinayət haqqında məlumatların araşdırılması və cinayət barədə olmayan digər müraciətlərə baxılması (qeydiyyat, bölgü, prosessual qərarlar, vasitələr, icraatın aparılması və saxlanması qaydası)».

Təcrübə göstərdi ki, qeyd edilən üsul çox səmərəlidir. Lakin onu tətbiq etmək üçün müvafiq nəzəri bilik və peşə hazırlığına malik təcrübəli təlimçilər lazımdır. Ona görə də, prokurorluq işçiləri sırasından bu meyarlara cavab verən təlimçilərin seçilməsi prosesi prokurorluğun və Ədliyyə Akademiyasının aidiyyəti qurumlarının, vəzifəli şəxslərinin yaxından iştirakları ilə aparıldı. Təlimçilər dairəsi dəqiqləşdirildikdən sonra onların iştirakları ilə seminar keçirildi. Prezentasiya formatında hər bir mövzunun daha səmərəli təqdim edilməsi taktikası barədə seminar iştirakçılarına bilgilər verildi. Məşğələlərdə əyani vəsait kimi istifadə etmək üçün onlara Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin kitabxana fondundan arxivləşdirilmiş konkret cinayət işlərinin icraat materiallarına aid qrafik və elektron formatda prosessual sənədlər təqdim edildi, onların tədris prosesinə hazırlaşmalarına metodik yardım göstərildi.

Təlimin yekunu üzrə keçirilən imtahan prosesi tədris prosesinin məntiqi nəticəsidir. İmtahan təlimin xarakterinə uyğun olmalıdır. Tədris prosesində tətbiq olunan yenilikləri nəzərə alaraq imtahanın da tamamilə yeni formatda, kompüter texnikasının və proqramının tətbiqi ilə keçirmək qərara alınmış, bu qərara uyğun olaraq hazırlıq işləri çərçivəsində imtahan biletləri hazırlanmışdı. Hər bir bilet 3 sualdan, sualın biri məşğələlərin mövzularının adlarından, digəri bu mövzuların tətbiqi üzrə kazuslardan, üçüncüsü isə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin konkret işlər üzrə qərarların məzmunlarından hazırlanmış kazuslardan ibarət idi. Suallar kompüter proqramının verilənlər bazasında yaradılmış 3 müxtəlif qovluğa yerləşdirilmişdi. Proqram hər bir bileti bu qovluqlardakı suallardan təsadüfi seçim prinsipi əsasında formalaşdırmaq şərti ilə sazlanmışdı.

Şəffaflığı təmin etmək üçün müvafiq «yol xəritəsi» hazırlandı. Bu «xəritə»yə əsasən, dinləyici imtahan otağına daxil olaraq stolun üstündə səpələnmiş kağız parçalarından birini seçib açır, orada yazılmış kod rəqəmini görür və elan edir, kod operator tərəfindən proqrama daxil olunur, proqram həmin koda yuxarıda qeyd olunan prinsip əsasında «bilet» hazırlayır və onu çap edir. Bilet sualları çap olunmuş formada dinləyiciyə verilir və ona cavab vermək üçün hazırlaşmağa vaxt ayrılır. Cavab verməyə hazır olan dinləyici komissiya üzvlərinə yaxınlaşır, özünü təqdim edir, bir-bir sualları və onlara hazırladığı cavabları səsləndirir. Kompüterin ekranındakı görüntülər divardan asılmış böyük ekrana verilir; imtahan verən və komissiya proqram tərəfindən sualların məhz kağızda göstərilən koda uyğun seçilməsini müşahidə edir; dinləyicinin sualları cavablandırması prosesi əvvəldən sona kimi rəqəmsal videokamera vasitəsi ilə yaddaşa köçürülür.

Sentyabr ayının 18 və 19-da göstərilən qaydada uğurla imtahan keçirildi. İmtahanın nəticələri tədris prosesinin, xüsusilə onun imtahan hissəsinin səmərəli olmasını göstərdi. Toplanmış təcrübənin Ədliyyə Akademiyasının, Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin həyata keçirdiyi tədbirlərdə istifadə olunması və daha da inkişaf etdirilməsi qərara alınmışdır.

**Nazir Bayramov,**
*Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəisi*
*III dərəcəli dövlət ədliyyə müşaviri, Ədliyyə Akademiyasının «Prokurorluq fəaliyyəti üzrə peşəyə buraxılış fakültəsi»nin dekanı vəzifəsini icra edən*

# İbtidai istintaqın aparıldığı yerin müəyyən edilməsi meyarları qanun norması ilə dəqiq tənzimlənməlidir

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsində məhkəmə aidiyyəti, istintaq aidiyyəti və ərazi aidiyyətini tənzimləyən maddələr vardır. Belə ki, CPM-nin 7-ci fəsli cinayət mühakimə icraatını həyata keçirən məhkəmələrdən , həmin məhkəmələrin fəaliyyətindən və onların baxmağa səlahiyyətli olduqları cinayətlərin təsnifatından bəhs olunur. Məcəllənin 215-ci maddəsinin adı «Cinayət işləri üzrə ibtidai istintaqın aparılması» kimi qeyd olunmaqla bu norma bütünlüklə mahiyyət etibarı ilə ibtidai araşdırmanın növü kimi cinayət işləri üzrə ibtidai istintaqı aparmağa səlahiyyətli olan orqanlardan, həmin orqanlar tərəfindən istintaqı aparılan Azərbaycan Respublikası CM-nin maddələrində nəzərdə tutulmuş cinayətlərdən, cinayət törətməkdə təqsirli bilinən müəyyən kateqoriyadan olan şəxslər barəsində və müəyyən işlər üzrə istintaq aparmağa səlahiyyətli olan orqanların dairəsinin müəyyənliyindən, istintaq qruplarının və birgə istintaq qruplarının təşkili qaydalarından, işin aidiyyəti olan istintaq orqanından götürülərək digər istintaq orqanına verilməsini şərtləndirən hallardan bəhs olunur. Göründüyü kimi bu maddə prinsip etibarı ilə konkretliyi ilə fərqləndiyi üçün tətbiqi prosesində də demək olar ki, çətinlik yaranmır. Lakin praktikada şərti olaraq «ərazi aidiyyəti» kimi adlandırılan və ibtidai araşdırmanın aparıldığı yerdən bəhs olunan CPM-nin 216-cı maddəsində cinayət işləri üzrə məhkəməyədək icraatın həyata keçirilməsi zamanı ortaya çıxan və təcrübədə tez-tez rastlaşdığımız bir sıra çətinliklərin vaxtında aradan qaldırılmasını təmin etmək baxımından müəyyən boşluqlar mövcuddur.

Azərbaycan Respublikası CPM-nin 216.1-cı maddəsində göstərilir ki, ibtidai araşdırma cinayətin törədildiyi yer üzrə (inzibati ərazi vahidi üzrə) aparılır. İlk baxışdan göründüyü kimi maddə konkret olmaqla başa düşülən olduğu üçün tətbiqi prosesində də heç bir çətinliyin, yaxud da ziddiyyətin olmadığı təsəvvürü yaranır. Lakin praktiki işdə çalışan aidiyyəti şəxslər bilirlər ki, bu sahədə qanunvericiliklə tənzimlənməyən, bu səbəbdən də daha çox formalaşmış təcrübəyə istinad olunmaqla yoluna qoyulan bir sıra məsələlər var ki, bunların da mövcudluğu cinayət mühakimə icraatının vəzifələrinin yerinə yetirilməsinə, əsas prinsip və şərtlərinə əməl olunmasına maneçilik törədir, xüsusən də cinayət təqibi üzrə icraatın tezliyi prinsipinin pozulmasına səbəb olur. Bu hal daha çox müxtəlif ərazilərdə və müxtəlif vaxtlarda cinayətlər törətməkdə təqsirli bilinən şəxslərlə bağlı aparılan istintaq prosesində ortaya çıxır. Məsələn, hesab edək ki, şəxs müxtəlif rayonlarda ağırlıq nöqteyi-nəzərdən cinayətlərin təsnifatı üzrə eyni kateqoriyadan olan bir və ya bir neçə cinayət törədir. Bu halda həmin şəxs barəsində cinayət işinin istintaqının konkret olaraq hansı rayonda aparılmalı olması cinayət prosessual qanunvericiliyi ilə tənzimlənmir. Yaxud da başqa bir misal: hesab edək ki, şəxs rayonlardan birində ağır və ya xüsusilə ağır cinayət törədir, bir başqa rayonda (və ya bir neçə rayonda) isə az ağır, yaxud da böyük ictimai təhlükə törətməyən cinayət törədir. Bu halda da şəxs barəsində istintaqın hansı rayonda aparılmalı olmasına dair düzünə göstərişi özündə ehtiva edən norma bizim cinayət prosessual qanunvericilikdə əks olunmamışdır. Təcrübə belə formalaşıb ki, bu hallarda ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror, müstəntiq və ya təhqiqatçı bir qayda olaraq ərazi aidiyyəti məsələsinə münasibət bildirərkən öz əsaslandırılmış qərarlarında əsasən üç meyara istinad edirlər. Birincisi təqsirləndirilən şəxs tərəfindən törədilən cinayət əməllərindən sonuncusu hansı rayonda baş veribsə digər rayonda və ya rayonlarda həmin təqsirləndirilən şəxsə aid olan cinayət işləri və cinayət xarakterli materiallar sonuncu rayona göndərilir. İkincisi cinayət törətmiş şəxs hansı rayonda cinayət başında yaxalanıbsa, yaxud da barəsində başlanmış cinayət işi üzrə hansı rayonun istintaq orqanı tərəfindən həbs olunubsa, digər inzibati ərazi vahidlərində həmin şəxsə aid olan cinayət işləri və digər materiallar şəxsin həbs olunduğu rayona göndərilir. Və ən nəhayət də üçüncü halda təqsirləndirilən şəxsə aid edilən cinayət əməllərinin ağırlıq dərəcəsi əsas götürülür. Yəni cinayətlərin təsnifatı üzrə daha ağır və ya xüsusilə ağır cinayət hansı ərazidə törədilibsə, başqa ərazi vahidlərində təqsirləndirilən şəxs barəsində başlanmış təsnifat üzrə digər kateqoriyadan olan işlər ağırlıq dərəcəsinə görə üstün olan həmin işə birləşdirilməsi üçün göndərilir. Onu da qeyd etmək lazımdır ki, bütün sadalanan bu hallarda qərarı qəbul edən şəxslər Azərbaycan Respublikası CPM-nin 216-cı maddəsinə və xüsusən də 74-cü maddəsinə istinad edirlər. Lakin qeyd etmək lazımdır ki, 216-cı maddədə yuxarıda göstərilən hallardan hər hansı birini birbaşa tənzimləyən müddəa yoxdur. Yalnız 216.2-ci maddədə qanunla müəyyən olunmuş ümumi qaydadan fərqli 2 istisna hal nəzərdə tutulmuşdur ki, bu hallarda da istintaq aidiyyətinin ərazi üzrə aparılmasının təyin

olunması səlahiyyəti ancaq Azərbaycan Respublikası Baş Prokuroruna, Naxçıvan Muxtar Respublikası ərazisində isə Naxçıvan Muxtar Respublikası prokuroruna aiddir. O, ki qaldı CPM-nin 74-cü maddəsinə-müəyyən mənada razılaşmaq olar ki, bu maddə oxşar münasibətləri nizama salmaq nöqteyi-nəzərdən məqbul sayıla bilər. Lakin adından da göründüyü kimi bu maddə ərazi üzrə məhkəmə aidiyyəti məsələlərini tənzimləməklə uzanan və ya davam edən cinayətlərin törədilməsi ilə bağlı cinayət işlərinin məhkəmə aidiyyətinin müəyyənləşdirilməsinin şərtlərini, cinayətin törədilmə yerinin müəyyən edilməsi çətinlik törətdiyi halda işə məhkəməyədək icraatın başa çatdığı yer üzrə fəaliyyət göstərən məhkəmə tərəfindən baxılmasının mümkünlüyünü, ağırlıq dərəcəsinə görə fərqli olan və bir icraatda birləşdirilmiş cinayət işlərinə ağır cinayətlər məhkəməsində baxılması, habelə eyni səviyyəli birinci instansiya məhkəmələrinə aid olan iki və ya daha çox cinayətlər üzrə işə həmin cinayət işinin məhkəməyədək icraatının başa çatdığı yer üzrə fəaliyyət göstərən məhkəmə tərəfindən baxılması qaydalarını nizama salır.

Cinayət işlərinin və təhqiqat materiallarının ərazi aidiyyəti üzrə göndərilməsi haqqında qərar çıxaran prokuror, müstəntiq və ya təhqiqatçı bu maddənin tələblərini ona görə rəhbər tuturlar ki, qeyd etdiyimiz kimi məhkəməyədək icraat zamanı bu qaydaları nizama salan norma cinayət prosessual məcəlləsində yoxdur, 216-cı maddəsi isə natamamdır.

Müqayisə üçün qeyd etmək lazımdır ki, Rusiya Federasiyası cinayət prosessual qanunvericiliyində məhkəməyə qədər icraat zamanı ibtidai araşdırmanın cinayətin törədildiyi yer üzrə aparılmasını nəzərdə tutan norma təxminən bizim məcəllənin 74-cü maddəsində göstərilənlərlə oxşarlıq təşkil edir. Belə ki, RF CPM-nin 152-ci maddəsinin 2-ci bəndində göstərilir ki, cinayət bir yerdə başlanıb, lakin digər ərazidə başa çatıbsa cinayət işi cinayətin başa çatdığı yer üzrə aparılır. Həmçinin 152-ci maddənin 3-cü bəndində göstərilir ki; əgər cinayət müxtəlif yerlərdə baş veribsə, onda istintaq orqanının yuxarı rəhbərinin qərarı ilə cinayət işi daha çox cinayətin törədildiyi, yaxud da daha ağıq cinayətin törədildiyi yer üzrə aparılır. İstər Azərbaycan Respublikası CPM-nin 74.2.1 və 74.2.2-ci maddələri olsun, istərsə də RF CPM-nin 152-ci maddənin 2-ci bəndi bu normalar mahiyyətcə eyni olub uzanan və davam edən cinayətlər üzrə cinayət işlərinin aidiyyəti qaydalarını nizamlayır, fərq ondadır ki, bizim CPM-nin qeyd olunan 74.2.1 və 74.2.2-ci maddələri məhkəmə aidiyyətindən, RF CPM-nin 152-ci maddəsi isə məhkəməyə qədərki icraatın – daha doğrusu ibtidai istintaqın aidiyyətindən bəhs edir. Oxşar vəziyyətlərdə tətbiqi məqbul sayılsa belə xaraktercə özündə heç bir uzanan və ya davam edən cinayətin əlamətlərini əks etdirməyən, ayrı-ayrı vaxtlarda və ayrı-ayrı yerlərdə konkret şəxs tərəfindən, yaxud da həmin şəxsin iştirakı ilə bir qrup şəxs tərəfindən törədilmiş cinayət işlərinin bir icraatda birləşdirilməsi üçün ərazi aidiyyəti üzrə göndərilməsi haqda qərar qəbul edən prokuror, müstəntiq və təhqiqatçının Azərbaycan Respublikası CPM-nin 74-cü maddəsinə istinad etməsi absurddur. Cinayət hüququndan bilirik ki, uzanan və davam edən cinayətlər dedikdə, hansı cinayətlər başa düşülür. Yuxarıda qeyd olunan misalların hər hansı birinin davam edən və ya uzanan cinayətlərə heç bir aidiyyəti yoxdur.

Təqsirləndirilən şəxsə aid edilən və onun iştirakı ilə müxtəlif ərazilərdə törədilən və cinayətlərin təsnifatı üzrə fərqli kateqoriyadan olan işlərin ağırlıq dərəcəsinə görə üstün olan işə birləşdirilməsi üçün göndərilməsi mahiyyət etibarı ilə ümumən əsaslı olsa da bu əsasların məhkəməyə qədərki mərhələdə həllini nəzərdə tutan norma cinayət prosessual qanunvericiliyində yoxdur.

Yuxarıda nümunə kimi qeyd olunan RF CPM-nin 152-ci maddənin 3-cü bəndində göstərilən müxtəlif yerlərdə törədilmiş cinayətlərlə bağlı başlanmış cinayət işlərinin istintaq orqanının yuxarı rəhbərinin qərarı ilə daha çox cinayətin törədildiyi, yaxud da daha ağır cinayətin törədildiyi yer üzrə aparılması üçün göndərilməsi təcrübəsi fikrimizcə problemin həlli baxımından ən optimal variantdır. Bu məsələ ilə bağlı bizdə formalaşmış təcrübə isə ondan ibarətdir ki, yuxarı prokurorluq (məsələn Bakı şəhər prokurorluğu) ərazi prokurorluğundan qərarla aidiyyəti üzrə göndərilməsi üçün daxil olmuş cinayət işini müvafiq olaraq özünün qərarı ilə yox, yalnız müşayiət edici məktubu ilə başqa ərazi prokurorluğuna göndərir. Bu isə lüzumsuz mübahisələrin əmələ gəlməsinə və ən başlıcası da yuxarıda qeyd edildiyi kimi cinayət təqibi üzrə icraatın tezliyi prinsipinin pozulmasına səbəb olur.

Bütün qeyd olunanları nəzərə alaraq qanunvericilikdə mövcud olan qeyri müəyyənliyin və natamamlığın aradan qaldırılması üçün Azərbaycan Respublikası CPM-nin 216-cı maddəsinə müəyyən dəyişikliklərin edilməsi fikrimizcə məsələnin müsbət həlli baxımından daha məqsədəmüvafiq ola bilər.

**Fazil Həsənəliyev,**
*Bakı şəhər prokurorunun müavini,*
*baş ədliyyə müşaviri*

# İbtidai istintaqın prosessual aidiyyət məsələlərinin pozulmasının hüquqi nəticələri barədə

*(Bakı şəhər prokurorunun müavini, baş ədliyyə müşaviri Fazil Həsənəliyevin «İbtidai istintaqın aparıldığı yerin müəyyən edilməsi meyarları qanun norması ilə dəqiq tənzimlənməlidir» adlı məqaləsi ilə əlaqədar bəzi mülahizələr)*

Məqalədə müəllif cinayət prosesinin aktual məsələlərindən birinə toxunmuşdur. «Azərbaycan Respublikası CPM-nin 216-cı maddəsinə müəyyən əlavələrin edilməsi» təklifinin ibtidai araşdırma və ona prokurorun prosessual rəhbərliyinin praktiki ehtiyaclarından irəli gəldiyi inandırıcı görünür. Bu ehtiyacların kökündə cinayət prosesinin fundamental prinsiplərindən biri – «cinayət təqibinin tezliyi» prinsipinin durması məqalədə xüsusi qeyd edilmişdir.

Fikrimizcə, məsələyə digər prizmalardan da baxmaq onun həm nəzəri, həm də praktiki cəhətlərini daha aydın görmək üçün səmərəli ola bilər.

Cinayət təqibinin tezliyinin təmin olunması iki istiqamətli məqsəd daşıyır. Əvvəla, dövlət cinayət qanunu ilə müdafiəsi altına aldığı ictimai münasibətlərin daha səmərəli mühafizə olunmasında maraqlıdır. «Səmərəlilik» – özündə hədəflərə çatmanın müddət parametrlərini də ehtiva edir. Təsadüfi deyildir ki, «cinayətləri *tezliklə* açmaq, cinayət təqibi ilə bağlı bütün halları hərtərəfli, tam və obyektiv araşdırmaq» cinayət mühakimə icraatının vəzifələri sırasına (Maddə 8. Cinayət mühakimə icraatının vəzifələri) daxil edilmişdir.[1] İkinci məqsəd Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra – CPM) 48-ci maddəsində (Maddə 48. Cinayət təqibi üzrə icraatın tezliyinin təmin olunması) qeyd edilmişdir: «48.1. Cinayət təqibi üzrə icraat təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə tərəfindən bu Məcəllədə nəzərdə tutulmuş müddətlərdə elə başlanmalı və qurtarmalıdır ki: (...) 48.1.2. şəxslər onlara ittiham elan olunmasını, işlərinə baxılmasını və pozulmuş hüquqlarının bərpasını həddən artıq uzun müddət gözləməsinlər», yəni cinayət prosesində fundamental insan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi effektiv həyata keçirilsin.

Maraqlıdır ki, sonuncu məqsəd daha əhəmiyyətli hesab edilir, çünki bu vəzifə dövlətin həm də beynəlxalq öhdəliyidir. «Cinayətlərin açılması» vəzifəsinin icrasına görə dövlət yalnız hüdudları qeyri-müəyyən olan mənəvi məsuliyyətdən başqa bir məsuliyyət daşımır, heç kimə kompensasiya ödəmir. Sonuncu öhdəliyə görə isə, dövlət mənəvi məsuliyyətlə yanaşı konkret hüquqi məsuliyyət daşıyır, pozuntunu aradan qaldırır, hüquq və azadlığı pozulmuş şəxsə kompensasiya ödəyir.

İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının (bundan sonra – Avropa Konvensiyası) 1 və 13-cü maddələrinə əsasən, konvensiyaya üzv dövlətlər «insan hüquqlarına hörmət olunması» və pozulmuş hüquqların «dövlət orqanları qarşısında səmərəli hüquqi müdafiə vasitələri» ilə təmin edilməsi öhdəlikləri daşıyırlar.[2] Bu öhdəliklərin yerinə yetirilməsi üçün üzv dövlətlər məhkəmə sistemlərini müvafiq səviyyədə təşkil etməlidirlər. İnsan Hüquqları üzrə Avropa Məhkəməsi (bundan sonra – Avropa Məhkəməsi) Skordino İtaliyaya qarşı məhkəmə işi üzrə (Ərizə Nº 36813/97) 29 mart 2006-cı il tarixli qərarında vurğulamışdır ki, «183. Sözün əsil mənasında məsələnin ən yaxşı həlli, bir çox sahələrdə olduğu kimi pozuntunun qarşısını almaqdadır. Məhkəmə xatırladır ki, o, bir çox hallarda bəyan edib ki, 6-cı maddənin 1-ci bəndi iştirakçı dövlətlərin üzərinə öz məhkəmə sistemlərini elə təşkil etmək vəzifəsini qoyur ki, onların məhkəmələri həmin bəndin hər bir tələbinə, o cümlədən işlərə ağlabatan müddətdə baxılması öhdəliyinə cavab versin (digər qərarlar arasında bax: Sübmann Almaniyaya qarşı, 16 sentyabr

---

1 *Bax, Cinayət-Prosessual Məcəlləsi:* «Maddə 8. Cinayət mühakimə icraatının vəzifələri. 8.0. Cinayət mühakimə icraatının vəzifələri aşağıdakılardan ibarətdir: (...) 8.0.3. cinayətləri tezliklə açmaq, cinayət təqibi ilə bağlı bütün halları hərtərəfli, tam və obyektiv araşdırmaq;»

2 *Bax, İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyası:* «Maddə 1. İnsan hüquqlarına hörmət olunması öhdəliyi. Razılığa gələn Yüksək Tərəflər onların yurisdiksiyasında olan hər kəs üçün bu Konvensiyanın I bölməsində müəyyən olunmuş hüquq və azadlıqları təmin edirlər.»; «Maddə 13. Səmərəli hüquqi müdafiə vasitələri hüququ. Bu Konvensiyada təsbit olunmuş hüquq və azadlıqları pozulan hər kəs, hətta bu pozulma rəsmi fəaliyyət göstərən şəxslər tərəfindən törədildikdə belə, dövlət orqanları qarşısında səmərəli hüquqi müdafiə vasitələrinə malikdir.»

1996, Qərarlar toplusu, 1996-IV, s. 1174, b. 55; və Bottatsinin işi üzrə yuxarıda adı çəkilən qərar, b. 22).»

Məqalədə qaldırılmış məsələ ilə bağlı diqqət yetirilməli digər məqam prosessual aidiyyət qaydalarının qanunlarla tənzimlənməməsinin «hüquqi müəyyənlik» prinsipinə uyğun olmayan, «ədalətli məhkəmə araşdırması» hüququnu pozan hal kimi nəzərdən keçirilməsi zərurətidir. Bununla bağlı Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi aydın və dəqiq mövqe ilə çıxış etmişdir. «Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 512.2 və 519.0.4-cü maddələrinin şərh edilməsinə dair» Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun 10 fevral 2012-ci il tarixli qərarında yazılmışdır: «demokratik hüquqi dövlətdə cinayət işlərinin məhkəmə aidiyyəti cinayət mühakimə icraatında şəxsin hüquqlarının və qanuni maraqlarının prosessual təminatlarına zəmanət verən institutlardan biri olduğu üçün məhkəmələrin aidiyyət meyarları cinayət-prosessual qanunvericiliyində dəqiq müəyyən edilməlidir, əks təqdirdə məhkəmə, tərəflər və prosesin digər iştirakçıları qarşısında bu və ya digər işin hansı məhkəmədə baxılması məsələsində qeyri-müəyyənlik yaranmış olar. Belə qeyri-müəyyənlik işə baxılmasını ləngidə, bununla da şəxsin işinə məhkəmə tərəfindən ağlabatan müddətdə baxılması hüququnu poza bilər. İşlərin aidiyyət qaydalarına riayət edilməməsi isə işlərə səlahiyyətli məhkəmə tərəfindən baxılması tələbini, eləcə də məhkəmə müdafiəsi hüququnu pozmuş olar. Bu baxımdan Konstitusiya Məhkəməsinin Plenumu qeyd etməyi zəruri hesab edir ki, qanunverici cinayət prosesinin həyata keçirilməsi üçün məhkəmə aidiyyətinin elə prosessual qaydalarını dəqiq müəyyən etməlidir ki, onlar prosessual səmərəlilik və qənaət tələblərinə cavab versin. Yuxarıda təhlil edilən məsələlərin məhkumun yaşayış yeri üzrə məhkəmənin səlahiyyətinə aid edilməsi prosessual qənaət prinsipinə cavab verməklə məhkəmə icraatının rahat və səmərəli olmasına, yəni yüksək nəticələrin minimum vasitələrlə əldə edilməsinə xidmət etmiş olar.»

Bu sözlər tamlıqla ibtidai istintaq mərhələsinə də aid edilməlidir. Nəzərə alınmalıdır ki, müasir beynəlxalq standartlara görə, cinayət mühakimə icraatı vahid bir prosesdir, lakin dövlətlərin hüquq sistemlərinin özəllikləri bəzi hallarda bu prosesi «məhkəməyədək» və «məhkəmə» mərhələlərinə ayırmışdır. Klassik çəkişmə xarakterli cinayət prosesində təqibin məhkəməyədək mərhələsi olmur, «axtarış» (inkvizisiya) tiplilərdə isə, – olur. Hətta sonuncu tipli sistemlərdə də cinayət prosesi iştirakçıları üçün ibtidai və məhkəmə mərhələləri «bütöv proses» təsəvvürü yaradır. Onların hüquq və vəzifələrinin məzmunu hər iki mərhələdə mahiyyətcə eynidir. Cinayət təqibinə məruz qalan şəxslərin hüquqlarının müvəqqəti məhdudlaşdırılması həm ibtidai istintaq, həm də məhkəmə baxışı zamanı baş verir. Məsələn, həbs qətimkan tədbiri hər iki mərhələdə tətbiq edilir.

Bundan başqa, nəzərə alınmalıdır ki, təhqiqatçı, müstəntiq və prokuror bəzi hallarda prosessual statusları üçün xarakterik olmayan «işlərin həlli» funksiyasını həyata keçirə bilirlər. «Cinayət təqibi» funksiyasından fərqli olaraq qeyd edilən funksiya məhkəmələrə aiddir. Azərbaycanın cinayət-prosessual qanunvericiliyi göstərilən subyektlərə cinayət təqibini bəraət verməyən əsaslara görə xitam etmək səlahiyyəti vermişdir. CPM-nin 40-cı maddəsində (Maddə 40. Cinayət təqibinin həyata keçirilməməsinə imkan verən hallar) müəyyən edilmişdir: «40.1. Cinayət qanunu ilə nəzərdə tutulmuş cinayət məsuliyyətindən və cəzadan azad etmə hallarının mövcudluğu cinayət təqibinin həyata keçirilməməsinə imkan verir. 40.2. Şəxsin cinayət məsuliyyətindən azad edilməsi üçün Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 72 - 74-cü maddələrində nəzərdə tutulmuş aşağıdakı hallarda təhqiqatçının və müstəntiqin prokurorla razılaşdırılmış qərarına əsasən cinayət təqibi başlanılmaya və ya ona xitam verilə bilər: 40.2.1. səmimi peşmanlıq çəkdikdə; 40.2.2. zərər çəkmiş şəxslə barışdıqda; 40.2.3. şərait dəyişdikdə». Göründüyü kimi, qeyd edilən şəxslər cinayət-hüquqi münasibətlərin subyektləri arasından olan mübahisəyə «nöqtə qoya», onu qəti «həll edə» bilmək imkanına malikdirlər.

Qeyd edilənlər göstərir ki, fundamental insan hüquqlarının cinayət prosesində müdafiəsinin prinsip və standartları şəxsin barəsində cinayət təqibi həyata keçirilən, ona qarşı ittiham irəli sürülən ilk anlardan «işə düşməli», birinci instansiya məhkəməsinin hökmünün və digər yekun qərarının çıxarılmasına qədər davam etməli, bu prosesin «məhkəməyədək» və «məhkəmə» mərhələlərinə bölünməsi onların mahiyyətlərinə və effektivliklərinə təsir etməməlidir. Bu, məhkəmə aidiyyəti tələblərini istintaq aidiyyətinə də şamil edilməsinə əsas verir.

Məqalədə ibtidai istintaqın ərazi aidiyyəti həll edilərkən müstəntiqlər tərəfindən CPM-nin 74-cü maddəsinə istinad etməyi bir o qədər də dürüst sayılmır. Birincisi ona görə ki, maddə ibtidai istintaq deyil, məhkəmələrin fəaliyyətinə aid məsələni – «ərazi üzrə məhkəmə aidiyyəti» məsələsini həll edir, ikincisi, praktikada daha çox müraciət olunan qayda, əslində «uzanan və davam edən cinayətlər üzrə cinayət işlərinin aidiyyəti qaydalarını nizamlayır». Haqlı mövqedir, lakin bununla yanaşı daim yadda saxlamaq lazımdır

ki, ibtidai istintaqın qanunla müəyyən edilmiş ərazidə aparılması tələbi «ədalət mühakiməsinin qanunla müəyyən edilmiş məhkəmə tərəfindən həyata keçirilməsi» hüququnun elementidir.

Azərbaycan Respublikası Konstitusiyasının 62-ci maddəsində «məhkəmə aidiyyətinin dəyişdirilməsinə yol verilməməsi» hüququ təsbit edilmişdir. Maddədə göstərilmişdir ki, «Hər kəsin onun işinə qanunla müəyyən edilmiş məhkəmədə baxılması hüququ vardır. Şəxsin razılığı olmadan onun işinə başqa məhkəmədə baxılmasına yol verilmir».

Avropa Konvensiyasının 6.1-ci maddəsi hər kəsə onun işinə «qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə» tərəfindən baxılması hüququnu təsbit etmişdir. «Qanun əsasında yaradılmış ...məhkəmə» ifadəsi məhkəmənin müvafiq yurisdiksiyada fəaliyyət göstərməsi əlamətini də əhatə edir. Yəni, CPM-nin 74.1-ci maddəsinin tələblərinə əməl olunmadan işə baxılması Avropa Konvensiyası prizmasında 6.1-ci maddəsinin məhkəmənin «qanun əsasında yaradılmış məhkəmə» tələbinə cavab vermədiyi kimi görünür və təbii ki, qeyd edilən maddənin pozuntusu hesab edilir.

Bəs ibtidai istintaq orqanı barədə də bu standartı tətbiq etmək olarmı? Milli (və ya beynəlxalq) qanunvericilikdə «qanun əsasında yaradılmış istintaq orqanı» tələbi varmı? Formal olaraq yoxdur, məsələn, nə CPM-də, nə Avropa Konvensiyasında, nə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent mövqelərində belə standarta rast gəlinmir. Bu o deməkdirmi ki, qanun ibtidai istintaqın istənilən istintaq orqanı tərəfindən aparılmasını mümkün sayır? Məqalədə bu məsələlər prosesin uzanmasına səbəb olan «idarədaxili» prosedur qaydaların pozulması, texniki çətinlik və s. zəminində nəzərdən keçirilir. Bəs məsələnin hüquqi tərəfinin məzmunu necədir?

Cinayət-prosessual qanunvericiliyində CPM-nin 214.1-ci maddəsinin tələblərinin pozulmasının prosessual-hüquqi nəticələri müəyyənləşdirilməmişdir. CPM-nin 9.2-ci maddəsi ümumi qaydada müəyyən etmişdir ki, «bu Məcəllə ilə müəyyən edilmiş hallarda cinayət prosesi prinsiplərinin və ya şərtlərinin pozulması cinayət təqibi üzrə başa çatmış icraatın etibarsız sayılmasına, onun gedişində qəbul edilmiş qərarların ləğvinə, yaxud toplanmış materialların sübutedici qüvvəsinin olmaması qənaətinə gəlməyə səbəb ola bilər». «Prinsip» və ya «şərt» bu Məcəllənin II fəslində sadalanır. Onların sırasında 29-cu maddədə nəzərdə tutulmuş «məhkəmə aidiyyətinə əməl olunması» prinsipi vardır. Ona əsasən, «Heç kəs onun işinə aidiyyəti qanunla müəyyən edilmiş məhkəmədə baxılması hüququndan məhrum oluna bilməz. Şəxsin razılığı olmadan onun işinə başqa məhkəmədə baxılmasına yol verilmir. Bu Məcəllədə nəzərdə tutulmuş məhkəmə aidiyyətinin dəyişdirilməsi və ya işin qanuni hakimin icraatından əsassız götürülməsi qadağandır». «Prosessual aidiyyətlə bağlı başqa prinsip və şərt nəzərdə tutulmamışdır, o cümlədən «istintaq aidiyyətinə əməl olunma» adlı nə prinsip, nə də şərt CPM-də təsbit olunmamışdır. Deməli, istintaq aidiyyətinin pozulması icraatın «etibarsızlığı», «qərarların ləğvi» və s. üçün kafi əsas deyil.

Təcrübədə məhkəmələr «istintaq aidiyyəti qaydalarının pozulması»nı ibtidai istintaqın etiraz edilməli müstəntiq tərəfindən aparılması (CPM-nin 113.1 + 109.1.2-ci maddələri) kimi dəyərləndirir və bunu kobud pozuntu (CPM-nin 303.3.3-cü maddəsi) hesab edərək hazırlıq iclasının qərarı ilə işi prokurora qaytarırlar. Məsələn, K.T.T. oğlunun və Q. R. A. oğlunun CM-nin 221.3-cü maddəsi ilə təqsirləndirilmələrinə dair 130026052 saylı cinayət işi üzrə Səbail rayon məhkəməsinin hazırlıq iclasının 30.01.2014-cü il tarixli qərarında işin prokurora qaytarılması əsası kimi göstərilmişdir ki, *«Səbail rayon prokurorluğunun böyük müstəntiqi Ə. A. S. oğlu AR CM-nin 221.3-cü maddəsi ilə ayrıca icraata ayrılmış 130026052 nömrəli cinayət işi üzrə ibtidai istintaq aparmaq üçün lazımi səlahiyyətlərə malik olmamışdır»,* ona görə də müstəntiqə *«etiraz və ya onun özü-özünə etiraz etməsi üçün əsaslar yaranmışdır».* Məhkəmənin qənaətinə görə, *«hazırkı cinayət işi üzrə məhkəməyədək icraatın etiraz edilməli və ya özü özünə etiraz etməli olan şəxs tərəfindən aparılması halı aşkar edildiyindən cinayət işinin baxılmasına xitam verilməli və iş ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılmalıdır».* Qərarın məzmununun məntiqindən belə çıxır ki, müstəntiq qeyd edilən işi «A. Z. A. oğlu barəsində AR CM-nin 120.2.2-ci maddəsi[3] ilə» olan işindən CM-nin 221.3-cü maddəsi[4] ilə qeyd edilən şəxslər barəsində ayırdığı 21.08.2013-cü il tarixdən rayon Polis İdarəsinin müstəntiqinə göndərməli idi.

---

3 *Bax, Cinayət Məcəlləsi:* «Maddə 120. Qəsdən adam öldürmə. (...) 120.2. Qəsdən: (...) 120.2.2. xuliqanlıq niyyəti ilə adam öldürmə;».

4 *Bax, Cinayət Məcəlləsi:* «Maddə 120. Qəsdən adam öldürmə. (...) 120.2. Qəsdən: (...) 120.2.2. xuliqanlıq niyyəti ilə adam öldürmə;».

Məhkəmənin qərarı ilə mübahisə etmək olar. Lakin görünən odur ki, məhkəmələr istintaq aidiyyətinin pozulması halı ilə «barışmaq istəmirlər». Praktika göstərir ki, ərazi istintaq aidiyyətinin pozulması yalnız istintaq müddətinin əsassız olaraq aidiyyət mübahisələri hesabına uzanması deyil, həm də cinayət təqibinin sonrakı hərəkətini mümkünsüz edən, milli məhkəmələr tərəfindən «kobud» hesab edilən pozuntu kimi qiymətləndirilən haldır.

Qeyd edilən işi «ərazi aidiyyəti» hallarına da nümunə kimi şamil etmək olar, çünki predmet və ərazi aidiyyətləri daha ümumi olan «istintaq aidiyyəti» anlayışının tərkib elementləridir. Məhkəmələr predmet aidiyyəti qaydalarının pozulması kimi ərazi aidiyyəti qaydalarının pozulması hallarını da «ibtidai istintaqın müvafiq səlahiyyətə malik olmayan müstəntiq tərəfindən aparılması» kimi qiymətləndirə bilər. Bunun qarşısını almaq üçün isə, cinayətin törədildiyi ərazini dəqiq müəyyən etmək, yurisdiksiya uyğundursa, ibtidai istintaqı davam etdirmək, uyğun deyildirsə - işi aidiyyəti üzrə göndərmək lazımdır.

Diqqət yetirilməli növbəti məqam prosessual aidiyyət məsələlərinin qanunla tənzimlənməməsinə «boşluq» kimi baxılmasıdır. Cinayət prosesində heç də bütün məsələlər qanun normaları ilə həll edilmir. Hesablama metodikası müəyyən edilsə və hesablama aparılsa, çox güman ki, qanunla tənzimlənən cinayət-mühakimə prosedurалarının azlıq təşkil etdiyi aşkar olunar. Əhəmiyyətindən asılı olmayaraq bir çox məsələlər digər mənbələrlə, məsələn, hüquq doktrinası ilə həll edilir. Əyani bir nümunə: cinayət prosesində ən çox istifadə olunan anlayışlardan biri «cinayət tərkibi»dir. Cinayət məsuliyyətinin əsası olması[5] kimi əhəmiyyət daşımasına baxmayaraq qanunda onun tərifi verilməmişdir. Buna baxmayaraq, cinayət prosesini həyata keçirən hər bir subyekt «cinayət tərkibi»nin elementlərini (cəhətlərini), onların əlamətlərini və s. dəqiq bilir və tətbiq edir. CPM-nin 216.1-ci maddəsinin məzmunu belədir: «İbtidai araşdırma cinayətin törədildiyi yer üzrə (inzibati ərazi vahidi üzrə) aparılır». «Cinayətin törədildiyi yer»in müəyyən edilməsi meyarları doktrinal qaydada müəyyən edilmiş və məqalədə onların 3-ü qeyd edilmişdir. Qanunvericiliyin inkişafı zəminində hüquq doktrinaları (eləcə də digər mənbələr) əsasında müvafiq qanunvericilik normaları hazırlanıb qəbul edilir. Hüquq doktrinasının çevikliyi və rasionallığı ona bu vəzifənin öhdəsindən bacarıqla gəlməyə imkan verir. Bu baxımdan artıq təcrübədə sınaqdan keçmiş qaydaların qanunla «normativləşdirilməsi»nin vaxtının yetişməsi barədə müəllifin fikri ilə razılaşmaq olar. Lakin buna qədər təcrübə doktrinanın müddəalarına uyğun davam etməlidir ki, cinayət təqibinin və insan hüquqlarının müdafiəsinin səmərəliliyi üçün zəmin yaranmış olsun.

Nəhayət, işlərin aidiyyəti üzrə göndərilməsi təcrübəsi barədə. Məqalədə göstərilmişdir ki, «yuxarı prokurorluq (məsələn, Bakı şəhər prokurorluğu) ərazi prokurorluğundan qərarla aidiyyəti üzrə göndərilməsi üçün daxil olmuş cinayət işini müvafiq olaraq özünün qərarı ilə yox, yalnız müşayiət edici məktubu ilə başqa ərazi prokurorluğuna göndərir». Təbii ki, konkret qərarın əsaslandırıcı hissəsinin məzmunu ilə tanış olmadan bu prosedura barədə fikir söyləmək çətindir. Lakin açıq görünən odur ki, bir ərazidən digər əraziyə iş göndərilməsi mexanizmində yuxarı prokurora yer olmamalıdır. Bu qaydanın prosessual-hüquqi əsası yoxdur. Konstitusiyanın 125-ci maddəsində (Maddə 125. Məhkəmə hakimiyyətinin həyata keçirilməsi) vurğulanmışdır ki, «Məhkəmə hakimiyyəti Konstitusiya, mülki və cinayət məhkəmə icraatı vasitəsi ilə və qanunla nəzərdə tutulmuş digər vasitələr ilə həyata keçirilir». Cinayət-mühakimə icraatı ilə işlərin aidiyyəti olan istintaq orqanına bilavasitə göndərilməsi qaydası təsbit edildiyi, digər tərəfdən, onların yuxarı prokurorluq vasitəsi ilə göndərilməsi qaydası qanun normaları ilə təsbit edilməmişdirsə, aydındır ki, birinci təcrübədə variant tətbiq edilməlidir. Yuxarı prokurora öz nəzarət səlahiyyətlərini səmərəli həyata keçirilməsi üçün prosessual qərarın surəti göndərilə bilər. İşlərin aidiyyəti üzrə göndərilməsi «prosessual zəncir»ində yuxarı prokurorun yer alması onun «prosessual rəhbərlik» funksiyasını həyata keçirməsinə dəlalət edir ki, bu da qanunda nəzərdə tutulmamışdır. Qanunun mənasına görə, yuxarı prokuror fərqli statusa[6] malikdir və bu status tabe prokurorluqlar arasında işlərin istintaq aidiyyəti üzrə göndərilməsində iştirakı ehtiva etmir.

Bütövlükdə məqalə maraqlı, praktiki cəhətdən faydalıdır.

**Nazir Bayramov,**
*Elm-Tədris Mərkəzinin rəisi*
*III dərəcəli dövlət ədliyyə müşaviri*

---

5 *Bax, orada:* «Maddə 221. Xuliqanlıq. (...) 221.3. Xuliqanlıq, silahdan və ya silah qismində istifadə edilən əşyaları tətbiq etməklə törədildikdə».

6 *Bax, orada:* Maddə 3. Cinayət məsuliyyətinin əsasları. Yalnız bu Məcəllə ilə nəzərdə tutulmuş cinayət tərkibinin bütün əlamətlərinin mövcud olduğu əməlin (hərəkət və ya hərəkətsizliyin) törədilməsi cinayət məsuliyyəti yaradır.

## Baş Prokurorluğun Elm-Tədris Mərkəzi ilə Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası arasında işgüzar əməkdaşlıq



Sentyabrın 29–30-da Bakıda Ədliyyə Akademiyasının və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) birgə təşkilatçılığı ilə «Hakimlərin tədrisi ədalət mühakiməsinin səmərəliliyinin artırılması vasitəsi kimi» mövzusunda beynəlxalq elmi-praktiki konfrans keçirilmişdir.

Konfransda Türkiyə, Almaniya, Niderland və Gürcüstandan olan təlim qurumlarının rəhbərləri, nüfuzlu ekspertlər, eləcə də mötəbər beynəlxalq təşkilatların təmsilçiləri, respublikamızın Ədliyyə Nazirliyinin rəhbərliyi, Ali Məhkəmənin, Məhkəmə-Hüquq Şurasının və Hakimlərin Seçki Komitəsinin üzvləri, hakim assosiasiyaları, birinci instansiya, ixtisaslaşdırılmış və apellyasiya məh-






kəmələrinin hakimləri, vəkillər və alimlər iştirak etmişlər.

Prokurorluq orqanlarından Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəisi Nazir Bayramov, Mərkəzin Kafedra rəisi Günay Əyyubova və prokuroru Talıb Cəfərov, Bakı şəhər prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin əməkdaşları təmsil olunmuşlar.

Konfransı giriş sözü ilə açan ədliyyə nazirinin müavini Azər Cəfərov tədbir iştirakçılarını salamlayıb, ölkədə həyata keçirilən və beynəlxalq aləmdə təqdir olunan genişmiqyaslı məhkəmə-hüquq islahatları, qanunvericilik və institusional tədbirlər barədə məlumat verib, ədalət mühakiməsinin səmərəliliyinin artırılmasında hakimlərin davamlı tədrisinin əhəmiyyətini vurğulayıb, bu sahədə Avropa Şurası ilə səmərəli əməkdaşlığı qeyd edərək Məhkəmə-Hüquq Şurasında hakimlərin tədrisi sektorunun yaradıldığını, Ədliyyə Akademiyasında hakimlərin davamlı və hakimliyə namizədlərin uzunmüddətli tədris kurslarına cəlb olunmasını diqqətə çatdırdı.

Nazir müavini həmçinin, bir çox xarici dövlətlərə faydalı tədris səfərlərinin həyata keçirildiyini, İnsan hüquqları üzrə Avropa Məhkəməsi ilə səmərəli əməkdaşlığı vurğulayıb, qanunvericilikdə baş verən yeniliklərin, habelə Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi və tətbiqinin, peşəkarlığın artırılmasının vacibliyini qeyd edib, hakimlərin tədrisində yeni metodologiyaların və müasir İKT-lərin tətbiqindən, milli təlimçilərin formalaşdırılması üzrə tədbirlərdən, gələcək hədəf və perspektivlərdən danışdı.

Azər Cəfərov hakimlərin tədrisi sahəsində mütərəqqi təcrübənin öyrənilməsində Konfransın əhəmiyyətini vurğuladı.

Açılışda həmçinin, GİZ-in «Cənubi Qafqazda məhkəmə və hüquq islahatlarının dəstəklənməsi» regional proqramın rəhbəri Tomas Meyer, Almaniyanın ölkəmizdəki Səfirliyinin müvəqqəti işlər üzrə müvəkkili Volfqanq Mössinqer, Avropa Şurasının Bakı ofisinin rəhbəri Draqana Filipoviç və Ədliyyə Akademiyasının rektoru əvəzi Elçin Xələfov çıxış etdilər.

Sonra konfransda hakimlər üçün təşkil olunan təlimlərin məhkəmə sisteminin müstəqilliyində, ədalət mühakiməsinin keyfiyyətinin səmərəliliyinin artırılmasında rolu, Azərbaycan hakimləri üçün təhsil sahəsində yeniliklər və digər mövzulara dair məruzələr dinlənildi.

Tədbirdə paralel keçirilən 2 iclasda hakimlərin təlimi ilə məşğul olan qurumların potensialının




gücləndirilməsi və təlimçilərin seçilməsi, hazırlanması üçün təlim kursları mövzusunda müzakirələr aparıldı.

Növbəti gün konfransda qeyd olunan mövzular üzrə müzakirələrin nəticələrinə dair təqdimatlar keçirildi.

Sonda məhkəmə sisteminin səmərəliliyinin artırılması vasitəsi kimi hakimlərin təlimi üzrə tövsiyələr qəbul olundu.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

***

## Baş Prokurorluğun Elm-Tədris Mərkəzində ərazi hərbi prokurorluqlarının kriminalistlərinə seminar keçirilmişdir



Sentyabrın 24-də Baş Prokurorluğun Elm-Tədris Mərkəzində Bakı, Sumqayıt, Gəncə, Qazax, Qarabağ, Tərtər, Füzuli və Lənkəran hərbi prokurorluqlarının kriminalistika texnikası üzrə mütəxəssislərinə seminar-məşğələ keçirilmişdir.

Təlimçilər – Elm-Tədris Mərkəzinin əməkdaşları Elxan Əsgərov, Rafiq Quliyev və Hərbi Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə İstintaq idarəsinin Kriminalistika şöbəsinin rəisi Emil Tağıyev dinləyiciləri cinayət aləti və vasitələrinin, müxtəlif növ izlərin və digər maddi sübutların aşkar edilməsi, götürülməsi və qablaşdırılmasının elmi metodikası və taktiki xüsusiyyətləri ilə bağlı bilgi və praktiki vərdişlərlə bölüşmüşlər.

Seminarda «Qəsdən adam öldürmə və şəxsiyyət əleyhinə olan digər ağır və xüsusilə ağır cinayət hadisələri ilə bağlı hadisə yerinə baxış keçirilməsi zamanı prokuror-kriminalistlərin vəzifələri və fəaliyyət istiqamətləri», «Ölümlə nəticələnən cinayət hadisələrinin açılmasının təşkilinin məqsədli proqram metodikası», «Maddi sübutların kompüter və fotoçəkiliş vasitələrindən istifadə edilməklə arxivləşdirilməsi qaydaları» adlı mövzular üzrə məşğələlər xüsusi maraqla qarşılanmış, dinləyicilər əldə etdikləri biliklər üzrə praktiki tapşırıqları uğurla yerinə yetirmişlər.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

## Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi 2014-cü ilin I yarımili ərzində görülmüş işlərə dair hesabatla çıxış etmişdir

İyulun 17-də Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən 2014-cü ilin I yarımili ərzində korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işlərlə bağlı kütləvi informasiya vasitələri və qeyri-hökümət təşkilatları nümayəndələrinin iştirakı ilə mətbuat konfransı keçirilmişdir.

Tədbirdə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev və Korrupsiyaya qarşı Mübarizə Üzrə Komissiyanın katibi Vüsal Hüseynov görülmüş işlər barədə ətraflı məlumat vermişlər.

Bildirilmişdir ki, ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi strateji kursun müasir keyfiyyət tələblərinə uyğun olaraq yeni müstəvidə mükəmməl konseptual əsaslarla davam etdirilməsi nəticəsində ötən dövrlərdə olduğu kimi cari ilin I yarısında da bütün sahələrdə yenidənqurma işləri davam etdirilmiş, mühüm nailiyyətlər qazanılmaqla irimiqyaslı uğurlara imza atılmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradə, əzm və qətiyyəti hesabına korrupsiyaya qarşı mübarizə sahəsində ölkədə görülən işlərin, həyata keçirilən islahatların, təşkilati və institusional tədbirlərin səmərəliliyi artırılmışdır.

Prezident cənab İlham Əliyevin 27 may 2014-cü il tarixdə Azərbaycanın milli bayramı – «Respublika Günü» münasibətilə rəsmi qəbulda korrupsiya və rüşvətxorluğa qarşı mübarizənin daha ciddi aparılmasını, bu istiqamətdə nailiyyətlərin əldə edilməsini və cəmiyyət tərəfindən yüksək qiymətləndirildiyini qeyd etməsi, korrupsiya və rüşvətxorluğa qarşı mübarizə istiqamətində prokurorluq orqanları qarşısında çox mühüm vəzifələr qoymuşdur.

Cari il mayın 14-də Azərbaycanın Avropa Şurasının Nazirlər Komitəsinə sədrliyə başlaması ötən illərdə Avropa ailəsinin üzvü olmaq istiqamətində uğurlu addımlar atan, dünyada nüfuzu gündən-günə artan, demokratik imicini daha da möhkəmləndirən, ümumavropa dəyərləri xəzinəsinə mühüm töhfələr verən ölkəmiz üçün əlamətdar hadisə olmaqla dövlət başçısının Avropa Şurası Parlament Assambleyasının sessiyasındakı çıxışında Azərbaycanın Nazirlər Komitəsinə sədrlik dövründə insan hüquqları, qanunun aliliyi və demokratiyaya güclü dəstək göstərəcəyini qeyd etməklə yanaşı, korrupsiyaya qarşı mübarizənin prioritet istiqamətlərdən biri olmasını bildirməsi xüsusi vurğulanmışdır.

Bununla əlaqədar, ölkəmizin Avropa Şurasının Nazirlər Komitəsinə sədrliyi dövründə Azərbaycan Hökuməti və Avropa Şurası tərəfindən Avropa Şurasının Korrupsiyaya qarşı Mübarizə Aparan Dövlətlər Qrupu (GRECO) və Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) iştirakçılığı ilə cari il 30 iyun-01 iyul tarixlərində Bakıda «Korrupsiyaya qarşı mübarizə: beynəlxalq standartlar və milli təcrübələr» mövzusunda yüksək səviyyəli beynəlxalq konfransın keçirilməsinin mühüm əhəmiyyəti vardır.

Hesabat dövrü ərzində dövlət başçısının siyasi iradəsinə uyğun olaraq korrupsiyaya qarşı mübarizənin daha ciddi aparılması üçün son vaxtlar həyata keçirilmiş bir sıra mühüm qanunvericilik və praktiki tədbirlər öz bəhrəsini vermiş, ölkədə korrupsiyaya qarşı mübarizənin daha səmərəli formada təşkil edilməsinə zəmin yaranmışdır.

Qeyd edilmişdir ki, prokurorluq orqanları korrupsiya ilə mübarizəni fəaliyyətinin prioritet xətti kimi müəyyən etmiş, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi isə əvvəlki illərdə olduğu kimi fəaliyyətini 2014-cü ilin I yarımili ərzində də uğurla davam etdirmişdir.

Həmin müddət ərzində Baş İdarə tərəfindən vətəndaşların 1.603 müraciətinə baxılmış, həmçinin 169 cinayət xarakterli material araşdırılmışdır. Həmin materialların 53%-i üzrə cinayət işi başlanmış, digər məlumatlar üzrə isə zəruri qabaqlayıcı tədbirlərin görülməsi təmin edilmişdir.

Hesabat dövründə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin 161 saylı «Qaynar xətt» əlaqə mərkəzinə 2.864 müraciət daxil olmuşdur. Əlaqəli dövlət qurumları ilə birgə görülmüş tədbirlər nəticəsində daxil olmuş müraciətlərin əksəriyyətinin müsbət həll olunması təmin edilməklə vətəndaşların pozulmuş hüquqları bərpa edilmiş, aşkar edilmiş qanun pozuntularının aradan qaldırılması məqsədi ilə müvafiq təşkilatlara təqdimatlar göndərilmiş, həmçinin müraciətlərin 9-u üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işləri başlanmışdır.

Hesabat dövrü ərzində törədilmiş və ya hazırlanan cinayətlər barədə Baş İdarənin əməliyyat qurumları öz vəzifələrini uğurla icra edərək tərəfindən keçirilmiş əməliyyat tədbirləri nəticəsində cinayət başında

yaxalanmış şəxslər barəsində 6, o cümlədən korrupsiya hüquqpozmaları ilə əlaqədar toplanmış materiallar üzrə 3 cinayət işi başlanmışdır. Həmin işlərdən 7-si üzrə ibtidai istintaq tamamlanaraq baxılması üçün aidiyyəti məhkəmələrə göndərilmişdir.

Cinayət işləri Ağcabədi Pedoqoji Kollecinin direktoru Sahib Hüseynovun kollecin tələbəsindən sessiya imtahanlarından müsbət qiymət alması müqabilində 450 manat məbləğində rüşvəti alması, Bakı şəhər Nizami rayonu 117 №-li Mənzil Kommunal İstismar sahəsinin rəisi Bəşir Bəşirovun müvafiq sənədlərin verilməsi müqabilində vətəndaşdan 2 min manat, «Merac Holdinq»in İdarə Heyyətinin sədri Səbuhi Əliyevin zəlzələdən zərər çəkmiş ərazilərdə 204 evin yenidən tikilməsi üçün podrat işlərinin verilməsi müqabilində 20 min manat məbləğində rüşvət almaları və digər faktlarla əlaqədar olmuşdur.

2014-cü ilin I yarımili ərzində Baş İdarənin İstintaq şöbəsi tərəfindən 147 şəxs barəsində 103 cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün aidiyyəti məhkəmələrə göndərilmişdir.

Həmin cinayət işlərindən 3 şəxs barəsində 2 iş rüşvət vermə, 4 şəxs barəsində 4 iş rüşvət alma, 16 şəxs barəsində 11 iş vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, 4 şəxs barəsində 4 iş vəzifə səlahiyyətlərini aşma, 7 şəxs barəsində 4 iş vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə, 53 şəxs barəsində 38 iş mənimsəmə və israf etmə, 41 şəxs barəsində 25 iş dələduzluq və digər faktlarla əlaqədar olmuşdur.

Məhkəmələrə göndərilmiş cinayət işləri üzrə vurulmuş 11 milyon 870 min manat ziyandan istintaq müddətində 6 milyon 10 min manat və ya 50,6 %-i ödənilmiş, qalan ziyanın təqsirləndirilən şəxslərin əmlakları üzərinə həbs qoyulmaqla ödənilməsi üçün qanunla nəzərdə tutulmuş tədbirlər görülmüşdür.

Ölkəmizin dinamik iqtisadi inkişafı nəticəsində ən müxtəlif formalarda təzahür edən korrupsiya hüquqpozmalarının ilkin araşdırılması və istintaqı ayrı-ayrı istiqamətlər üzrə aparıldığından Baş İdarənin Mütəxəssislər qrupunun əməkdaşları bu məqsədlə müxtəlif sahələrlə bağlı digər şöbələrlə qarşılıqlı səmərəli fəaliyyət göstərmişlər.

Hesabat dövrü ərzində də korrupsiyaya qarşı mübarizə sahəsində Baş İdarə əməkdaşları tərəfindən bir sıra qabaqlayıcı tədbirlər həyata keçirilmişdir.

Belə ki, «Korrupsiyaya qarşı mübarizəyə dair 2012–2015-ci illər üçün Milli Fəaliyyət Planı»nın müvafiq müddəalarının icrası qaydasında məktəbəqədər təhsil, bank, ekologiya və digər sahələrdə xarakterik korrupsiya hüquqpozmalarının aradan qaldırılması üçün qabaqlayıcı tədbirlərə dair təkliflər hazırlanaraq aidiyyəti təşkilatlara göndərilmiş, həmçinin bir sıra hallarda vəzifəli şəxslər tərəfindən «Korrupsiyaya qarşı mübarizə haqqında» qanunun tələblərinin pozularaq cinayət xarakteri daşımayan pozuntulara yol verildiyi müəyyənləşdirildiyindən həmin şəxslər barəsində «Prokurorluq haqqında» qanunun 23-cü maddəsinə müvafiq olaraq aidiyyəti üzrə təqdimatlar verilmişdir.

Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın zəruriliyini nəzərə alaraq hesabat dövrü ərzində Baş İdarə tərəfindən bu sahədə ixtisaslaşmış beynəlxalq qurumlar və digər ölkələrin müvafiq hüquq-mühafizə orqanları ilə əlaqələrin daha da genişlənməsinə xüsusi diqqət yetirilmişdir.

Azərbaycan Respublikasının Avropa Şurasının Nazirlər Komitəsinə sədrliyi ilə əlaqədar 30 iyun-01 iyul 2014-cü il tarixdə Azərbaycan Hökuməti və Avropa Şurası tərəfindən Avropa Şurasının Korrupsiyaya qarşı Mübarizə Aparan Dövlətlər Qrupu (GRECO) və Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) iştirakçılığı ilə «Korrupsiyaya qarşı mübarizə: beynəlxalq standartlar və milli təcrübələr» mövzusunda keçirilmiş yüksək səviyyəli beynəlxalq konfransda dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın, mərkəzi icra hakimiyyəti orqanlarının, Baş Prokurorluğun, habelə ölkəmizin digər hüquq-mühafizə qurumlarının, ali təhsil müəssisələrinin, QHT-lərin və beynəlxalq təşkilatların Azərbaycandakı nümayəndəliklərinin əməkdaşları iştirak etmişlər.

Konfransa Avropa Şurasına daxil olan 35 ölkədən və 13 nüfuzlu beynəlxalq təşkilatdan 130-dan çox nümayəndə, o cümlədən Türkiyə, Albaniya, Moldova, Xorvatiya, Gürcüstan, Monako və Lixtenşteynin Baş prokurorları, Bosniya və Herseqovina, Albaniya, Xorvatiyanın ədliyyə nazirləri, Fransa, Polşa, Litva, Makedoniya və Serbiyanın ixtisaslaşdırılmış antikorrupsiya qurumlarının rəhbərləri, Avropa Şurasının İnsan Hüquqları və Hüquqi Məsələlər üzrə Baş İdarəsinin direktoru, GRECO-nun prezidenti, IACA-nın icraçı katibi, Beynəlxalq Prokurorlar Assosiasiyasının (IAP) prezidenti, Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının (IAACA) baş katibi və digərləri qatılmışlar.

Hesabat dövrü ərzində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) ilə əlaqələr genişləndirilmiş, 17 yanvar 2014-cü il tarixdə Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində OECD Katibliyinin Antikorrupsiya məsələləri üzrə baş müşaviri Olqa Savran və qurumun İstanbul Fəaliyyət Planının layihə rəhbəri

Tetyana Xavanska, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi, ölkəmizin OECD ilə milli əlaqələndiricisi Kamran Əliyev, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın katibi Vüsal Hüseynov, ATƏT, Avropa İttifaqı, Avropa Şurası və digər beynəlxalq təşkilatların Azərbaycandakı nümayəndəliklərinin məsul əməkdaşları, müvafiq dövlət qurumlarının, vətəndaş cəmiyyəti institutlarının və kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirakı ilə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsinin İstanbul Fəaliyyət Planı tərəfindən ölkəmizin Üçüncü Dəyərləndirmə Raundunun birinci mərhələsini müvəffəqiyyətlə keçməsi ilə əlaqədar qəbul etdiyi hesabatın təqdimatı keçirilmişdir.

Bundan əlavə, hesabat dövrü ərzində Avropa Şurasının Korrupsiyaya qarşı mübarizə aparan Dövlətlər Qrupu (GRECO) ilə Azərbaycan Respublikası arasında əməkdaşlıq uğurla davam etdirilmişdir.

Belə ki, 15–18 aprel 2014-cü il tarixlərdə Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupu (GRECO) tərəfindən Azərbaycan Respublikasına IV dəyərləndirmə missiyası həyata keçirilmişdir. Tədbirlə əlaqədar GRECO təşkilatının ekspertləri ölkəmizə işgüzar səfər etmişlər.

Dəyərləndirmə missiyasının həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidenti Administrasiyası və GRECO təşkilatı tərəfindən hazırlanmış gündəliyə uyğun olaraq Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının Katibliyinin, Parlamentin və Məhkəmə-Hüquq Şurasının üzvlərinin, Konstitusiya Məhkəməsi, Ali məhkəmə və digər instansiya məhkəmələrinin hakimlərinin, müvafiq Nazirliklərin məsul əməkdaşlarının, ali təhsil müəssisələrinin müəllim heyətinin və vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə çoxsaylı görüşlər keçirilmişdir.

Hesabat dövründə Beynəlxalq Prokurorlar Assosiasiyası (IAP) ilə əməkdaşlıq diqqət mərkəzində saxlanılmış və cari ilin 7-10 aprel tarixlərində Assosiasiyanın Prezidenti və Avstriya Baş prokurorunun müavini cənab Gerhard Yaroş nümayəndə heyəti ilə birlikdə ölkəmizdə işgüzar səfərdə olmuşdur.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi korrupsiyaya qarşı mübarizə sahəsində nəzəriyyə və praktikada mövcud çatışmazlıqların aradan qaldırılmasına istiqamətlənmiş, mühüm elmi araşdırmalarla məşğul olan Beynəlxalq Antikorrupsiya Akademiyası ilə də əməkdaşlığını uğurla davam etdirmiş, ötən dövr ərzində idarənin əməkdaşları qurumun seminar və konfranslarında fəal iştirak etmişlər.

2014-cü ilin I yarımilliyi ərzində idarə tərəfindən həmçinin Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat – GUAM, Avropa İttifaqının Şərq Tərəfdaşlığı çərçivəsində Demokratiya, yaxşı idarəçilik və Sabitlik üzrə Birinci çoxtərəfli Platformanın nəzdində yaradılmış «Korrupsiyaya qarşı mübarizə üzrə Panel», Avropa İttifaqı (Aİ) – Azərbaycan Əməkdaşlıq Komitəsi çərçivəsində fəaliyyət göstərən Ədliyyə, azadlıq, təhlükəsizlik, insan hüquqları və demokratiya üzrə Alt Komitəsi çərçivəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsinə xüsusi diqqət yetirilməklə Baş İdarənin əməkdaşları həmin istiqamətlər üzrə konfrans, seminar, treninq, təlim və dəyirmi masalarda aktiv iştirak etmişlər.

Baş İdarə tərəfindən korrupsiyaya qarşı mübarizə fəaliyyətində qeyri-hökumət təşkilatları ilə sıx münasibətlərin qurulmasına xüsusi önəm verilmişdir. Baş İdarənin fəaliyyəti, bu sahədə son vaxtlar qəbul edilmiş qanunvericiliyin tələbləri, beynəlxalq əməkdaşlıq nəticəsində həyata keçirilən tədbirlər, həmin tədbirlərin reallaşmasında dövlət qurumlarının və vətəndaş cəmiyyətinin rolu və digər mühüm məsələlər ilə əlaqədar əməkdaşların kütləvi informasiya vasitələrində məqalələri dərc edilmişdir.

Cari il iyulun 10-da dövlət başçısı cənab İlham Əliyevin Nazirlər Kabinetinin 2014-cü ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında ölkəmizdə həyata keçirilən quruculuq işlərinə, iqtisadi, sosial və siyasi sahədə aparılan islahatlara kölgə salan, habelə əhalinin haqlı narazılığına səbəb olan rüşvətxorluq və korrupsiya kimi neqativ təzahürlərə qarşı daha ciddi mübarizə aparılması sahəsində vermiş olduğu göstərişlərə uyğun olaraq Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən bundan sonra da korrupsiya hüquqpozmalarını doğuran səbəb və şəraitin müəyyən edilməsi və cinayətlərin qarşısının alınması istiqamətində sistemli, ardıcıl və qətiyyətli mübarizə tədbirlərinin davam etdirilməsi təmin ediləcəkdir.

Tədbirdə iştirak edən qeyri-hökumət təşkilatlarının nümayəndələri çıxış edərək korrupsiyaya qarşı mübarizə sahəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin 2014-cü ilin I yarımili ərzində gördüyü işləri müsbət dəyərləndirmişlər. QHT və kütləvi informasiya vasitələrinin nümayəndələrinin sualları ətraflı cavablandırılmışdır.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

## Prokurorluq orqanlarına işə qəbulla əlaqədar elan olunmuş müsabiqəyə yekun vurulmuşdur

Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş «Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında Əsasnamə»yə müvafiq olaraq prokurorluq orqanlarına işə qəbulla əlaqədar elan olunmuş müsabiqəyə yekun vurulmuşdur.

Müsabiqənin üçüncü mərhələsi olan müsahibəyə buraxılmış namizədlərin hazırlıq səviyyəsi, dünyagörüşü, məntiqi düşünmə qabiliyyəti və prokurorluqda işləmək üçün zəruri olan digər şəxsi keyfiyyətlərinin yoxlanılması nəticəsində 71 gənc hüquqşünas «Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi Qaydaları» ilə müəyyənləşdirilmiş keçid balını toplamışdır.

2002-ci ildən başlamaqla keçirilən və sayca 13-cü olan bu müsabiqənin nəticələrinə görə gənc hüquqşünasların prokurorluq orqanlarına qulluğa qəbul olunması Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən müəyyən edilən və ölkə həyatının bütün sahələrində gənclərin intellektual potensialından geniş istifadəyə yönəlmiş dövlət gənclər siyasəti çərçivəsində uğurla həyata keçirilmiş mühüm tədbirlərdən biri olmuşdur. Sonuncu müsabiqənin nəticələri də nəzərə alınmaqla tam şəffaf, ədalətli prosedurlar əsasında, beynəlxalq standartlara uyğun keçirilmiş müsabiqələr nəticəsində qulluğa qəbul edilmiş 627 gənc hüquqşünas hazırda respublika prokurorluq orqanlarının kadr korpusunun 58 faizini təşkil edir. Əvvəlki müsabiqələrin yekunlarına görə işə qəbul olunmuş gənclər prokurorluq orqanlarında səmərəli fəaliyyət göstərməklə, onların bir hissəsi yuxarı təsnifatlar üzrə, o cümlədən rəhbər vəzifələrə irəli çəkilmişlər.

**Baş Prokurorluğun Kadrlar idarəsi**

***

## Prokurorluq orqanlarında qulluğa qəbulla bağlı Naxçıvan Muxtar Respubliksında test imtahanı keçirilmişdir

Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müsabiqə yolu ilə işə qəbulun həyata keçirilməsi kadr korpusunun şəffaf prosedurlar əsasında formalaşmasının ən sivil və demokratik yolu olmaqla bərabər, həm də xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən təməli qoyularaq ölkəmizdə bu gün də dövlət başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlət gənclər siyasətinin məntiqi nəticəsidir.

Prokurorluq orqanlarına işə qəbulun müsabiqə qaydasında keçirilməsi prokurorluğun kadr tərkibinin savadlı hüquqşünaslar hesabına yeniləşdirilməsi üçün ciddi zəmin yaratmışdır. Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqələrin keçirilməsi qaydalarına uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Prokurorluğuna Naxçıvan Muxtar Respublikası ərazisində yayayış yeri üzrə qeydiyyata alınmış şəxsləri prokurorluq orqanlarına işə qəbul etmək səlahiyyəti verilmişdir. Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş «Prokurorluğa işə qəbul olunmaq üçün na-



mizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında Əsasnamə»yə müvafiq olaraq 2003-cü ildən başlayaraq Naxçıvan Muxtar Respublikası Prokurorluğunda aşkarlıq və şəffaflıq şəraitində test imtahanları keçirilmiş və nəticədə, gənc hüquqşünaslar prokurorluq orqanlarına işə qəbul olunmuşlar.

Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən aprel ayının 1-də Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş «Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında Əsasnamə»yə uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Prokurorluğu və Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğu orqanlarında işə qəbul olunmaq arzusunda olan şəxslər üçün 10 ştat vahidi üzrə müsabiqə elan edilmiş, sentyabr ayının 26-də isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyada Naxçıvan Muxtar Respublikasının Prokurorluq orqanlarında işləmək istəyənlər üçün test imtahanı keçirilmişdir. İmtahan zalında imtahanın aşkarlıq şəraitində, şəffaf üsullarla və beynəlxalq tələblərə uyğun keçirilməsi üçün hərtərəfli şərait yaradıldığından üç saatlıq proses ərzində heç bir neqativ hal qeydə alınmamışdır. Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (TQDK) Naxçıvan Muxtar Respublikası Regional bölməsinin və Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları imtahanda iştirak etmişlər. 10 vakant yer üzrə imtahanda iştirak etmiş 30 namizədin 10-u növbəti mərhələyə – yazılı imtahana buraxılmaq hüququ qazanmışdır.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi**

# İmişli rayon prokurorluğunda bölgə prokurorluqlarının əməkdaşlarının iştirakı ilə seminar keçirilmişdir



Avqustun 8-də İmişli rayon prokurorluğunda Baş Prokurorluq üzrə «Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliyinin artırılması haqqında» 01.11.2010-cu il tarixli 10/100 nömrəli əmrin tələblərinin öyrənilməsi məqsədilə seminar keçirilmişdir.

Tədbirdə İmişli, Laçın, Beyləqan, Zərdab, Ağdam, Füzuli, Tərtər, Ağcabədi və Bərdə rayon prokurorluqlarının əməkdaşları iştirak etmişlər.

Seminarda Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsinin prokuroru Elşad Eyvazov tərəfindən qeyd edilən əmrin tələblərindən irəli gələn vəzifələr və bu tələblərin dürüst icrasını təmin edən konkret tədbirlər haqqında danışılmış, əmrin müddəaları təfsilatlı şərh edilməklə yanaşı, tabe prokurorluqlarda bu sahədə mövcud olan çatışmazlıqların aradan qaldırılması ilə bağlı tövsiyələr verilmişdir.

Seminar iştirakçılarının müraciətlərə baxılması və vətəndaşların qəbulu sahəsində lazımi səmərə əldə edilməsi məqsədilə irəli sürdükləri təkliflər müzakirə olunmaqla əmrin tətbiqi ilə bağlı yaranmış müsbət təcrübə ətraflı təhlil edilmiş və gələcəkdə bu istiqamətdə lazım olacaq digər zəruri tədbirlərin də görülməsinin vacibliyi qeyd olunmuşdur.

Tədbirdə vətəndaşların qəbulu işinin düzgün təşkilinin əhəmiyyəti qeyd edilərək, bununla bağlı tabe prokurorluqlara ünvanlanmış Baş prokurorun müavininin 11.09.2011-ci il tarixli 09/337 nömrəli məktubunda öz əksini tapmış tövsiyələrə əməl edilməsi zərurəti vurğulanmışdır.

Daha sonra seminar iştirakçılarına müraciətlərə baxılması və vətəndaşların qəbulu işində müasir informasiya texnologiyalarının tətbiqi sahəsində ardıcıl həyata keçirilən tədbirlər barədə məlumat verilmiş, prokurorluqda müraciətlərlə iş üzrə fəaliyyətin elektron formada həyata keçirilməsinin vacibliyi vurğulanmışdır.

Bununla yanaşı, Baş Prokurorluq üzrə 06.01.2012-ci il tarixli 10/2 № li əmrə əsasən, tətbiqinə başlanılmış «Elektron sənəd dövriyyəsi» proqramının vacibliyi barədə danışılmış, onun mahiyyəti və işləmə mexanizmi barədə ətraflı məlumat verilmişdir.

Seminarda tabe prokurorluqların nümayəndələrinin sualları cavablandırılmaqla əmrin yerlərdə tətbiqi ilə əlaqədar konkret tövsiyələr verilmişdir.

**Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsi**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

## K.B.Əliyevin Azərbaycan Respublikası Baş prokurorunun müavini – Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi təyin edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 133-cü maddəsinin IV hissəsini rəhbər tutaraq **qərara alıram:**

**Kamran Bayram oğlu Əliyev** Azərbaycan Respublikası Baş prokurorunun müavini – Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi təyin edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 5 avqust 2014-cü il
№ 671

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

## Azərbaycan Respublikası Prokurorluğunun əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Baş prokurorunun müavini – Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi **Kamran Bayram oğlu Əliyevə** II dərəcəli dövlət ədliyyə müşaviri ali xüsusi rütbəsi verilsin.

**2.** Azərbaycan Respublikası Prokurorluğunun aşağıdakı əməkdaşlarına III dərəcəli dövlət ədliyyə müşaviri ali xüsusi rütbəsi verilsin:

**Abbasov İlqar Rza oğlu** – Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi rəisinin müavini

**Nağıyev Əli Nağı oğlu** – Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi rəisinin müavini.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 5 avqust 2014-cü il
№ 672

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, №4, II kitab, maddə 251, №5, maddə 323, №12, maddə 835; 2001, №1, maddə 24, №7, maddə 455; 2002, №1, maddə 9, №5, maddələr 236, 248, 258, №6, maddə 326, №8, maddə 465; 2003, №6, maddələr 276, 279, №8, maddələr 424, 425, №12, I kitab, maddə 676; 2004, №1, maddə 10, №4, maddə 200, №5, maddə 321, №8, maddə 598, №10, maddə 762, № 11, maddə 900; 2005, №1, maddə 3, №6, maddə 462, №7, maddə 575, №10, maddə 904, №11, maddə 994; 2006, №2, maddələr 71, 72, 75, №5, maddə 390, №12, maddələr 1008, 1020, 1028; 2007, №2, maddə 68, №5, maddə 398, №6, maddələr 560, 562, 579, №8, maddə 757, №10, maddələr 937, 941, №11, maddələr 1049, 1080, 1090, №12, maddə 1221; 2008, №6, maddələr 454, 461, №7, maddə 602, №10, maddə 884, №12, maddələr 1047, 1049; 2009, №5, maddə 315, №7, maddə 517, №12, maddə 953; 2010, №2, maddə 70, №3, maddələr 171, 178, №4, maddələr 275, 276, №7, maddə 591; 2011, №4, maddə 253, №6, maddə 472, №7, maddələr 587, 601, 621, №11, maddə 980, №12, maddə 1093; 2012, №2, maddə 45, №3, maddələr 193, 196, №7, maddələr 666, 669, 673, №11, maddə 1068, №12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95; Azərbaycan Respublikasının 2014-cü il 14 mart tarixli 919-IVQD nömrəli qanunu) 189-1-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** Maddənin adında «Təbii qazın,» sözlərindən sonra «suyun,» sözü əlavə edilsin.

**2.** 189-1.1-ci maddədə «Təbii qaz,» sözlərindən sonra «su təchizatı,» sözləri əlavə edilsin və «enerji resurslarının» sözləri «resursların» sözü ilə əvəz edilsin.

**3.** 189-1.3-cü və 189-1.4-cü maddələrdə «Təbii qaz,» sözlərindən sonra «su,» sözü əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 may 2014-cü il
№ 971-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, I kitab, maddə 584; 2001, № 1, maddə 24, № 3, maddə 139, № 7, maddə 455, № 11, maddələr 680, 698, № 12, maddə 731; 2002, № 1, maddə 9, № 4, I kitab, maddə 165, № 5, maddələr 234, 237, 239, № 6, maddə 326, № 8, maddə 463, № 12, maddə 692; 2003, № 1, maddələr

3, 13, 23, № 4, maddələr 177, 178, № 5, maddə 228, № 6, maddələr 257, 276, 279, № 8, maddələr 407, 425, № 12, I kitab, maddələr 676, 696, II kitab, maddələr 713, 714; 2004, № 1, maddələr 6, 7, 10, 13, № 4, maddələr 200, 201, 204, № 5, maddələr 313, 314, 317, 321, № 6, maddə 397, № 8, maddələr 596, 597, № 10, maddələr 762, 779, № 11, maddə 900, № 12, maddə 973; 2005, № 1, maddələr 5, 6, № 2, maddə 61, № 4, maddələr 272, 273, 275, 278, № 6, maddələr 462, 466, № 7, maddə 576, № 8, maddələr 691, 692, № 10, maddələr 875, 877, 904, № 11, maddələr 993, 994, 995, № 12, maddələr 1083, 1085; 2006, № 2, maddələr 64, 68, № 3, maddələr 219, 220, 223, 225, № 5, maddə 385, № 6, maddə 478, № 11, maddələr 923, 924, 932, № 12, maddələr 1005, 1020, 1024; 2007, № 1, maddələr 3, 4, № 2, maddələr 65, 68, № 5, maddələr 397, 398, 401, 440, № 6, maddələr 560, 561, 562, 579, № 8, maddə 757, № 10, maddələr 935, 936, 938, 940, № 11, maddələr 1048, 1049, 1053, 1070, 1077, 1080, 1089, 1091, № 12, maddələr 1195, 1211, 1217, 1218, 1221; 2008, № 2, maddə 47, № 3, maddələr 146, 152, 159, № 4, maddə 249, № 5, maddə 340, № 6, maddələr 454, 460, 461, 464, № 7, maddələr 601, 602, 605, № 8, maddələr, 699, 701, 711, № 10, maddələr 884, 885, № 11, maddələr 956, 957, № 12, maddələr 1045, 1047, 1049; 2009, № 2, maddələr 36, 45, 49, 52, 53, № 5, maddələr 309, 315, № 6, maddələr 404, 405, № 7, maddələr 517, 518, 519, № 8, maddə 611, № 12, maddələr 953, 954, 966, 971; 2010, № 2, maddələr 70, 71, № 3, maddələr 167, 171, 178, № 4, maddələr 275, 276, № 5, maddələr 379, 380, № 6, maddə 483, № 7, maddələr 577, 591, 594, 595, 598, 600, № 10, maddə 838, № 11, maddələr 936, 938, 949, № 12, maddə 1059; 2011, № 2, maddələr 70, 71, № 3, maddələr 162, 164, 167, 168, 170, № 4, maddələr 246, 254, № 6, maddələr 470, 479, 487, № 7, maddələr 596, 614, № 10, maddə 881, № 11, maddə 981, № 12, maddələr 1094, 1095, 1099, 1103, 1106; 2012, № 1, maddə 3, № 2, maddə 50, № 3, maddə 194, № 4, maddə 271, № 5, maddə 404, № 6, maddə 499, № 7, maddələr 649, 665, 667, № 9, maddə 843, № 11, maddələr 1046, 1047, 1055, 1064, 1069; 2013, № 1, maddələr 12, 13, 23, № 2, maddələr 90, 100, № 3, maddələr 205, 218, 220, 225, № 4, maddələr 354, 361, № 5, maddələr 461, 473, 480, № 6, maddələr 601, 617, 627, 629, № 7, maddə 777, № 8, maddə 888, № 11, maddələr 1287, 1294, 1300, 1304, 1311, № 12, maddələr 1471, 1480, 1496; 2014, № 1, maddə 2, № 2, maddələr 80, 91, 93, № 3, maddə 236; Azərbaycan Respublikasının 2014-cü il 4 mart tarixli 917-IVQD nömrəli qanunu) 101-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** 101.2.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

«**101.2.3.** su təchizatı şəbəkəsinə qanunsuz qoşulmaqla suyun talanması nəticəsində az miqdarda ziyan vurulmasına;

**2.** aşağıdakı məzmunda «Qeyd» hissəsi əlavə edilsin:

«**Qeyd:** Bu maddədə «az miqdarda» dedikdə, min manatadək olan məbləğ başa düşülür.».

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 may 2014-cü il
№ 972-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## «Azərbaycan Respublikasının vətəndaşlığı haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 10-cu bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** «Azərbaycan Respublikasının vətəndaşlığı haqqında» Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 10, maddə 607; 2005, № 10, maddə 905; 2008, № 8, maddə 701) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 5-ci maddəyə aşağıdakı məzmunda dördüncü hissə əlavə edilsin:

«Şəxsin Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyəti müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilir. Şəxsin Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətinin müəyyənləşdirilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.».

**2.** 6-cı maddənin 1-ci bəndi ləğv edilsin.

**3.** 10-cu maddə aşağıdakı redaksiyada verilsin:

**«Maddə 10. Azərbaycan Respublikası vətəndaşının xarici dövlətin vətəndaşlığına mənsubiyyətinin tanınmaması**

Azərbaycan Respublikasının vətəndaşı olan şəxsin ikili vətəndaşlığı olduqda (Azərbaycan Respublikası vətəndaşlığı ilə yanaşı, digər dövlətin (dövlətlərin) vətəndaşı olduqda) həmin şəxsin xarici dövlətin vətəndaşlığına mənsubiyyəti, Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində nəzərdə tutulmuş və ya Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə müvafiq surətdə həll edilmiş hallar istisna olmaqla tanınmır.

Xarici dövlətin vətəndaşlığını qəbul etmiş Azərbaycan Respublikasının vətəndaşı bir ay müddətində bu barədə müvafiq icra hakimiyyəti orqanına yazılı məlumat verməlidir. Belə məlumatı verməyən şəxslər Azərbaycan Respublikasının Cinayət Məcəlləsi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.».

**4.** 11-ci maddənin 1-ci bəndində «ərazisində» sözündən sonra «(bu Qanunun 12-ci maddəsinin birinci və ikinci hissələrində nəzərdə tutulmuş hallar istisna olmaqla)» sözləri əlavə edilsin.

**5.** 12-ci maddə aşağıdakı redaksiyada verilsin:

**«Maddə 12. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisində doğulmuş uşaqlarının vətəndaşlığı**

Azərbaycan Respublikasının ərazisində doğulmuş və hər iki valideyni əcnəbi olan uşaq Azərbaycan Respublikasının vətəndaşı hesab edilmir.

Azərbaycan Respublikasının ərazisində doğulmuş və valideynlərindən biri əcnəbi, digəri isə vətəndaşlığı olmayan şəxs olan uşaq Azərbaycan Respublikasının vətəndaşı hesab edilmir.

Azərbaycan Respublikasının ərazisində doğulmuş və hər iki valideyni vətəndaşlığı olmayan şəxs olan uşaq Azərbaycan Respublikasının vətəndaşıdır.».

**6.** 15-ci maddənin birinci hissəsində «ikinci» sözü «yeddinci» sözü ilə əvəz edilsin.

**7.** 17-ci maddənin üçüncü hissəsində «müttəhim kimi cinayət məsuliyyətinə» sözləri «cinayət işi üzrə təqsirləndirilən şəxs qismində» sözləri ilə əvəz edilsin.

**8.** 18-ci maddə aşağıdakı redaksiyada verilsin:

**«Maddə 18. Azərbaycan Respublikası vətəndaşlığının itirilməsi**

«Vətəndaşsızlığın ixtisar edilməsi haqqında» 1961-ci il 30 avqust tarixli Konvensiyanın müddəaları nəzərə alınmaqla, aşağıdakılar Azərbaycan Respublikası vətəndaşlığının itirilməsi üçün əsas hesab edilir:

**1)** Azərbaycan Respublikası vətəndaşının digər dövlətin vətəndaşlığını könüllü əldə etməsi;

**2)** Azərbaycan Respublikası vətəndaşının xarici dövlətin dövlət və ya bələdiyyə orqanlarında, yaxud silahlı qüvvələrində və ya digər silahlı birləşmələrində könüllü xidmət etməsi;

**3)** Azərbaycan Respublikası vətəndaşının dövlətin təhlükəsizliyinə ciddi zərər vuran davranışı;

**4)** Azərbaycan Respublikasının vətəndaşlığını əldə etmiş şəxsin vətəndaşlığa qəbul olunmaq üçün zəruri olan məlumatı qəsdən saxtalaşdırması və ya saxta sənəd təqdim etməsi.

Azərbaycan Respublikası vətəndaşlığının itirilməsi məsələsi bu Qanunun 17-ci maddəsinin ikinci və üçüncü hissələrində göstərilən məhdudiyyətlər nəzərə alınmaqla həll edilir.».

**Maddə 2.** «Azərbaycan Respublikasının vətəndaşlığı haqqında» Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin ikinci hissəsi və 18-ci maddəsinin birinci hissəsinin 1-ci bəndi ilə müəyyən olunmuş müddəalar bu Qanun qüvvəyə minənədək digər ölkənin vətəndaşlığını əldə etmiş şəxslərə şamil edilmir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 may 2014-cü il
№ 973-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## «Dövlət sirri haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 20-ci bəndini rəhbər tutaraq **qərara alır:**

«Dövlət sirri haqqında» Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 882; 2006, № 2, maddə 65, № 11, maddə 925; 2008, № 8, maddə 699; 2013, № 6, maddə 596) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 21-ci maddə üzrə:

**1.1.** 21.4.1-ci maddədə «edilmiş» və «məlumatların yayılmaması» sözləri müvafiq olaraq «ediləcək» və «məlumatları yaymayacağı» sözləri ilə əvəz edilsin;

**1.2.** 21.4.3-cü maddədən «rəsmi» sözü çıxarılsın;

**1.3.** 21.5-ci maddənin birinci cümləsində «rəsmiləşdirilən» sözü «dövlət sirri ilə işləməyə buraxılan» sözləri ilə əvəz edilsin;

**1.4.** aşağıdakı məzmunda 21.5-1-ci maddə əlavə edilsin:

**«21.5-1.** Vəzifəli şəxsin və vətəndaşın xüsusi əhəmiyyətli, tam məxfi və məxfi məlumatlarla işləməyə buraxılması ilə bağlı yoxlama tədbirləri prokurorluq orqanlarında Azərbaycan Respublikasının Baş Prokurorluğu, digər dövlət hakimiyyəti orqanları, idarə, müəssisə və təşkilatlarda müvafiq icra hakimiyyəti orqanı tərəfindən keçirilir. Yoxlama tədbirlərinin həcmi və keçirilməsi qaydası yoxlama tədbirlərini keçirən orqanlar tərəfindən hazırlanır və müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmaqla təsdiq edilir.»;

**1.5.** 21.6-cı maddə aşağıdakı redaksiyada verilsin:

**«21.6.** Vəzifəli şəxsin və vətəndaşın ona etibar ediləcək dövlət sirri təşkil edən məlumatları yaymayacağı barədə dövlət qarşısında götürdüyü öhdəliyi onunla işəgötürən arasında bağlanan əmək müqaviləsində, işə (xidmətə) qəbul əmək müqaviləsi ilə həyata keçirilmədikdə isə iltizamnamədə əks olunur. Dövlət sirri ilə işləməyə buraxılışı olmayan şəxsin dövlət sirrindən istifadə ilə bağlı vəzifəyə təyin edilməsinə yol verilmir.»;

**1.6.** 21.9-cu maddədən «və işləməyə buraxılmasının yenidən rəsmiləşdirilməsi» sözləri çıxarılsın.

**2.** 23-cü maddənin mətni aşağıdakı redaksiyada verilsin:

**«23.1.** Vəzifəli şəxsi və ya vətəndaşı dövlət sirri ilə işləməyə buraxmaqdan imtina edilməsi üçün əsaslar aşağıdakılardır:

**23.1.1.** məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilməsi;

**23.1.2.** Azərbaycan Respublikasının Konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan cinayətlərə, eləcə də digər xüsusilə ağır və ağır cinayətlərə görə məhkum edilməsi (məhkumluğun ödənilməsi və ya götürülməsindən asılı olmayaraq);

**23.1.3.** bu Qanunun 23.1.2-ci maddəsində göstərilən cinayətlərə görə Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə uyğun olaraq tutulması və ya barəsində hər hansı qətimkan tədbirinin seçilməsi (azad edilənədək, qətimkan tədbirinin müddəti bitənədək və ya qətimkan tədbiri ləğv edilənədək);

**23.1.4.** müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi siyahıya uyğun olaraq, dövlət sirri təşkil edən məlumatlarla işləməyi istisna edən xəstəliklərinin olması;

**23.1.5.** xarici ölkədə daimi yaşaması;

**23.1.6.** Azərbaycan Respublikasının vətəndaşlığından çıxmaq barədə müvafiq icra hakimiyyəti orqanına müraciət etməsi;

**23.1.7.** yoxlama tədbirləri nəticəsində dövlət sirri ilə işləməyə buraxılacaq şəxsin Azərbaycan Respublikasının təhlükəsizliyi üçün təhlükə törədən hərəkətlərinin aşkara çıxması;

**23.1.8.** yoxlama tədbirlərindən boyun qaçırması və ya qəsdən yalan anket məlumatları verməsi.

**23.2.** Vəzifəli şəxsi və ya vətəndaşı dövlət sirri ilə işləməyə buraxmaqdan imtina edilməsi barədə qərarı dövlət hakimiyyəti orqanının, müəssisə, idarə və ya təşkilatın rəhbəri yoxlama tədbirlərinin nəticələrini nəzərə almaqla, fərdi qaydada qəbul edir. Vəzifəli şəxsin və ya vətəndaşın həmin qərardan şikayət vermək hüququ vardır.

**23.3.** Dövlət sirri ilə işləməyə buraxmaqdan imtina edilməsi üçün əsas verən məlumatların aid olduğu hər hansı vəzifəli şəxs və ya vətəndaşların mərkəzləşdirilmiş uçotunun aparılması və məlumat bazasının yaradılması müvafiq icra hakimiyyəti orqanları tərəfindən təşkil edilir.».

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 20 iyun 2014-cü il
№ 984-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## «Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 20-ci bəndini rəhbər tutaraq qərara alır:

«Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 601; 2006, № 2, maddə 64, № 3, maddə 221; 2007, № 11, maddə 1078; 2008, № 8, maddə 710; 2010, № 3, maddə 172) 7.2.9-cu maddəsində «buraxılan şəxslərin öyrənilməsi» sözləri «buraxılacaq şəxslər barədə yoxlama tədbirlərinin «Dövlət sirri haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq keçirilməsi» sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 20 iyun 2014-cü il
№ 985-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## «Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

«Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 413; 1999, № 5, maddə 284, № 7, maddə 396, № 10, maddə 570; 2001, № 5, maddə 292, № 6, maddə 379, № 7, maddə 455; 2002, № 1, maddə 4, № 12, maddə 706; 2003, № 6, maddə 278; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddə 199, № 8, maddələr 597, 598, № 9, maddə 669; 2005, № 1, maddə 7, № 8, maddə 686; 2006, № 1, maddə 4, № 12, maddə 1005; 2007, № 5, maddələr 439, 446, № 7, maddə 712, № 11, maddə 1078, № 12, maddə 1222; 2008, № 3, maddə 163, № 7, maddə 609; 2009, № 2, maddə 46, № 11, maddə 878; 2010, № 7,

maddə 596, № 10, maddə 842; 2011, № 4, maddə 265; 2013, № 1, maddə 21; 2014, № 2, maddə 85) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 22-ci, 33-cü və 44-cü maddələrin birinci hissəsinin ikinci cümləsində «6» rəqəmi «12» rəqəmi ilə əvəz edilsin.

**2.** 27-ci maddənin birinci hissəsi aşağıdakı redaksiyada verilsin:

«Ağır cinayətlər məhkəməsi sədrdən və hakimlərdən ibarətdir. Tərkibində 12 və daha çox hakim olan ağır cinayətlər məhkəməsində sədr müavini vəzifəsi təsis edilir.».

**3.** 90-cı maddəyə aşağıdakı məzmunda altıncı hissə əlavə edilsin:

«Birinci instansiya məhkəmələrinin maliyyə təminatı üçün nəzərdə tutulan xərclər barədə təkliflər müvafiq icra hakimiyyəti orqanına təqdim edilməzdən əvvəl Məhkəmə-Hüquq Şurasının rəyi alınır.».

**4.** 93-4-cü maddəyə aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

«Hakim vəzifəsindən öz arzusu ilə azad olunaraq, bu Qanunun 93-3-cü maddəsinin yeddinci hissəsində nəzərdə tutulan orqanlarda işləyən şəxs həmin maddədə nəzərdə tutulmuş prosedurlardan kənar, Məhkəmə-Hüquq Şurasında müsahibədən keçirilməklə, bu Qanunun 94-cü maddəsi ilə müəyyən edilmiş qaydada yenidən hakim vəzifəsinə təyin edilə bilər.».

**5.** 100-cü maddəyə aşağıdakı məzmunda dördüncü hissə əlavə edilsin:

«Hakimin fəaliyyətinə kənar müdaxilə olduqda, o, bu barədə Məhkəmə-Hüquq Şurasına müraciət etməlidir.».

**6.** 106-cı maddəyə aşağıdakı məzmunda beşinci hissə əlavə edilsin:

«Hakimin fəaliyyəti dövründə onun əmək haqqının məbləği aşağı salına bilməz.».

**7.** 113-cü maddə üzrə:

**7.1.** ikinci hissənin 9-cu bəndi aşağıdakı redaksiyada verilsin:

«**9)** əmək qabiliyyətinin fasiləsiz olaraq altı aydan çox müddətə tam itirilməsi ilə əlaqədar vəzifəsini yerinə yetirə bilmədikdə;»;

**7.2.** aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

«Əmək qabiliyyətinin tam itirilməsi müvafiq icra hakimiyyəti orqanının rəyi ilə müəyyən edilir. Əmək qabiliyyətinin tam itirilməsi dedikdə, müvafiq icra hakimiyyəti orqanının qərarı ilə hakimə müvafiq dərəcədən əlillik qrupu müəyyən edilməklə ən azı bir il müddətinə əmək qabiliyyətsiz hesab edilməsi başa düşülür.».

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 20 iyun 2014-cü il
№ 1008-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## «Məhkəmə-Hüquq Şurası haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

«Məhkəmə-Hüquq Şurası haqqında» Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 1, maddə 8, № 8, maddə 686; 2006, № 1, maddə 4; 2007, № 4, maddə 321; 2010, № 7, maddə 596; 2011, № 2, maddə 71, № 6, maddə 484; 2012, № 12, maddə 1228; 2013, № 12, maddə 1467) aşağıdakı məzmunda 22.3-cü maddə əlavə edilsin:

«**22.3.** Hakimin səlahiyyətlərinə xitam verildikdə onun barəsindəki intizam icraatına da xitam verilir.».

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 20 iyun 2014-cü il
№ 1009-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## «Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

«Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 413; 1999, № 5, maddə 284, № 7, maddə 396, № 10, maddə 570; 2001, № 5, maddə 292, № 6, maddə 379, № 7, maddə 455; 2002, № 1, maddə 4, № 12, maddə 706; 2003, № 6, maddə 278; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddə 199, № 8, maddələr 597, 598, № 9, maddə 669; 2005, № 1, maddə 7, № 8, maddə 686; 2006, № 1, maddə 4, № 12, maddə 1005; 2007, № 5, maddələr 439, 446, № 7, maddə 712, № 11, maddə 1078, № 12, maddə 1222; 2008, № 3, maddə 163, № 7, maddə 609; 2009, № 2, maddə 46, № 11, maddə 878; 2010, № 7, maddə 596, № 10, maddə 842; 2011, № 4, maddə 265; 2013, № 1, maddə 21; 2014, № 2, maddə 85) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 4-cü maddənin ikinci hissəsindən «, yaxud andlı iclasçılardan ibarət tərkibdə» sözləri çıxarılsın.

**2.** 27-ci maddənin ikinci hissəsi ləğv edilsin və üçüncü hissəsi ikinci hissə hesab edilsin.

**3.** 30-3-cü maddənin ikinci hissəsi ləğv edilsin və üçüncü hissəsi ikinci hissə hesab edilsin.

**4.** XXI fəsil və Keçid müddəalarının 6-cı hissəsi ləğv edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 20 iyun 2014-cü il
№ 1010-IVQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

«Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 11, maddə 612; 2002, № 5, maddə 250, № 6, maddə 328; 2004, № 3, maddə 133; 2005, № 12, maddə 1079; 2006, № 2, maddə 64, № 11, maddə 933, № 12, maddə 1005; 2007, № 6, maddə 560; 2008, № 4, maddə 252, № 6, maddə 462; 2010, № 3, maddə 172, № 6, maddə 487; 2011, № 4, maddələr 252, 268, № 11, maddə 989) 6-cı maddəsinin birinci hissəsinin 7-ci bəndində «buraxılan şəxsləri yoxlamaq» sözləri «buraxılacaq şəxslər barədə yoxlama tədbirlərini «Dövlət sirri haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq keçirmək» sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 20 iyun 2014-cü il
№ 986-IVQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### «Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

«Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 7, maddə 641; 2014, № 4, maddə 347) 33.1.2-ci maddəsində «şəxsin qocalığı,» sözlərindən sonra «yetkinlik yaşına çatmaması,» sözləri, «konsulluğuna» sözündən sonra «, yaxud ona himayədarlığı öz üzərinə götürmüş milli, yaxud beynəlxalq təşkilata» sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 20 iyun 2014-cü il
№ 989-IVQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### «İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 27-ci bəndini rəhbər tutaraq, «İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında» Azərbaycan Respublikasının Qanununu «Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 2013-cü il 29 oktyabr tarixli 804-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

«İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında» Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 7, maddə 572; 2011, № 12 maddə 1089; 2013, №11, maddə 1318; 2014-cü il, № 1, maddə 9) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 10.0-cı, 10.0.1-ci və 10.0.2-ci maddələr müvafiq olaraq 10.1-ci, 10.1.1-ci və 10.1.2-ci maddələr hesab edilsin və aşağıdakı məzmunda 10.2-ci maddə əlavə edilsin:

**«10.2.** Bu Qanunun 9.1.4-cü maddəsində nəzərdə tutulmuş sorğulara səlahiyyətli dövlət orqanları yayılması «İnformasiya əldə etmək haqqında» Azərbaycan Respublikasının Qanunu ilə qadağan olunmayan istənilən məlumatı sorğunun daxil olduğu tarixdən etibarən 10 gün müddətində təqdim etməlidirlər.».

**2.** Aşağıdakı məzmunda 16.5-ci maddə əlavə edilsin:

**«16.5.** Sığortaçı sığorta ödənişini bu Qanunla müəyyən edilmiş müddətdə ödəmədikdə, hər gecikdirilmiş gün üçün sığorta ödənişi məbləğinin 0,1 faizi həcmində dəbbə pulu ödəyir.».

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 20 iyun 2014-cü il
№ 999-IVQD

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

# «Dövlət sirri haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 2014-cü il 20 iyun tarixli 984-IVQD nömrəli Qanununun tətbiqi və «Dövlət sirri haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 5 noyabr tarixli 139 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, «Dövlət sirri haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 2014-cü il 20 iyun tarixli 984-IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**1.1.** Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının «Dövlət sirri haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.3.** mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.4.** həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların «Dövlət sirri haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**3.** «Dövlət sirri haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 5 noyabr tarixli 139 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 903; 2007, № 3, maddə 229, № 6, maddə 607) aşağıdakı dəyişikliklər edilsin:

**3.1.** 1.8-ci bənddə «21.11-ci» sözləri «21.9-cu» sözləri ilə əvəz edilsin və həmin bənddən «və işləməyə buraxılmasının yenidən rəsmiləşdirilməsi» sözləri çıxarılsın;

**3.2.** 1.9-cu və 3.2-ci bəndlərdə «23.1.2-ci» sözləri «23.1.4-cü» sözləri ilə əvəz edilsin;

**3.3.** 3.3-cü bənddə «19.0.3-cü maddəsində» sözlərindən sonra «, 21.5-1-ci maddəsinin ikinci cümləsində» sözləri əlavə edilsin;

**3.4.** 3.6-cı bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 3.7, 3.8 və 3.9-cu bəndlər əlavə edilsin:

**«3.7.** həmin Qanunun 21.5-1-ci maddəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini daxili işlər orqanlarında Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, dövlət sərhədinin mühafizəsi ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı, həmçinin tabeliyində olan hərbi hissələrdə Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti, digər dövlət hakimiyyəti orqanlarında, müəssisə, idarə və təşkilatlarda Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi həyata keçirir;

**3.8.** həmin Qanunun 23.1.6-cı maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikası ərazisində yaşayan vətəndaşlara münasibətdə Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti, xarici dövlətlərdə yaşayan vətəndaşlara münasibətdə isə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həyata keçirir;

**3.9.** həmin Qanunun 23.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini 23.1.1-ci maddə üzrə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, 23.1.2, 23.1.3 və 23.1.5-ci maddələr üzrə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, 23.1.4-cü maddə üzrə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, 23.1.6-cı maddə üzrə Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti və Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi (bu Fərmanın 3.8-ci bəndinə uyğun olaraq), 23.1.7-ci maddə üzrə Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi həyata keçirir.».

**4.** Azərbaycan Respublikasının Baş Prokurorluğuna tövsiyə edilsin, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinə və Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinə tapşırılsın ki, «Dövlət sirri haqqında» Azərbaycan Respublikası Qanununun 21.5-1-ci maddəsinə əsasən keçirdikləri yoxlama tədbirləri nəticəsində dövlət sirri ilə işləməyə buraxılacaq şəxsin Azərbaycan Respublikasının təhlükəsizliyi üçün təhlükə törədən hərəkətlərinin aşkara çıxması halları barədə Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinə məlumat versinlər.

**5.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi «Dövlət sirri haqqında» Azərbaycan Respublikası Qanununun 23.3-cü maddəsindən irəli gələn vəzifələrin yerinə yetirilməsini təmin etsinlər.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 8 iyul 2014-cü il
№ 217

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## «Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 2014-cü il 20 iyun tarixli 1008-IVQD nömrəli Qanununun tətbiqi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, «Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 2014-cü il 20 iyun tarixli 1008-IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**1.1.** Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının «Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna

uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.3.** mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.4.** həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların «Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**3.** Müəyyən edilsin ki:

**3.1.** «Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikası Qanununun 90-cı maddəsinin altıncı hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi həyata keçirir;

**3.2.** həmin Qanunun 113-cü maddəsinin üçüncü hissəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Tibbi-Sosial Ekspert Komissiyaları həyata keçirir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 8 iyul 2014-cü il.
№ 222

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## «Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin Əsasnaməsinin və prokurorluq işçilərinin ümumi say tərkibinin təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 28 oktyabr tarixli 138 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, «Prokurorluq haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 2014-cü il 14 fevral tarixli 909-IVQD nömrəli Qanununun icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

«Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin Əsasnaməsinin və prokurorluq işçilərinin ümumi say tərkibinin təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 28 oktyabr tarixli 138 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 10, maddə 794; 2008, № 1, maddə 9; 2011, № 3, maddə 183, № 4, maddə 273, № 5, maddə 379; 2013, № 6, maddə 653) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Adında, preambulada, 1-ci hissədə və 2.2-ci bənddə «İdarəsinin» sözü «Baş İdarəsinin» sözləri ilə əvəz edilsin.

**2.** Həmin Fərmanla təsdiq edilmiş «Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin Əsasnaməsi» üzrə:

**2.1.** adında «İdarəsinin» sözü «Baş İdarəsinin» sözləri ilə, 1-ci bənddə «İdarəsi» sözü «Baş İdarəsi» sözləri ilə, «İdarə» sözü «Baş İdarə» sözləri ilə, II, III, IV hissələrdə, 8, 10, 12 və 18-ci bəndlərdə, 5.3, 5.9, 19.1 (hər iki halda), 19.8, 19.9, 19.11 və 19.12-ci yarımbəndlərdə «İdarənin» sözü «Baş İdarənin» sözləri ilə, 2–7-ci, 9, 11,

13, 14, 19 və 20-ci (hər iki halda) bəndlərdə, 7.11-ci yarımbənddə «İdarə» sözü «Baş İdarə» sözləri ilə, 7.10, 12.1 və 19.14-cü yarımbəndlərdə «İdarədə» sözü «Baş İdarədə» sözləri ilə və 19.10-cu yarımbənddə «İdarəni» sözü «Baş İdarəni» sözləri ilə əvəz edilsin;

**2.2.** 2-ci bənddə «ixtisaslaşmış qurumdur» sözləri «ixtisaslaşdırılmış prokurorluq orqanıdır» sözləri ilə əvəz edilsin;

**2.3.** 5.5-ci yarımbənddə «hazırlayır» sözündən sonra «, həmin fəaliyyəti həyata keçirərkən normativ hüquqi aktlarda və onların layihələrində korrupsiya hüquqpozmalarına şərait yaradan hallar müəyyən etdikdə, onların aradan qaldırılması üçün Baş Prokuror qarşısında məsələ qaldırır» sözləri əlavə edilsin;

**2.4.** 9-cu bənddə «Baş Prokurorluğunun idarə və şöbələri,» sözləri «Baş Prokurorluğu və» sözləri ilə əvəz edilsin;

**2.5.** 15-17-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

**«15.** Baş İdarədə idarə, şöbə və digər struktur bölmələri yaradıla bilər. Baş İdarənin tərkibində yaradılan struktur bölmələrinin səlahiyyətləri Baş prokuror tərəfindən müəyyən edilir.

**16.** Baş İdarəyə vəzifəsinə görə Baş prokurorun müavini hesab edilən Baş İdarənin rəisi rəhbərlik edir. Baş İdarə rəisini Azərbaycan Respublikası Konstitusiyasının 133-cü maddəsinin IV hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Baş prokurorunun təqdimatına əsasən Azərbaycan Respublikasının Prezidenti vəzifəyə təyin və vəzifədən azad edir.

**17.** Baş İdarənin işçilərini Baş prokuror vəzifəyə təyin və vəzifədən azad edir. Baş İdarənin rəisi həmin şəxslərin vəzifəyə təyin və vəzifədən azad edilməsi barədə təqdimat verir.»;

**2.6.** 19.11-ci yarımbənddə «şöbələrin» sözü «idarə, şöbə və digər struktur bölmələrinin» sözləri ilə əvəz edilsin.

**3.** Həmin Fərmanla təsdiq edilmiş «Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin prokurorluq işçilərinin ümumi say tərkibi» üzrə:

**3.1.** adında «İdarəsinin» sözü «Baş İdarəsinin» sözləri ilə əvəz edilsin;

**3.2.** mətnində «İdarəsinin» sözü «Baş İdarəsinin» sözləri ilə, «100» rəqəmləri «140» rəqəmləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 24 iyul 2014-cü il
№ 234

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## «Prokurorluq haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 24 dekabr tarixli 232 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, «Prokurorluq haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 24 dekabr tarixli 232 nömrəli Fərmanını «Prokurorluq haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 2014-cü il 14 fevral tarixli 909-IVQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 745 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Baş Prokurorluğunun Strukturu»nda dəyişikliklər edilməsi haqqında»

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 17 mart tarixli 126 nömrəli Fərmanına uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

«Prokurorluq haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 24 dekabr tarixli 232 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 12, maddə 712) 4-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** İkinci və üçüncü abzaslar müvafiq olaraq üçüncü və dördüncü abzaslar hesab edilsin və aşağıdakı məzmunda ikinci abzas əlavə olunsun:

«Prokurorluq haqqında» Azərbaycan Respublikası Qanununun 11-1-ci maddəsinin birinci və ikinci hissələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.».

**2.** Üçüncü abzasda «Prokurorluq haqqında» Azərbaycan Respublikası Qanununun» sözləri «həmin Qanunun» sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 24 iyul 2014-cü il
№ 235

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## «Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında» Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 507 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, «Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında» Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 507 nömrəli Fərmanını «Prokurorluq haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 2014-cü il 14 fevral tarixli 909-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

«Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında» Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 507 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 6, maddə 405; 2002, № 8, maddə 478; 2003, № 10, maddə 585; 2004, № 1, maddə 19, 2005, № 4, maddə 299; 2006, № 2, maddə 92; 2010, № 4, maddə 289; 2011, № 4, maddə 272, № 5, maddə 381) I hissəsinin birinci və doqquzuncu abzaslarında «İdarəsi» sözü «Baş İdarəsi» sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 24 iyul 2014-cü il
№ 236

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

### Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 745 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Baş Prokurorluğunun Strukturu»nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, «Prokurorluq haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 2014-cü il 14 fevral tarixli 909-IVQD nömrəli Qanununun icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 745 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 6, maddə 428; 2004, № 1, maddə 19, № 12, maddə 1061; 2006, № 9, maddə 809; 2008, № 3, maddə 200; 2009, № 10, maddə 791; 2010, № 1, maddə 42; 2014, № 3, maddə 247) ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Baş Prokurorluğunun Strukturu»nun 1-ci hissəsi ləğv edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 24 iyul 2014-cü il
№ 665

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

### «Azərbaycan Respublikası Baş Prokurorluğu kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 746 nömrəli Sərəncamında dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, «Prokurorluq haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 2014-cü il 14 fevral tarixli 909-IVQD nömrəli Qanununun icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

«Azərbaycan Respublikası Baş Prokurorluğu kollegiyasının tərkibinin təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 746 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 6, maddə 429; 2006, № 9, maddə 810) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** On ikinci abzas ləğv edilsin.

**2.** Yeddinci – on birinci abzaslar müvafiq olaraq səkkizinci – on ikinci abzaslar hesab edilsin və aşağıdakı məzmunda yeddinci abzas əlavə olunsun:

«Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi – Azərbaycan Respublikası Baş prokurorunun müavini».

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 24 iyul 2014-cü il
№ 666

AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA
MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

30 iyun 2014-cü il Bakı şəhəri

# Azərbaycan Respublikası Konstitusiyasının 126-cı maddəsində və bir sıra normativ hüquqi aktlarda nəzərdə tutulmuş «ali hüquq təhsilli» müddəasının şərh edilməsinə dair

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Südabə Həsənova, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən (məruzəçi-hakim) ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin,

maraqlı subyektlərin nümayəndələri Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi Əsəd Mirzəliyevin, Azərbaycan Respublikası Milli Məclisi Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin baş məsləhətçisi Eldar Əsgərovun,

ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin dekanı, hüquq elmləri doktoru, professor Əmir Əliyevın,

mütəxəssislər Azərbaycan Respublikası Təhsil Nazirliyinin Hüquqi ekspertiza və lisenziyalaşdırma şöbəsinin müdiri Sübhi Kazımovun, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Qanunvericilik baş idarəsinin Sosial normativ aktlar idarəsinin aparıcı məsləhətçisi Sübhan Ağakişiyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə müvafiq olaraq xüsusi konstitusiya icraatı üzrə açıq məhkəmə iclasında Azərbaycan Respublikası Ali Məhkəməsinin sorğusu əsasında Azərbaycan Respublikası Konstitusiyasının 126-cı maddəsində və bir sıra normativ hüquqi aktlarda nəzərdə tutulmuş «ali hüquq təhsilli» müddəasının şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim K.Şəfiyevin məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssislərin çıxışlarını, ekspertin rəyini dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

## MÜƏYYƏN ETDİ:

Azərbaycan Respublikasının Ali Məhkəməsi (bundan sonra – Ali Məhkəmə) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) sorğu ilə müraciət edərək, Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra – Konstitusiya) 126-cı, «Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikası Qanununun (bundan sonra – «Məhkəmələr və hakimlər haqqında» Qanun) 93-cü, «Prokurorluq haqqında» Azərbaycan Respublikası Qanununun (bundan sonra – «Prokurorluq haqqında» Qanun) 29-cu, «Notariat haqqında» Azərbaycan Respublikası Qanununun (bundan sonra – «Notariat haqqında» Qanun) 3-cü, «Vəkillər və vəkillik fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun (bundan sonra – «Vəkillər və vəkillik fəaliyyəti

haqqında» Qanun) 8-ci maddələrində, Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli Qanunu ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında» Əsasnamənin (bundan sonra – «Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında» Əsasnamə) 20-ci bəndində və digər normativ hüquqi aktlarda nəzərdə tutulmuş «ali hüquq təhsilli» müddəasının şərh edilməsini xahiş etmişdir.

Sorğuda qeyd olunur ki, 1990-2008-ci illərdə Bakı Dövlət Universitetinə «Beynəlxalq hüquq» ixtisası üzrə tələbə qəbulu aparılmışdır. 2000-ci ilədək bu ixtisası bitirmiş məzunlara «Hüquqşünaslıq» ixtisası verilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin (bundan sonra – Nazirlər Kabineti) «Ali və orta ixtisas təhsili istiqamətlərinin və ixtisaslarının siyahısı haqqında» Nazirlər Kabinetinin 1997-ci il 9 yanvar tarixli 4 nömrəli qərarına əlavələr və dəyişikliklər edilməsi haqqında» 1999-cu il 17 may tarixli 082 nömrəli qərarı ilə «Beynəlxalq hüquq» istiqaməti və ixtisası (istiqamətin şifri – HS 200100) əlavə edilmişdir. Bundan sonra «Beynəlxalq hüquq» ixtisasını bitirmiş məzunların təhsil haqqında sənədlərində «Hüquqşünaslıq» təhsil istiqamətinin yazılması dayandırılmışdır.

Nazirlər Kabinetinin 2009-cu il 12 yanvar tarixli 8 nömrəli qərarı ilə təsdiq edilmiş «Ali təhsilin bakalavr pilləsi ixtisaslarının (proqramlarının) siyahısı»nda «Beynəlxalq hüquq» adlı nə ixtisas, nə də istiqamət nəzərdə tutulmamışdır. Təcrübədə «Beynəlxalq hüquq» ixtisası üzrə ali təhsil almış məzunlar «ali hüquq təhsili» tələb olunan vəzifələrə qəbul edilmirlər.

Sorğuverənin qənaətinə görə qeyd olunan ziddiyyətin aradan qaldırılması, «Beynəlxalq hüquq» ixtisasının «ali hüquq təhsilinə» daxil olub-olmaması məsələsinə aydınlıq gətirilməsi üçün Konstitusiyada və qanunlarda nəzərdə tutulmuş «ali hüquq təhsilli» müddəasının şərh edilməsi zərurəti yaranmışdır.

Konstitusiya Məhkəməsinin Plenumu sorğu ilə əlaqədar aşağıdakıların qeyd olunmasını zəruri hesab edir.

Konstitusiyanın 42-ci maddəsinə görə hər bir vətəndaşın təhsil almaq hüququ vardır.

Təhsil hüququ nəinki pulsuz icbari ümumi orta təhsil almaq imkanını, həmçinin yaradıcılıq, yeni biliklərin əldə edilməsi, müxtəlif sahələrdə təcrübənin artırılmasına olan təbii tələbatların ödənilməsini də ehtiva edir.

Hüquqi təbiətinə görə, təhsil hüququ sosial hüquq olduğundan onun təmin edilməsi dövlətin xüsusi məqsədlərindən biridir və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsinin təmin edilməsinə xidmət edir. Belə ki, Konstitusiyanın 16-cı maddəsinin II hissəsinə müvafiq olaraq Azərbaycan dövləti mədəniyyətin, təhsilin, səhiyyənin, elmin, incəsənətin inkişafına yardım göstərir, ölkənin təbiətini, xalqın tarixi, maddi və mənəvi irsini qoruyur.

Azərbaycan Respublikasında təhsil huququnun təmin edilməsi sahəsində dövlət siyasətinin əsas prinsipləri və təhsil fəaliyyətinin ümümi şərtləri 8 sentyabr 2009-cu il tarixədək qüvvədə olmuş 1992-ci il 7 oktyabr tarixli Azərbaycan Respublikasının Təhsil Qanunu və «Təhsil haqqında» Azərbaycan Respublikasının 2009-cu il 19 iyun tarixli Qanunu (bundan sonra – «Təhsil haqqında» Qanun) ilə tənzimlənir.

Qeyd olunmalıdır ki, hər iki qanun təhsil sahəsində dövlət siyasətinin əsas prinsiplərinə uyğun olaraq dövlətin bu sahənin tənzimlənməsində geniş səlahiyyətlərini müəyyənləşdirmişdir.

Qüvvədən düşmüş Azərbaycan Respublikasının Təhsil Qanununun 30-cu maddəsində Azərbaycan Respublikasında təhsil strategiyasını müəyyənləşdirən dövlət hakimiyyəti orqanı

kimi Nazirlər Kabinetinin təhsil sisteminin idarə olunması ilə bağlı qanunvericiliklə müəyyən edilmiş səlahiyyətləri sırasında peşə-ixtisas təhsili müəssisələri üçün ixtisasların siyahısının təsdiq olunması səlahiyyəti də nəzərdə tutulmuşdur.

Buna uyğun olaraq Nazirlər Kabineti tərəfindən «Ali və orta ixtisas təhsili istiqamətlərinin və ixtisaslarının siyahısı haqqında» 1997-ci il 9 yanvar tarixli 4 nömrəli Qərar qəbul edilmişdir. Həmin Qərarın 2.13-cü bəndində «Hüquqşünaslıq» ixtisası ali hüquq təhsili istiqaməti kimi göstərilmişdir. Bundan sonra Nazirlər Kabinetinin «Ali və orta ixtisas təhsili istiqamətlərinin və ixtisaslarının siyahısı haqqında» Nazirlər Kabinetinin 1997-ci il 9 yanvar tarixli 4 nömrəli qərarına əlavələr və dəyişikliklər edilməsi haqqında» 1999-cu il 17 may tarixli 082 nömrəli Qərarı ilə «Beynəlxalq hüquq» ali hüquq təhsilinin istiqaməti və ixtisası kimi əlavə edilmişdir.

«Təhsil haqqında» Qanunun 22-ci maddəsinə görə ali təhsil pilləsində yüksək ixtisaslı mütəxəssislərin və elmi-pedaqoji kadrların hazırlığı cəmiyyətin və əmək bazarının tələbatı nəzərə alınmaqla həyata keçirilir.

Azərbaycan Respublikasının ali təhsil müəssisələrində mütəxəssislər və elmi-pedaqoji kadrların hazırlığı üç səviyyədə həyata keçirilir: bakalavriat (tibb təhsili istisna olmaqla), magistratura (tibb təhsili istisna olmaqla) və doktorantura. Bakalavriat təhsil səviyyəsində tam orta təhsil və orta ixtisas təhsili bazasında ayrı-ayrı ixtisasların təhsil proqramları üzrə geniş profilli ali təhsilli mütəxəssislər hazırlanır. Bakalavriat təhsili başa çatmış ali təhsildir.

«Ali təhsil pilləsinin dövlət standartı və proqramı»nın təsdiq edilməsi haqqında» Nazirlər Kabinetinin 2010-cu il 23 aprel tarixli Qərarının 1.2-ci bəndində ali təhsilin məqsədinin ali təhsil pilləsində cəmiyyətin və əmək bazarının tələbatı nəzərə alınmaqla, müxtəlif ixtisaslar (ixtisaslaşmalar) üzrə yüksəkixtisaslı mütəxəssislərin və elmi-pedaqoji kadrların hazırlanmasından ibarət olması qeyd olunmuşdur.

Təhsil sistemində ali hüquq təhsili xüsusi yer tutur. Ali hüquq təhsili sahəsində müəyyən vahid dövlət standartı mövcuddur, həmin standart müasir cəmiyyətin tələbatlarına uyğun olaraq hüquqşünasların hərtərəfli siyasi, sosial, hüquqi, mədəni biliklərə malik olmasını təmin edir.

Ali hüquq təhsili peşəkar hüquqi fəaliyyətlə məşğul olmağa əsasları nəzərdə tutan dövlət, hüquq və idarəçilik haqqında biliklərin məcmusudur. Ali hüquq təhsili şəxsin hüquqşünaslıq sahəsində təlim və təhsil nəticəsində əldə etdiyi və onun peşəkar-hüquqi fəaliyyətlə məşğul olmasına imkan yaradan hüquqi bilik, baxış və inam sistemidir. Xüsusilə qeyd olunmalıdır ki, ali hüquq təhsili özündə müxtəlif hüquq sahələri üzrə ixtisaslaşmanı da əks etdirir. Burada nəzərə alınmalıdır ki, təhsil üzrə ixtisaslaşmanın aparılmasının əsas məqsədi peşəkar təhsil proqramları üzrə təhsil prosesində müvafiq peşəkar fəaliyyətin mümkünlüyünü təmin edən bilik, təsəvvür və bacarıqların əldə olunmasıdır. Eyni zamanda, ali hüquq təhsili üzrə ixtisaslaşmanın müəyyən edilməsinin ali təhsil müəssisələrində təsdiq olunmuş təhsil proqramlarına uyğun olaraq təhsil almış şəxslərin gələcəkdə ali hüquq təhsilinə malik olmamasına dəlalət edən meyar kimi qəbul edilməsi Konstitusiyada təsbit olunmuş təhsil hüququnun mahiyyətinə xələl gətirmiş olar.

Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, qanunvericilikdə hər hansı hüquqi məsələ, xüsusilə də Konstitusiyada təsbit olunmuş hüquqların həyata keçirilməsi məsələsi elə tənzimlənməlidir ki, konstitusiya əhəmiyyətli dəyərlərə xələl gətirilməsin, ictimai və xüsusi maraqlar arasındakı tarazlığa riayət olunsun.

Qeyd olunmalıdır ki, dövlət hakimiyyəti orqanları öz səlahiyyətləri çərçivəsində təhsil

sahəsinin dövlət tənzimlənməsinin həyata keçirilməsində sərbəstdir. Lakin belə tənzimləmə o halda və tərzdə mümkündür ki, müvafiq ali təhsil istiqamətlərinin müəyyən edilməsi obyektiv hallara əsaslansın, özünü doğrultsun, konstitusiya əhəmiyyətli məqsədlərə xidmət etsin və bu məqsədlərə nail olmaq üçün istifadə olunan hüquqi vasitələrə mütənasib olsun.

Bununla yanaşı, «Hüquqşünaslıq» və «Beynəlxalq hüquq» ixtisaslarında tədris edilən fənlərin müqayisəli təhlili nəticəsində aşağıdakılar müəyyən edilmişdir:

– «Beynəlxalq hüquq» və «Hüquqşünaslıq» ixtisasları üzrə tədris olunan fənlər eynilik təşkil edir. Belə ki, hər iki ixtisasın Tədris planlarına əsasən «Humanitar və sosial fənlər» blokuna aid «Azərbaycan tarixi», «Azərbaycan dili», «Xarici dil», «Məntiq», «İnformatika», «Dünya siyasəti», «Fəlsəfə», «İqtisadiyyat», «Mədəniyyətşünaslıq», «Politologiya və sosiologiya» və s. kimi humanitar və sosial fənlər eyni saat miqdarında tədris olunmuşdur.

– Ümumi peşə hazırlığı hər iki ixtisas üzrə uyğunluq təşkil edir. Belə ki, «Dövlət və hüquq nəzəriyyəsi», «Xarici ölkələrin dövlət və hüquq tarixi», «Azərbaycanın konstitusiya hüququ», «Müqayisəli konstitusiya hüququ», «Siyasi və hüquqi təlimlər tarixi», «Azərbaycanın dövlət və hüquq tarixi», «Maliyyə hüququ», «Beynəlxalq ümumi hüquq», «Beynəlxalq xüsusi hüquq» və s. kimi fənlərin tədris saatları hər iki ixtisas üçün kəskin fərqlənmir. «Beynəlxalq ümumi hüquq» və «Beynəlxalq xüsusi hüquq» fənləri «Beynəlxalq hüquq» ixtisası üçün daha geniş tədris olunmuşdur.

– «Mülki hüquq», «Cinayət hüququ», «Mülki proses», «Cinayət prosesi», «İnzibati hüquq», «Əmək hüququ» və s. fənlər həm «Beynəlxalq hüquq», həm də «Hüquqşünaslıq» ixtisası üzrə təhsil alan tələbələrə iki semestr ərzində tədris olunmuşdur. Yuxarıda qeyd olunan fənlərin tədrisində olan yeganə fərq onların «Beynəlxalq hüquq» ixtisası tələbələrinə digər dövlətlərin hüquq sistemləri ilə müqayisəli şəkildə tədris olunmasıdır (məsələn, «Hüquqşünaslıq» ixtisasında «Mülki hüquq» fənni – «Beynəlxalq hüquq» ixtisasında isə «Müqayisəli mülki hüquq» fənni tədris olunmuşdur). Eyni zamanda, «Beynəlxalq hüquq» ixtisası məzunlarına qeyd olunan sahələrdə təkcə Azərbaycan Respublikasının qanunvericiliyi deyil, həm də xarici ölkələrin qanunvericiliyi tədris edilmişdir.

Fənlərin tədris saatlarında olan fərqlə bağlı qeyd etmək lazımdır ki, məsələn, «Müqayisəli mülki hüquq» fənninin «Beynəlxalq hüquq» ixtisasında tədris olunmasına 160 saat, «Mülki hüquq» fənninin «Hüquqşünaslıq» ixtisasında tədris olunmasına isə 210 saat ayrılmışdır. Halbuki, Hüquq fakültəsinin qiyabi şöbəsində «Mülki hüquq» fənninin tədrisinə cəmi 70 saat ayrılır.

Nəzərə alınmalıdır ki, «Beynəlxalq hüquq» istiqaməti üzrə bakalavr təhsili almış məzunların magistr pilləsində cinayət hüququ, mülki hüquq, əmək hüququ və s. ixtisaslar üzrə təhsil almasına məhdudiyyət qoyulmamışdır.

Qeyd olunmalıdır ki, ümumi peşə hazırlığının hər iki ixtisas üzrə uyğunluq təşkil etməsinə, eyni fənlərin tədris olunmasına və tədris saatları arasında kəskin fərqin olmamasına baxmayaraq, «Hüquqşünaslıq» ixtisasından fərqli olaraq «Beynəlxalq hüquq» ixtisası «ali hüquq təhsili»nə aid edilməmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, hüquq bərabərliyi konstitusiya prinsipi ali təhsil, o cümlədən ali hüquq təhsili sahəsində hüquq və azadlıqların həyata keçirilməsində fərqli yanaşmanın aradan qaldırılmasına təminat verərək, ali hüquq təhsilinin hər hansı ixtisaslaşdırılma meyarına görə fərqləndirilməməsini şərtləndirir. Əks halda dövlətin təhsil sahəsində müəyyən etdiyi tələblərin eyni hüquqi vəziy-

yətdə olan şəxslərə eyni qaydada tətbiq edilməməsi sosial ədalətin və tarazlığın pozulmasına səbəb olar.

Təhsil hüququ bir sıra konstitusion hüquq və azadlıqlarla, o cümlədən əmək hüququ və dövlətin idarə olunmasında iştirak etmək hüququ ilə bilavasitə bağlıdır və onların həyata keçirilməsi üçün mühüm şərt kimi çıxış edir. Konstitusiyanın 35-ci maddəsinə əsasən hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır. Konstitusiyanın 55-ci maddəsi vətəndaşlara dövlət orqanlarında qulluq etmək imkanı yaradır.

Bəzi fəaliyyət növləri ilə məşğul olmanın vacib şərtlərindən biri də şəxsin ali hüquq təhsilli olmasıdır. Məsələn, «Məhkəmələr və hakimlər haqqında» Qanunda, «Prokurorluq haqqında» Qanunda, «Notariat haqqında» Qanunda, «Vəkillər və vəkillik fəaliyyəti haqqında» Qanunda, eləcə də «Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında» Əsasnamədə göstərilən fəaliyyət növləri ilə məşğul olmaq üçün şəxsin ali hüquq təhsilli olması şərti müəyyən edilmişdir.

Beləliklə, «Beynəlxalq hüquq» istiqaməti üzrə ali təhsil almış şəxslərin təhsilinin «ali hüquq təhsili» hesab edilməməsi, onların ixtisasları üzrə fəaliyyət növü və iş yeri seçmək hüququnun məhdudlaşdırılmasına və onların Konstitusiyanın 35 və 55-ci maddələrində təsbit olunmuş hüquqlardan istifadə etmək imkanın deklarativ xarakter daşımasına səbəb olur.

Göstərilənləri nəzərə alaraq, Konstitusiyanın 126-cı maddəsində, «Məhkəmələr və hakimlər haqqında» Qanunun 93-cü, «Prokurorluq haqqında» Qanunun 29-cu, «Notariat haqqında» Qanunun 3-cü, «Vəkillər və vəkillik fəaliyyəti haqqında» Qanunun 8-ci maddələrində, «Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında» Əsasnamənin 20-ci bəndində və digər normativ hüquqi aktlarda nəzərdə tutulmuş «ali hüquq təhsilli» müddəası «Hüquqşünaslıq» ixtisası ilə bərabər «Beynəlxalq hüquq» ixtisası üzrə ali təhsili də ehtiva edir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsini, «Konstitusiya Məhkəməsi haqqında» Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65–67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

## QƏRARA ALDI:

**1.** Azərbaycan Respublikası Konstitusiyasının 126-cı maddəsində, «Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikası Qanununun 93-cü, «Prokurorluq haqqında» Azərbaycan Respublikası Qanununun 29-cu, «Notariat haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü, «Vəkillər və vəkillik fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 8-ci maddələrində, Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli Qanunu ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında» Əsasnamənin 20-ci bəndində və digər normativ hüquqi aktlarda nəzərdə tutulmuş «ali hüquq təhsilli» müddəası «Hüquqşünaslıq» ixtisası ilə bərabər «Beynəlxalq hüquq» ixtisası üzrə ali təhsili də ehtiva edir.

**2.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**3.** Qərar «Azərbaycan», «Respublika», «Xalq qəzeti», «Bakinski raboçi» qəzetlərində, «Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı»nda dərc edilsin.

**4.** Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr** **Fərhad Abdullayev**